# Xalq qəzeti

Xalqın qəzeti!

№ 95 (30499) 9 may 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzeti

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


**Azərbaycan "yüksək insan inkişafı" dövlətinə çevrilib**



Səhifə ⇨ 11

# Bolqarıstanla strateji tərəfdaşlıq yeni məzmunla zənginləşir

## Bolqarıstan Prezidenti Rumen Radevin rəsmi qarşılanma mərasimi





**Azərbaycan Respublikasına rəsmi səfərə gələn Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin mayın 8-də rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Bolqarıstan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bolqarıstan Prezidenti Rumen Radevi və birinci xanım Desislava Radevanı qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Bolqarıstan Prezidentinə raport verdi.

Bolqarıstan Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti Bolqarıstan Prezidenti Rumen Radevə və birinci xanım Desislava Radevaya, Bolqarıstan nümayəndə heyəti isə Azərbaycan Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Bolqarıstan Prezidenti Rumen Radevin qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.



# Fəlakət moizəsi

## Ermənistanda kilsə–hakimiyyət qarşıdurması kəskinləşir

**Ermənistanın baş naziri Nikol Paşinyanın, demək olar, bütün çıxışları və müsahibələri ölkə daxilində səs-küy yaratmaqdadır. İki gün əvvəlki mətbuat konfransı da bu baxımdan istisna deyil. Nikol bir sıra şəxslərin bostanına daş atdı. Həmin şəxslərdən biri sabiq prezident Robert Koçaryandır. Bu barədə, eləcə də Ermənistanda hazırda yaşananların ideoloji motivləri haqqında söz açacağıq. Hələlik isə bəzi məqamları diqqətə çatdıraq.**

Hazırda susqun vəziyyətdə görünən sabiq prezident R.Koçaryanın Ermənistanda gedən proseslərdə nə dərəcədə əlinin olduğunu söyləmək çətindir. Hər halda, susqun kimi görünmək hərəkətsizlik demək deyil. Ölkənin daxilini daha yaxşı bilməsi reallığını nəzərə alsaq, Paşinyan Koçaryanın adını heç də elə-belədən çəkmir. Amma bir məqam da var. Nəinki Paşinyan, eləcə də onun komandasında yer alan digərlərin bir qayda olaraq, Ermənistandakı bütün neqativ məsələlərlə bağlı sabiqləri günahlandırırlar.

Bəli, baş nazirin öz sələflərini ittiham etməsi təsadüf sayılmamalıdır. O, sıravi ermənilərin Qarabağ klanına qarşı nifrətini körükləyir. Nikol üzləşdiyi bütün çətin durumlarda belə davranaraq, vəziyyəti dəyişməyi bacarır. Görünür, üzərindən altı il keçsə də, ermənilərin klana qəzəbi səngiməyib. Digər tərəfdən, Paşinyanın bu yolu seçməsi həm də o deməkdir ki, sabiq qruplaşma hələ də "fəaliyyətdədir". Yəqin, "fəaliyyət" gizlidir. Hərçənd, keçmiş xarici işlər naziri Vardan Oskanyan və müdafiə naziri Seyran Ohanyan bu günlərdə iqtidarı devirməklə bağlı çağırışlar səsləndiriblər. Yəni, gizlilikdə aşkarlıq meyilləri də var.

"Ekslər" dedikdə burada yalnız Ermənistanın siyasi hakimiyyətində əvvəl təmsil olunmuşlar nəzərdə tutulmamalıdır. Əslində, Paşinyan onları, böyük ölçüdə, sıradan çıxarmağı bacarıb. Kürəyini yerə verməyən isə ölkənin dini hakimiyyətidir. Nikol və komandası din pərdəsi altında gizlənmiş bu qruplaşma ilə bağlı tutarlı tədbir görə bilmir. Mövcud istiqamətdə işlər aparır, amma hələlik nəyəsə müvəffəq ola bilmir. İşlərə gəldikdə isə, Paşinyanın jurnalist dostları müxtəlif sosial şəbəkə hesablarında katolikos II Qaregini aşağılayan fikirlər tirajlayırlar. Hətta açıq təhqiramiz ifadələr də işlədirlər. Məsələn, bir müddət əvvəl ölkənin tanınmış jurnalist-blogerlərindən olan Roman Baqdasaryan özünün "Tiktok" sosial şəbəkə hesabında canlı yayım açaraq, II Qaregini əxlaqsızlıqda, daha dəqiq desək, uşaqbazlıqda ittiham etmiş və belə bir reputasiyaya malik şəxsin ölkə və xalq adına söz deməsinin mənəvi pozğunluq olduğunu vurğulamışdı.

Əlbəttə, Paşinyan II Qaregini jurnalist Baqdasaryan kimi təhqir etmir. Amma onun mətbuat konfransındakı hədəflərindən birinin baş katolikos olduğu aydındır. Nikol Ermənistanda cərəyan edən proseslər və gərginlik fonunda dini hakimiyyəti gözdən salmağı düşünür. Daha doğrusu, o, hədəfi özündən yayındırmaq fikrindədir.

Əslində, erməni xalqı II Qareginin din pərdəsi altında çıxardığı hoqqabazlıqlardan xəbərdardır. Sadəcə, xalq ehkamlardan qurtula bilmir. Nikol isə bunun baş verməsinə çalışır. Ümumən, hazırda Ermənistandakı proseslər, istər-istəməz, ortaya din və hakimiyyət məsələsini çıxarır. Erməni cəmiyyəti mənfi stereotiplərdən uzaqlaşmaq üçün dini liderlərin siyasi hakimiyyətə təsirini sıradan çıxarmalıdır. Çünki bu stereotip keçmişin qalığıdır. Dövlətçiliyin olmadığı dövrün qalığı.

Məsələ ondadır ki, tarixən dövləti olmayan erməni qövmünə liderliyi din xadimləri həyata keçiriblər. Onlar ideoloji rol oynayıblar. Bu rol kilsəyə dövlət içində ayrıca dövlət olmaq üstünlüyünü qazandırıb. Təsadüfi deyil ki, Qarabağ avantürasının başlıca qızışdırıcısı rolunda məhz kilsə çıxış edib. O avantüranın ki, acınacaqlı sonu hər kəsə yaxşı məlumdur.

Kilsə yenə köhnə havaları gündəmə gətirir. Mahiyyətcə o havalar Ermənistanın dövlətsizlik dövrün məhsuludur. Deməli, hazırkı situasiyada erməni xalqı dövlət millətinə çevrilmək istəyirsə, dövlətsizlik mərhələsinin yaşantısını kənara qoymalıdır. Paşinyanın istədiyi də elə budur. Kilsə isə davranışları ilə müqavimət göstərir və çalışır ki, mövqeyini qoruyub saxlasın.

Əlbəttə, erməni katolikosu yaxşı anlayır ki, artıq XXI əsrdir, Ermənistan dünyəvi dövlətdir. Ona görə ehtiyatlı davranır. Onun dünən yaydığı bəyanatda da ehtiyatlılıq hiss olunur. Belə ki, kilsə etiraza qoşulan insanları siyasi tələblər səsləndirməyə, hakimiyyəti devirmək çağırışlarından uzaq durmağa çağırır. Deməli, Paşinyanın anti-kilsə ritorikasının cəmiyyətdə bölücülük yaymağa hesablandığını, xalqın dini hakimiyyətə qarşı çıxma ehtimalını nəzərə alır. Ancaq bu bəyanat, istər-istəməz, kilsənin dünyəvi hakimiyyətlə rəqabətdə olduğuna, siyasi proseslərdə iştirakına dair rəy formalaşdırır.

Bəli, kilsənin siyasi hakimiyyətə təsiri ritorikası baxımından Paşinyanın söylədikləri aktualdır. Təsəvvür edin, jurnalist baş nazirə hazırda Ermənistanda vüsət almış anti-iqtidar hərəkatının kilsənin qabaqcıl təbəqəsi ilə cəmiyyət arasında uçurumu dərinləşdirib-dərinləşdirməyəcəyi ilə əlaqədar sual verir. Sual belədir: "Münasibətlərin böhranlı olduğu bir şəraitdə II Qaregin xalqın mənəvi maraqlarına xidmət etməkdə və erməni xalqını təmsil etməkdə nə qədər davam edə biləcək?"

Paşinyanın cavabına diqqət yetirək. Onun ilk sözü budur ki, hökumət kilsənin işlərinə qarışmamalıdır. Bu, o deməkdir ki, kilsə də hakimiyyətin işlərinə qarışa bilməz. Ardınca baş nazir davam edir: "Nə olacaq, nə olmayacaq, sonda erməni apostol kilsəsinin öz qayda-qanunları var, detalları bilmirəm. Aydındır ki, bu gün Ermənistandakı siyasi hərəkata bütün ermənilərin katolikosu rəhbərlik edir. Niyə katolikos siyasi hərəkata rəhbərlik etməlidir? Hərəkatın nümayəndəsi bəyan edib ki, məqsəd Ermənistanda "keçmişləri" hakimiyyətə gətirməkdir. Bu ssenari 2021-ci il seçkilərindən sonra yaranıb. Onu "Ermənistan" blokunun rəhbəri təqdim edib. Ermənistanda hakimiyyət dəyişikliyini kilsə vasitəsilə necə həyata keçirmək olar? Bütün ermənilərin katolikosunun xeyir-duası nə deməkdir? Bu, o deməkdir ki, din xadimi bütün ermənilərin katolikosunun icazəsi və göstərişi olmadan siyasi mətni tələffüz edə bilməz. Aydındır ki, prosesin lideri bütün ermənilərin katolikosu, benefisiar isə "Ermənistan" blokunun rəhbəri Robert Koçaryandır".

Göründüyü kimi, kilsə din pərdəsi altında öz "oyununu" oynayır. Bir daha qeyd edək ki, söhbət Paşinyanın bildirdiyi tərzdə desək, "keçmişlərə" sərmayə yatırmaqdan gedir. Bu sərmayə tam siyasi mahiyyət daşıyır. Sabiq prezident Koçaryanın ofisinin rəhbəri Baqrat Mikoyan "Yerevan.today"a müsahibəsində də bu mahiyyəti dana bilmir. Yalnız atmacalı danışmaqla kifayətlənir: "Mən ona (Paşinyana – red.) əlçatan bir mənbədən sitat gətirəcəm: başqa bir qəhrəmanın adını bilmirsən?"

N.Paşinyana "başqa qəhrəman" lazım deyil. O, hazırda qəhrəman kimi görünənləri sıradan çıxarmağa cəhd göstərir. Əslində, prinsip etibarilə doğru yoldadır. Çünki "qəhrəmanların" Ermənistanı hansı hala gətirdiyini bilir. Onların hazırda Azərbaycanla sülh prosesini pozmağa çalışdıqlarını da həmçinin.

"Qəhrəmanlar" istəyirlər ki, sərhədlərin delimitasiyası və demarkasiyası aparılmasın. Axı beləlləri üçün Ermənistanın sərhədi yoxdur. İddiaları yerə-göyə sığmayan əbləhlər düşərgəsinin təmsilçiləri yenə "dənizdən-dənizə böyük Ermənistan" yuxusunu görürlər. Ən pisi budur ki, yuxularında gördüklərini tətbiq etməyə girişirlər.

Əlbəttə, istəklərinə müvəffəq olmaları mümkünsüzdür. Bir problem də var ki, iqtidar üzərində üstünlük qazanmaları Ermənistan üçün əsl fəlakətdir. Nəzərə alaq ki, Paşinyanın çıxışlarındakı ayrı-ayrı tezislər hazırkı şərtlərlə razılaşılmayacağı təqdirdə, ölkəni hansı acınacaqlı vəziyyət gözləyəcəyinin anonsudur. Deməli, R.Koçaryan başda olmaqla, "eks"ləri hakimiyyətə gətirməyə çalışan kilsənin hərəkət və davranışları fəlakət moizəsindən başqa bir şey deyil.

*Ə.RÜSTƏMOV*
*XQ*

## Qara fikirlərə işıq salan cavab

The Guardian

Səhifə ⇨ 6

## Slovakiya şirkətləri ölkəmizdə həvəslə fəaliyyət qurur



Səhifə ⇨ 10

## DOST Azərbaycanın yeni sosial brendidir

Səhifə ⇨ 13

## Sülh Ermənistanın xilas qapısıdır



Səhifə ⇨ 12

## Qəhvəyi tauna vurulan Azərbaycanın zərbəsi

Səhifə ⇨ 14

# Prezidentlərin təkbətək söhbəti



Mayın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə təkbətək görüşü olub.

# Azərbaycan–Bolqarıstan sənədləri imzalanıb



Mayın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin iştirakı ilə Azərbaycan-Bolqarıstan sənədlərinin imzalanması mərasimi olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev "Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında strateji tərəfdaşlığın gücləndirilməsi haqqında Birgə Bəyannamə"ni imzaladılar.

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Elmin Məmmədov və "Bulgaria Air" aviaşirkətinin İdarə Heyətinin üzvü Xristo Todorov "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti və "Bulgaria Air" Səhmdar Cəmiyyəti arasında kod paylaşma Sazişi"ni imzaladılar.

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Elmin Məmmədov və Bolqarıstan Respublikasının energetika nazirinin vəzifəsini icra edən Vladimir Malinov "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Bolqarıstan Respublikasının İnnovasiya və İnkişaf Nazirliyi arasında texnoloji innovasiya sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzaladılar.

Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və "Asarel Investment" şirkətinin müşahidə şurasının sədri Dimitar Tsosorkov "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Asarel Investment" arasında Anlaşma Memorandumu"nu imzaladılar.

# Geniş tərkibdə görüş



Mayın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə geniş tərkibdə görüşü keçirilib.

**Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

- Cənab Prezident, nümayəndə heyətinin üzvləri, bir daha xoş gəlmisiniz.

Ölkəmizə yenidən səfər edən əziz dostum Prezident Radevi görməyə çox şadam. Bildiyiniz kimi, bizim mütəmadi təmaslarımız olur və qarşılıqlı səfərlərin həyata keçirilməsi artıq yaxşı bir ənənəyə çevrilib. Mən şadam ki, biz səmərəli müzakirələrimizi davam etdirəcəyik və tərəfdaşlığımızı gücləndirəcəyik.

Cənab Prezidentlə görüşümüzdə əməkdaşlığımızın müxtəlif aspektlərini müzakirə etdik və əlbəttə ki, əsas diqqəti yeni nəticələr əldə olunmasına yönəltdik. Bilirəm ki, nümayəndə heyətlərinin üzvləri artıq təmasda olublar, bəziləri dünən, bəziləri bu gün. Müzakirə etməli çox məsələlər var. Gündəlik həqiqətən də çox genişdir, güclü siyasi əlaqələr var. Bu gün biz strateji tərəfdaşlığımızın gücləndirilməsinə dair Bəyannamə imzalayacağıq. İqtisadi, enerji, nəqliyyat sektorları - hamısı çox yaxşı səviyyədədir. Mən tərəfdaşlığımızı nəzərdə tuturam və əlbəttə ki, humanitar əlaqələri. Əməkdaşlıq razılaşması imzalamış iki şəhərdən - Veliko Tırnova və Şuşadan olan təmsilçilər də əməkdaşlığımızın əhəmiyyətli hissəsinə töhfə verir.

Biz şadıq ki, hazırda Bolqarıstan və Azərbaycan enerji təhlükəsizliyi məsələləri üzərində sıx şəkildə çalışır. Bizim Bolqarıstana qaz təchizatımız artır. Ümidvaram ki, bu il də artım müşahidə edəcəyik. Biz, həmçinin yaşıl gündəlik üzərində birlikdə işləyirik. Mən cənab Prezidenti COP29-da iştirak etməyə dəvət etdim və onu noyabrda yenidən görməyə şad olaram. Eyni zamanda, yaşıl enerji kabeli layihəsində heyətlərimiz sıx şəkildə işləyirlər. Əminəm ki, səfərin yaxşı nəticələri olacaq və tərəfdaşlığımız uğurla davam edəcək. Beləliklə, cənab Prezident, bir daha Azərbaycana xoş gəlmisiniz.

***

**Prezident Rumen Radev çıxış edərək dedi:**

- Cənab Prezident, əziz dostum İlham Əliyev, ənənəvi səmimi qonaqpərvərliyinizə görə təşəkkür edirəm. Bildiyimiz kimi, bu, son iki ildə bizim dördüncü görüşümüzdür və bu, çox yaxşı haldır. Çünki yüksək səviyyəli siyasi təmaslar bizim qarşılıqlı maraq doğuran sahələrin hamısının inkişaf etdirilməsinə zəmin yaradır. Biz enerji sektorunda aparılan əməkdaşlıqdan çox məmnunuq. Son iki il ərzində biz çoxlu iş görmüşük. Yunanıstan və Bolqarıstan arasında rəsmi interkonnektorun açılışında şəxsən iştirak etdiniz. Bununla yanaşı, SOCAR-ın nümayəndəliyinin açılışında iştiraka görə Sizə təşəkkür edirəm. Həmçinin Sizin iştirakınızla biz "Həmrəylik Halqası" layihəsi çərçivəsində Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın qazötürücü şəbəkələri, habelə SOCAR arasında Anlaşma Memorandumunu imzaladıq. Bu, Avropa Komissiyasının strateji baxışına və Avropa Komissiyasının Prezidenti ilə 2022-ci ildə imzaladığınız strateji tərəfdaşlığa dair Memoranduma əsasən həyata keçirilir.

Biz Azərbaycan qazının əlavə həcmlərinin Avropaya nəql edilməsi üçün ölkənizlə birlikdə işləyə biləcəyimizə görə çox məmnunuq. Aydındır ki, biz birlikdə işləməklə təkcə ikitərəfli əməkdaşlığımızı gücləndirmirik. Bu, Qafqaz və Qara dəniz regionunun sabitliyi və iqtisadi inkişafı üçün atılan bir addımdır. Bu, ümumilikdə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsi üçün atılan bir addımdır.

# Liderlər mətbuata bəyanatlarla çıxış ediblər

**Mayın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə dövlətimizin başçısı mətbuata bəyanatla çıxış etdi.**

## Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli cənab Prezident, əziz dostum.

Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Bu gün Bolqarıstan Respublikasının Prezidentinin Azərbaycana səfəri zamanı bir neçə önəmli sənəd imzalanmışdır. Onların arasında təbii ki, strateji tərəfdaşlığın gücləndirilməsi haqqında Birgə Bəyannaməni xüsusilə qeyd etmək istərdim. Bolqarıstan və Azərbaycan 2015-ci ildən strateji tərəfdaşdırlar. Bu illər ərzində əlaqələrimiz sürətlə və uğurla inkişaf edib. Bolqarıstan Prezidentinin budəfəki səfəri bunun növbəti təzahürüdür.

Bizim Prezident Radevlə görüşlərimiz müntəzəm xarakter daşıyır. Keçən il həm Prezident Radev Azərbaycana, həm də mən Bolqarıstana səfərlər etmişdik. Eyni zamanda, keçən il biz Bolqarıstan–Serbiya sərhədində görüşmüşdük. Bir sözlə, fəal siyasi dialoq imkan verir ki, bütün istiqamətlər üzrə əlaqələrimiz genişlənsin, dərinləşsin və yeni nəticələr əldə edilsin.

Təbii ki, bu gün Bolqarıstan–Azərbaycan əlaqələrinin geniş spektri müzakirə edilmişdir və gələcək addımlarımız haqqında fikir mübadiləsi aparılmışdır. Son vaxtlar ticarət dövriyyəsi bir neçə dəfə artmışdır. Bunun əsas səbəbi, təbii ki, enerji sektorundakı əməkdaşlıqdır. Bu əməkdaşlığın bugünkü səviyyəsi və perspektivləri də çox müsbətdir. Təkcə onu demək kifayətdir ki, təbii qaz təchizatı sahəsində ildən-ilə Azərbaycan qazının Bolqarıstana ixracı artmaqdadır. Keçən il 1 milyard 250 milyon kubmetr Azərbaycan qazı Bolqarıstan bazarına nəql edilmişdir. Müqayisə üçün deyə bilərəm ki, 2022-ci ildə bu rəqəm cəmi 600 milyon kubmetr idi. Bizim hesablamalarımız onu göstərir ki, bu ilin sonuna qədər 1,5 milyard kubmetr Azərbaycan qazı Bolqarıstana ixrac ediləcək. Bu da Bolqarıstanın qaz istehlakının təqribən 50 faizini təşkil edir. Yəni, bu gün Azərbaycan Avropa Komissiyasının dili ilə desək, Panavropa qaz təchizatçısı kimi fəaliyyətini Avropa məkanında genişləndirir və enerji təhlükəsizliyi məsələlərinin həlli üçün öz dəstəyini əsirgəmir.

Bolqarıstan, eyni zamanda, qaz nəqli istiqamətində önəmli tranzit ölkəyə çevrilibdir. Hazırda Azərbaycan qazı Bolqarıstan ərazisindən digər qonşu ölkələrə ixrac edilir və şübhəsiz ki, gələcəkdə bu ölkələrin sayı daha da artacaq. Yəni, bu, əməkdaşlığımızın konkret nəticələridir, çox güclü ikitərəfli əlaqələrimizin məntiqi nəticəsidir. Çünki bizim əməkdaşlığımız gərək konkret nəticələrlə sonuclansın. Yəni, əməkdaşlığın əsas məqsədi daha yaxşı nəticələri əldə etməkdir və biz həm ticarət dövriyyəsinin artımında, eyni zamanda, energetika sahəsindəki əməkdaşlıqda bunu görürük.

Bu gün biz bir layihəni də müzakirə etdik, o da yaşıl enerji kabelidir. Bildiyiniz kimi, Azərbaycan tərəfdaş ölkələrlə, o cümlədən Bolqarıstanla bu istiqamətdə çox fəal iş aparır. Hesab edirik ki, bir neçə aydan sonra hazır olacaq texniki-iqtisadi əsaslandırma işlərin başlanması üçün gözəl zəmin olacaq. Beləliklə, Azərbaycan Avropa məkanı üçün təkcə neft-qaz təchizatçısı kimi deyil, eyni zamanda, yaşıl enerji təchizatçısı kimi özünü göstərəcək. Potensial kifayət qədər genişdir və biz bu barədə, eyni zamanda, ilin sonunda COP29 konfransında da danışacağıq. Mən Prezident Radevi bu tədbirdə iştirak etmək üçün Azərbaycana dəvət etmişəm.

Bir önəmli istiqamət isə nəqliyyatla bağlıdır. Bu da müzakirə edildi. Mən Prezident Radevə məlumat verdim ki, Azərbaycanın sərmayəsi sayəsində bir neçə gün bundan əvvəl Bakı-Tbilisi-Qars dəmir yolunun modernləşdirilməsi tam başa çatmışdır. Onun ötürmə qabiliyyəti bir neçə dəfə artırılmışdır. Vaxtilə Azərbaycan tərəfindən təşəbbüs kimi irəli sürülmüş, bu gün isə artıq imkanları genişləndirilmiş bu layihə Orta Dəhlizin önəmli seqmenti kimi təbii ki, mühüm rol oynayacaq. Həm Şərq–Qərb istiqaməti və həm də əks istiqamət üzrə daha böyük həcmdə yüklərin daşınması bizim münasibətlərimizi daha da gücləndirəcək.

Bir sözlə, hesab edirəm ki, artıq bugünkü səfərin nəticələri haqqında danışmaq olar. Nəticələrdən biri odur ki, strateji tərəfdaşlığımızın artıq gücləndirilmiş versiyası rəsmən qəbul edilib, təsdiqlənib. Bütün qeyd etdiyim və bir neçə başqa məsələ ilə bağlı da bizim fikir ayrılığımız yoxdur. Bizim məqsədimiz ikitərəfli əməkdaşlığı dərinləşdirmək, yeni məzmunla zənginləşdirmək və strateji tərəfdaşlar kimi birgə səylər göstərməkdir.

Hörmətli cənab Prezident, bir daha Sizi salamlayıram və Sizə xoş səfər arzulayıram.

Sonra Bolqarıstan Prezidenti bəyanatla çıxış etdi.

## Prezident Rumen Radevin bəyanatı

– Hörmətli cənab Prezident.

Hörmətli nümayəndə heyətinin üzvləri.

Hörmətli media nümayəndələri.

Əvvəlcə mən Bolqarıstanın dostu və mənim şəxsi dostum Azərbaycan Prezidenti İlham Əliyevə dəvətə və səmimi qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istərdim. Bu, ənənəvi Azərbaycan qonaqpərvərliyinə uyğun olan bir qarşılanmadır.



Bizi ənənəvi dostluq, anlaşma və qarşılıqlı etimad əlaqələri birləşdirir. Biz ən yüksək səviyyədə siyasi-strateji dialoqu aparırıq. Cənab Prezident Əliyev qeyd etdiyi kimi, bu, bizim son dövrdə dördüncü görüşümüzdür. Bu, təkcə vacib bir göstərici deyil, bizim ən yüksək səviyyədə olan siyasi dialoqumuz yaxşı zəmin yaradır ki, təkcə ölkələrimizin deyil, Qafqazın və Qara dəniz hövzəsinin iqtisadi firavanlığını təmin edir, həmçinin Avropanın enerji təhlükəsizliyinə töhfə verir. Mən icazənizlə bir neçə nailiyyətimizi sadalamaq istərdim. Birincisi, Azərbaycan Bolqarıstan üçün enerji sahəsində mühüm, həlledici tərəfdaşa çevrilib və bizim qaz təchizatının şaxələndirilməsində vacib rol oynayır.

2022-ci ilin payızında Prezident Əliyevin iştirakı ilə Sofiya şəhərində biz Yunanıstanla Bolqarıstan arasında qaz şəbəkəsindən istifadə etməyə başladıq və beləliklə də Cənub Qaz Dəhlizi Mərkəzi və Şərqi Avropaya birləşdi. Bu, əlbəttə, Avropa Komissiyasının siyasətinə uyğun idi ki, enerjinin şaxələndirilməsi və mənbələrin təhlükəsizliyi təmin edilsin. Çünki müvafiq Avropa İttifaqı-Azərbaycan strateji tərəfdaşlıq Sazişi imzalanmışdır. Bundan sonra cənab Prezident bir daha Bolqarıstana səfər etdi və orada bizim təşəbbüsümüzlə "Həmrəylik Halqası" layihəsi ilə bağlı memorandum imzaladıq ki, burada səylərimizi birləşdirəcəyik və Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiya və SOCAR-ın imkanları səfərbər edilsin ki, Azərbaycandan əlavə qaz həcmləri bizim istiqamətdə daxil ola bilsin. Bu da bütün regionun təhlükəsizliyi üçün vacib bir məsələdir. Biz, eyni zamanda, Sofiyada SOCAR-ın ofisinin birlikdə açılışını etdik. Bu da onun göstəricisi idi ki, biz enerji sahəsində əməkdaşlığı dərinləşdirmək əzmindəyik.

Bizim müzakirələrimizdə enerji aparıcı rol oynayır. Ancaq bu, bizim əməkdaşlığımızı məhdudlaşdıran bir amil deyil. Bizim digər sahələrdə də həm hökumət səviyyəsində, həm də işgüzar dairələr arasında əlaqələrimiz var. Hətta bələdiyyələr səviyyəsində də təmaslarımız var ki, biz əlaqələri və əməkdaşlığı gücləndirək. Burada həm nəqliyyat, həm rəqəmsallaşma aspektləri də mövcuddur, yaşıl enerji layihələri, təhsil, mədəniyyət və turizm sahələrində birgə layihələrimiz var. Ona görə, təbii bir haldır ki, bu gün biz çox əhəmiyyətli bir sənəd – Azərbaycan ilə Bolqarıstan arasında strateji tərəfdaşlığın gücləndirilməsi haqqında Birgə Bəyannaməni imzaladıq. Bu isə bizim mühüm, nəhəng potensialımızın və qarşılıqlı istəyimizin göstəricisi idi ki, ölkələrimiz çox gözəl, əla səviyyədə olan əlaqələri daha da yüksək səviyyəyə qaldırsınlar. Bundan əlavə, bir neçə sazişin imzalanmasının şahidi olduq. Ancaq təkcə bu auditoriyada deyil, digər tədbirdə - biznes forumda da müvafiq sazişlər imzalanır.

Cənab Prezident, Sizi əmin etmək istəyirəm ki, bizim birgə marağımız və istəyimiz ondan ibarətdir ki, ölkələrimizin geosiyasi, geostrateji yerləşməsini nəzərə alaraq, təkcə enerji, nəqliyyat və əməkdaşlıq deyil, digər sahələrdə də strateji mövqeyə malik olaq. Biz əlimizdən gələni edəcəyik ki, bütün sahələrdə, xüsusilə də bağlantı məsələsində regionlarımızda sabitliyi təmin edək. Biz Asiya və Avropa arasında əlaqələrin intensivləşməsinə töhfə veririk və bu, bizim üçün prioritetdir.

Prezident Əliyevin təşəbbüsü ilə biz tariflərin uyğunlaşdırılması və gömrük inzibatçılığı məsələlərində də sadələşdirmə prosesləri ilə məşğul oluruq ki, biz həmin məsələləri həll edə bilək. Gördüyünüz kimi, burada AZAL və Bolqarıstan hava yolları arasında saziş imzalandı. Biz Sofiya–Bakı müntəzəm uçuşlarının bərpa edilməsini görəcəyik. Eyni zamanda, biz "Asarel Investment" və SOCAR arasında Sazişin imzalanmasının şahidi olduq və bu sahədə də görüləcək işlərimiz çoxdur.

Mən Prezident Əliyevlə yeddi ildən artıqdır ki, tanışam və bu dövr ərzində bizim çoxsaylı müzakirələrimiz olub. Mən onun cəsarətli baxışına şahidəm, ona çox gözəl bələdəm. O, Azərbaycanı dinamik şəkildə inkişaf etdirmək əzmindədir. Yaşıl enerji layihələri bunun bariz nümunəsidir. Bununla yanaşı, onun fəal diplomatiyası da imkan verdi ki, bu gün biz beynəlxalq səviyyədə sülh və təhlükəsizlik, sabitlik haqqında danışaq. Ona görə mənə heç də təəccüblü gəlmədi ki, Azərbaycan COP29 kimi olduqca mötəbər bir tədbirə ev sahibi seçildi. Biz Bolqarıstan olaraq o zaman Azərbaycanın namizədliyini qəti şəkildə dəstəklədik. Bu gün mən Prezident Əliyevə məlumat verdim ki, biz də öz növbəmizdə institusional və ekspert səviyyəsində COP29-a dəstək verməyə hazırıq.

Bu gün bir çox şirkətlərin nümayəndələri mənimlə Bakıda səfərdədirlər. Artıq onlar müxtəlif həllər təklif edirlər ki, Azərbaycan bu regionda öz liderlik rolunu inkişaf etdirməkdə davam etsin, xüsusilə də yaşıl enerji, ətraf mühitin qorunması sahələrində. Sizə bir nümunə deyə bilərəm, bizim işlənmiş neft məhsulundan yeni məhsullar əldə etmək layihəmiz var. Bu materiallardan həm gübrə kimi, həm də tikinti materialı kimi istifadə oluna bilər. Eyni zamanda, karqodronların istehsalı sahəsini yarada bilərik. Yəni, söhbət yüklərin pilotsuz aparatlar vasitəsilə daşınmasından gedir, əlbəttə, söhbət, kiçikhəcmli yüklərdən gedir. Bununla da Azərbaycana regionda aparıcı, yüksək texnologiyaya sahib olan və xüsusilə də ətraf mühit üçün zərərsiz olan həllər və layihələr təklif edirik. Biz nəinki bu layihələri müzakirə edirik, bəziləri ilə bağlı artıq sazişlər imzalanıb, müqavilələr bağlanıb.

Biz cənab Prezidentin Bolqarıstana səfəri çərçivəsində Azərbaycanın qədim mədəniyyət paytaxtı Şuşa və Veliko-Tırnovo ilə əlaqələr qurduq. Mən Sizə təşəkkür edirəm ki, Sizin dəstəyinizlə bir neçə gözəl layihə həyata keçirilib. Bu işdə Heydər Əliyev Fondunun da fəal rolu olub. Bu Fond bizim ölkədə tarixi-mədəni abidələrin qorunması layihələrini həyata keçirib.

Bir daha Sizi bu gözəl abidələrin bərpadan sonra açılışı ilə bağlı Bolqarıstana dəvət edəcəyik, cənab Prezident. Çox səmərəli, məhsuldar müzakirələrə görə Sizə bir daha təşəkkür edirəm, bu dəvətə görə təşəkkür edirəm. İnanıram ki, bu müzakirələr zamanı əldə etdiyimiz razılaşmalar və imzalanmış sənədlər bizim strateji tərəfdaşlığımızı daha da dərinləşdirəcək və artıq çox güclü olan əməkdaşlığın təməlini daha da gücləndirəcək. Sağ olun.

# Ali qonağın şərəfinə



Mayın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin və birinci xanım Desislava Radevanın şərəfinə rəsmi nahar verilib.

# Birinci xanımların görüşü

**Mayın 8-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Bolqarıstan Respublikasının birinci xanımı Desislava Radeva ilə görüşü olub.**



# Bolqarıstan Prezidenti ilə Milli Məclisdə görüş



**Milli Məclisin sədri Sahibə Qafarova mayın 8-də Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev ilə görüşüb.**

Bolqarıstan Prezidenti əvvəlcə Milli Məclisin plenar iclas zalı ilə tanış olub. Sonra Milli Məclisdə Heydər Əliyev Muzeyinə baxan Bolqarıstan Prezidenti Rumen Radev Xatirə kitabını imzalayıb.

Milli Məclisin sədri Sahibə Qafarova Bolqarıstan Prezidentinin səfərinin ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə və genişlənməsinə töhfəsini verəcəyinə inamını ifadə edib.

Söhbət zamanı Azərbaycanın və Bolqarıstanın dost, strateji tərəfdaş ölkələr olduğu qeyd edilib. Münasibətlərimizin inkişafında həm ikitərəfli səviyyədə, həm də çoxsaylı yüksək səviyyəli səfərlərin və görüşlərin önəmi diqqətə çatdırılıb.

Bu gün ikitərəfli münasibətlərin daha da inkişafına təkan verəcək bir sıra mühüm sənədlərin imzalanmasının, bolqar iş adamlarının iştirakı ilə keçirilən biznes forumun əhəmiyyəti qeyd olunub.

Görüşdə iqtisadi əlaqələrin ikitərəfli münasibətlərin əsas komponentlərindən biri olduğu vurğulanıb. Qeyd edilib ki, ölkələrimiz arasında əməkdaşlığı daha da inkişaf etdirmək üçün kifayət qədər böyük potensial və çoxlu imkanlar var.

Bolqarıstan-Azərbaycan əməkdaşlığının Avropanın enerji təhlükəsizliyinə töhfə verdiyini deyən R.Radev ölkəmizin Avropa təhlükəsizlik arxitekturasının etibarlı tərəfdaşı kimi qitənin enerji təhlükəsizliyinin təmin olunmasında vacib rolunu xüsusi vurğulayıb. O, "Həmrəylik Halqası" layihəsinin reallaşmasında Azərbaycanın mühüm rol oynadığını vurğulayıb.

Söhbət zamanı ənənəvi enerji resursları ilə yanaşı, Azərbaycanın bərpaolunan enerji istehsalı və ixrac potensialı nəzərə alınaraq, bu istiqamətdə də əməkdaşlığın daha da genişlənəcəyinə inam ifadə olunub.

Sahibə Qafarova Azərbaycan ilə Bolqarıstan arasında ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm və müsbət təsir göstərən amillərdən biri kimi parlamentlərimizin qarşılıqlı fəaliyyətinin əhəmiyyəti barədə fikirlərini bildirib, qanunverici orqanlarımız arasında münasibətlərin daha da dərinləşdirilməsi baxımından dostluq qruplarının birgə fəaliyyətinin önəmini vurğulayıb.

Görüşdə, həmçinin Azərbaycan ilə Bolqarıstan arasında humanitar əməkdaşlığın xüsusi məna və əhəmiyyət daşıdığı, son illər bu sahədə əlaqələrin uğurla inkişaf etdiyi bildirilib.

Söhbət zamanı Azərbaycanın COP29-a ev sahibliyi haqqında da fikir mübadiləsi aparılıb.

Ali qonaq ölkəmizin belə mötəbər beynəlxalq tədbirə ev sahibliyi etməsi münasibətilə təbriklərini çatdırıb, Bolqarıstanın COP29-un həyata keçirilməsində Azərbaycana yaxından dəstək göstərməyə hazır olduğunu bildirib.

Görüşdə dövlətlərarası və parlamentlərarası əməkdaşlığın inkişaf perspektivləri, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# Azərbaycanın milli mətbəxi ilə tanışlıq

**Mayın 8-də Bolqarıstan Respublikasının birinci xanımı Desislava Radeva Azərbaycan milli mətbəxinin nümunələri ilə tanış olub.**

Mədəniyyət nazirinin müavini Səadət Yusifova Bolqarıstanın birinci xanımına ölkəmizin milli mətbəxinin xüsusiyyətləri haqqında məlumat verib.

Qonağa şah plov, kükü, düşbərə, qutablar, yarpaq dolması, dovğa, habelə milli şirniyyatımız olan şəkərbura və Azərbaycan mətbəxinin digər ləziz nümunələri təqdim olunub.

Sonra Bolqarıstanın birinci xanımına milli mətbəximizin təamlarının hazırlanma üsulları nümayiş edilib.

Azərbaycan milli mətbəxinin ləziz təamları ilə tanışlıq Bolqarıstanın birinci xanımı Desislava Radevada xoş təəssürat yaradıb.

***AZƏRTAC***



# İsmail Serageldinin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının beynəlxalq müstəvidə əlaqələrinin inkişafına verdiyi töhfəyə görə İsmail Serageldin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 may 2024-cü il**

# Ulu öndərin məzarını ziyarət



**Ölkəmizdə rəsmi səfərdə olan Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev və xanımı Desislava Radeva mayın 8-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.**

Bolqarıstan Prezidenti Ulu Öndər Heydər Əliyevin məzarı önünə əklil qoyub.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

# Şəhidlərin xatirəsinə ehtiram



**Azərbaycanda rəsmi səfərdə olan Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev və xanımı Desislava Radeva mayın 8-də Şəhidlər xiyabanını ziyarət ediblər.**

Prezident Rumen Radev Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonra Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən ali qonağa və xanımına Şəhidlər xiyabanının tarixi, şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# Bolqar qonaqlar Milli Gimnastika Arenasında

**Azərbaycanda rəsmi səfərdə olan Bolqarıstan Respublikasının Prezidenti Rumen Radev və xanımı Desislava Radeva mayın 8-də Milli Gimnastika Arenası ilə tanış olublar.**



Gənclər və idman naziri Fərid Qayıbov və nazir müavini Mariana Vasileva arenada yaradılan şərait barədə Bolqarıstan Prezidentinə və xanımına məlumat veriblər.

Bildirilib ki, 9600 tamaşaçı üçün nəzərdə tutulmuş Milli Gimnastika Arenası iki hissədən ibarətdir. Arenada gimnastların beynəlxalq yarışlara müntəzəm hazırlıq prosesi aparılır. Buradakı gimnastika zalı əsas yarış və köməkçi məşq hissələrindən ibarətdir. Arenada məşqlər üçün nəzərdə tutulmuş zallar, auditoriyalar, atletlər üçün xidmət göstərən yeməkxana mövcuddur. Kompleksdə, həmçinin mətbuat mərkəzi, ilk tibbi yardım məntəqəsi, xoreoqrafiya, trenajor zalları, dopinq nəzarəti, inzibati otaqlar, mağazalar, kafelər və digər yardımçı sahələr yerləşir. Dünyanın ən yaxşı gimnastika komplekslərindən biri olan bu idman qurğusunda otel də yaradılıb.

Məlumat verilib ki, Azərbaycan Gimnastika Federasiyası əhalinin bədən tərbiyəsi və sağlamlıq fəaliyyətinə geniş cəlb edilməsi, yerli idmançıların hazırlanması, yığma komandaların formalaşdırılması və hazırlığı, onların beynəlxalq yarışlara, toplanışlara göndərilməsi ilə də fəal şəkildə məşğul olur. Burada 200-ə yaxın 12-13 yaşından yuxarı oğlan və qızlar idmanla yanaşı, Təhsil Nazirliyi ilə razılaşma əsasında öz təhsillərini də davam etdirirlər. Federasiya xarici ölkələrin idman təşkilatları və beynəlxalq idman qurumları ilə də əlaqələrini inkişaf etdirir.

Qeyd olunub ki, Milli Gimnastika Arenası ölkəmizdə bir sıra mötəbər idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edib. Gimnastikanın müxtəlif növləri üzrə nüfuzlu beynəlxalq turnirlərlə yanaşı, 2016-cı ildə 42-ci Ümumdünya Şahmat Olimpiadasının açılış mərasimi, 2015-ci ildə I Avropa və 2017-ci ildə IV İslam Həmrəyliyi oyunlarının gimnastika yarışları, 2018-ci ildə cüdo üzrə dünya çempionatı bu möhtəşəm arenada təşkil olunub.

Komplekslə tanışlıqdan sonra Bolqarıstan Prezidenti və birinci xanımı bədii gimnastların nümunəvi çıxışlarına baxıblar.

Daha sonra Prezident Rumen Radev və birinci xanım Desislava Radeva Azərbaycanda fəaliyyət göstərən bolqarıstanlı idmançı və idman xadimləri ilə görüşüblər.

Sonda qarşılıqlı hədiyyələr təqdim edilib və xatirə şəkli çəkdirilib.

# Səfər başa çatıb



**Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin Azərbaycan Respublikasına rəsmi səfəri mayın 8-də başa çatıb.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Bolqarıstan Prezidenti Rumen Radevi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev və digər rəsmi şəxslər yola saldılar.

# Hikmət Hacıyev BMT Baş katibinin köməkçisi ilə görüşüb



**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev BMT-nin Baş katibinin köməkçisi, dünya təşkilatın siyasət üzrə iş və proqram dəstəyi Bürosunun direktoru Markos Neto ilə görüşüb.**

Bu barədə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMTİP) Azərbaycan nümayəndəliyinin mətbuat xidməti bildirib.

Qeyd olunub ki, tərəflərin görüşündə BMTİP-in “Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizə üzrə qlobal fəaliyyətdə əsas lider kimi mövqe tutmasına kömək etmək öhdəliyi bir daha təsdiqlənib”.

Xatırladaq ki, mayın 7-də Markos Neto Bakıda “Azərbaycanın 4-cü Könüllü Milli Hesabatına dair maraqlı tərəflərlə məsləhətləşmələr, Qadınların iqtisadi hüquq və imkanlarının genişləndirilməsi və 5-ci DİM üzrə irəliləyiş” mövzusunda keçirilmiş 4-cü Dayanıqlı İnkişaf Məqsədləri (DİM) Dialoqunda çıxış edib.

**XQ**

# Elçin Əmirbəyov Markos Neto ilə COP29-u müzakirə edib



**Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov BMT-nin Baş katibinin köməkçisi, dünya təşkilatın siyasət üzrə iş və proqram dəstəyi Bürosunun direktoru Markos Neto ilə Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasını (COP29) müzakirə edib.**

Bu barədə BMT-nin İnkişaf Proqramının Azərbaycan nümayəndəliyinin mətbuat xidməti məlumat yayıb.

Bildirilib ki, görüşdə Neto “BMT-nin İnkişaf Proqramının COP29-un uğurla keçirilməsinin təmin edilməsində Azərbaycana yardım etmək öhdəliyini bir daha təsdiqləyib”.

**XQ**

# Xorvat siyasətçi Bakı konfransına dəvət olunub

**Azərbaycanın Bosniya və Herseqovinadakı səfiri Vilayət Quliyev bu ölkənin Rəyasət Heyətinin xorvat üzvü Jelko Komşiçlə görüşüb və Prezident İlham Əliyev tərəfindən ona ünvanlanmış BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) dəvət məktubunu təqdim edib.**

Görüşdə səfir Azərbaycanda COP29-a hazırlıqla bağlı işlər və “yaşıl enerji”yə keçid sahəsində icra edilən genişmiqyaslı layihələr barədə ətraflı məlumat verib.

J.Komşiç Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan yenidənqurma işləri ilə maraqlanıb. O, hələ ki, Azərbaycanda səfərdə olmadığını, lakin Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə görülən işləri və aparılan islahatları yaxından izlədiyini deyib.

Söhbət zamanı Azərbaycan-Bosniya və Herseqovina əlaqələrinin geniş spektri üzrə fikir mübadiləsi aparılıb.

# Türkiyə Prezidenti Azərbaycan Baş nazirini qəbul edib

**Türkiyəyə rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov mayın 8-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşüb.**

Nazirlər Kabinetindən bildiriblər ki, Ə.Əsədov Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Türkiyə dövlətinin başçısına çatdırdı.

Baş nazir cari ilin noyabrında Azərbaycanda keçiriləcək COP29-da iştirakla bağlı Prezident İlham Əliyevin dəvət məktubunu Prezident Rəcəb Tayyib Ərdoğana təqdim etdi.

Görüş əsnasında Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və müttəfiqlik əlaqələrinin bütün sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu, qarşılıqlı faydalı əməkdaşlığın müxtəlif istiqamətlərdə perspektivləri müzakirə edildi.



# Əli Əsədovun Cevdet Yılmazla görüşü



**Mayın 8-də Ankarada Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmaz arasında təkbətək görüş olub.**

Nazirlər Kabinetindən bildiriblər ki, Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının və müttəfiqliyinin hərtərəfli inkişafında prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın səyləri xüsusi vurğulanıb.

Ankara şəhərində keçiriləcək Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 11-ci iclasının və birgə Biznes Forumun əhəmiyyəti diqqətə çatdırılıb.

Ə.Əsədovun rəsmi səfərinin Azərbaycan-Türkiyə münasibətlərinin daha da genişlənməsinə töhfə verəcəyinə əminlik ifadə olunub.

Görüşdə iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın müxtəlif sahələrdə daha da möhkəmləndirilməsi ilə bağlı məsələlər müzakirə edilib.

# Birgə Hökumətlərarası Komissiyanın iclası



**Mayın 8-də Ankara şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 11-ci iclası keçirilib.**

Nazirlər Kabinetindən bildiriblər ki, Azərbaycanın Baş naziri Əli Əsədovun və Türkiyənin Vitse-prezidenti Cevdet Yılmazın həmsədrliyi ilə keçirilən iclasda hər iki ölkənin müvafiq dövlət qurumlarının rəhbərliyi iştirak edib.

İclasda Azərbaycan ilə Türkiyə arasında münasibətlərin prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın birgə səyləri nəticəsində bu gün strateji tərəfdaşlığın və müttəfiqliyin ən yüksək zirvəsinə çatdığı bildirilib.

Vətən müharibəsi zamanı Azərbaycana göstərilən siyasi-mənəvi dəstəyə görə Türkiyənin rəhbərliyinə və bütün qardaş türk xalqına dərin təşəkkür ifadə olunub.

İki ölkənin beynəlxalq təşkilatlarda sıx əməkdaşlıq etdiyi, hər zaman bir-birinin mövqeyini dəstəklədikləri vurğulanıb.

Azərbaycanın Türk Dövlətləri Təşkilatına böyük önəm verdiyi diqqətə çatdırılıb. Bildirilib ki, Prezident İlham Əliyevin andiçmə mərasimindəki nitqində bu təşkilat Azərbaycan üçün əsas beynəlxalq qurum kimi dəyərləndirilib, TDT çərçivəsində səylərin davam etdirilməsi hökumət qarşısında xarici siyasət prioriteti kimi qoyulub.

Azərbaycan ilə Türkiyə arasında müxtəlif sahələrdə, xüsusilə iqtisadiyyat, ticarət, sərmayə qoyuluşu, nəqliyyat-tranzit, enerji, sənaye, kənd təsərrüfatı, humanitar və digər istiqamətlərdə əlaqələrin inkişaf dinamikası təqdir edilib.

Türkiyənin Azərbaycanın həm idxalda, həm ixracda, həm də ticarət dövriyyəsində əsas tərəfdaşlarından biri olmasından məmnunluq ifadə edilib.

2023-cü ildə qarşılıqlı ticarətin 31 faiz artaraq rekord 7,65 milyard ABŞ dollarına çatdığı bildirilib, ticarət dövriyyəsinin həcminin 15 milyard ABŞ dollarına çatdırılması ilə bağlı dövlət başçıları tərəfindən qoyulmuş hədəfə nail olmaq üçün hökumətlərin bundan sonra da birgə səy göstərmək əzmində olduqları diqqətə çatdırılıb.

Bu baxımdan Birgə Hökumətlərarası Komissiyanın iclaslarında qəbul edilən qərarların, əldə edilən razılıqların əhəmiyyəti vurğulanıb.

Preferensial Ticarət Sazişinin əhatə dairəsinin genişləndirilməsinin, həmçinin iki ölkə arasında imzalanan Fəaliyyət Planlarının icrasının ticarət dövriyyəsinin daha da artmasına təkan verəcəyinə əminlik ifadə olunub.

Azərbaycan-Türkiyə əməkdaşlığı nəticəsində ərsəyə gələn nəhəng layihələrin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rolu vurğulanıb.

İğdır-Naxçıvan Təbii Qaz Boru Kəmərinin tikintisi enerji gündəliyində duran aktual məsələlərdən biri kimi dəyərləndirilib.

Nəqliyyat sahəsində əməkdaşlığın inkişafı yüksək qiymətləndirilərək 2023-cü ildə iki ölkə arasında ümumi daşınmış yüklərin həcminin 42,5 faiz artdığı diqqətə çatdırılıb.

Bakı-Tbilisi-Qars dəmir yolunun iki ölkənin tranzit imkanlarının genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyi qeyd olunub. Bildirilib ki, dəmir yolunun genişləndirilmə işlərindən sonra yaxın zamanda istismara verilməsi BTQ ilə daşınan yüklərin həcminin 5 milyon tona çatdırılmasına şərait yaradacaq.

Azərbaycanın əsas hissəsi ilə Türkiyə arasında birbaşa dəmir yolu əlaqəsinin təmin edilməsi baxımından Qars-Naxçıvan dəmir yolu layihəsinin reallaşdırılmasının əhəmiyyəti vurğulanıb. Türkiyə tərəfinin diqqətinə çatdırılıb ki, Azərbaycan tərəfi artıq Naxçıvanda müvafiq dəmir yolu xəttinin yenidən qurulması işlərinə başlayıb.

Nəqliyyat sahəsində gündəlikdə duran bütün məsələlər müsbət məcrada həll olunur. Azərbaycana daxil olan Türkiyə avtodaşıyıcılarından alınan bəzi yol vergiləri və rüsumları ləğv olunub. Eyni zamanda, avtomobil daşımaları üçün mübadilə edilən icazə blanklarının sayı əhəmiyyətli dərəcədə artırılıb.

İclasda Azərbaycanla Türkiyə arasında qarşılıqlı faydalı əməkdaşlığın bütün istiqamətlərdə, o cümlədən investisiya qoyuluşu, bərpaolunan enerji, kənd təsərrüfatı, su resurslarının idarə edilməsi, xüsusilə Araz və Kür çayları hövzəsinin su ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi, iqlim dəyişikliyi ilə mübarizə, COP29-a hazırlıq, səhiyyə, mədəniyyət, turizm və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər müzakirə olunub.

Hər iki ölkənin nümayəndə heyətlərinin üzvlərinin gündəlikdə duran məsələlərə dair məruzələri dinlənilib.

Sonda Baş nazir Əli Əsədov və Vitse-prezident Cevdet Yılmaz Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 11-ci iclasının Protokolunu və əməkdaşlığın bir sıra sahələrini əhatə edən Fəaliyyət Planını imzalayıblar.

İki ölkə arasında, həmçinin “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında su təsərrüfatı sahəsində əməkdaşlıq Sazişi”, “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Türkiyə Respublikasının Ticarət Nazirliyi arasında ticarətin asanlaşdırılması üzrə birgə işçi qrupun yaradılmasına dair Anlaşma Memorandumu”, “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Türkiyə Respublikasının Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyi arasında heyvan xəstəlikləri ilə mübarizə üzrə əməkdaşlıq haqqında Niyyət Bəyannaməsi” və “Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Xarici İqtisadi Əlaqələr Komitəsi (DEİK) Türkiyə – Azərbaycan Biznes Şurası arasında Anlaşma Memorandumu” imzalanıb.

Daha sonra Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmaz mətbuata bəyanatlarla çıxış ediblər.

# Heydər Əliyev: dövlətçilik şüuru və milli ideya

**II MƏQALƏ**

**Böyük siyasət və dövlət işi ilə məşğul olan şəxslərin dövlət əhəmiyyəti olan məsələləri həll etməsi hər dəfə elmi axtarışdır, tapıntıdır, elmi ixtiradır.**

**Heydər Əliyev,
Ümummilli lider**

Milli ideyanın dövlətçilik şüurunun atributu kimi məzmunlaşdırılmasının strateji əhəmiyyəti dərindir. Məsələ onunla bağlıdır ki, Heydər Əliyev azərbaycançılıq kontekstində dövlətçilik şüurunun bütün tərkib hissələrinin sintez halında Azərbaycanın gələcək inkişafına xidmət aspektinin bazasını yaratmışdır. Yəni faktiki olaraq milli ideyanı da dövlətçilik şüurunun atributu kimi proqnostik aspektdə xarakterizə etmişdir. Məsələnin bu tərəfi çox aktualdır. Çünki milli ideyaya tarixi gerçəklik fonunda dinamizm vermək kifayət qədər çətin problemdir. Ulu öndər bunun öhdəsindən gəlmişdir və onun bir sıra məqamları üzərində dayana bilərik. Onu demək zəruridir ki, milli ideyanın dövlətçilik şüurunun atributu kimi məzmununu Azərbaycan üçün Heydər Əliyev kompleks müəyyən etmişdir və hər bir tərkib hissəsi xüsusi araşdırılmalıdır.



## Dövlətçilik və siyasi savad

Heydər Əliyevin çoxsaylı fikirlərində elm və təhsil məsələsinin əhəmiyyəti öz əksini tapmışdır. Ulu öndər çıxışlarında AMEA və universitetlərin adlarını tez-tez hallandırmasını oxumağı və dinləməyi bacaran hər kəs bilir. Bundan başqa, Heydər Əliyevin "AMEA milli sərvətdir" kimi məşhur kəlamlarından hamı xəbərdardır. Bunlarla yanaşı, Heydər Əliyev həmişə Azərbaycan xalqının zəkasını, təhsilə, elmə tarixə göstərdiyi diqqət və qayğını vurğulamışdır. Böyük dövlət xadiminin fikirlərində Azərbaycan toplumunun elm və təhsilini yaratmaqda olduğu tezisi ana xətt kimi keçir. Nəhayət, Ulu öndər Azərbaycan dövlətçiliyində tarixən ziyalıların həlledici rol oynadığını dəfələrlə vurğulamışdır. Bu, o deməkdir ki, Heydər Əliyev Azərbaycanda dövlətçiliyin birbaşa elm, təhsil və savadlılıq üzərində bərqərar olduğuna böyük əhəmiyyət vermişdir. Bunların heç biri əsassız və səbəbsiz deyildir.

Heydər Əliyev nadir şəxsiyyətlərdəndir ki, tarixilikdən, keçmişdən və ənənədən danışarkən bu günün və gələcəyin aktual problemlərini vurğulayır və qarşıya qoyulan vəzifələri lakonik ifadə edirdi. Bu zaman Ulu öndər həmişə məsələnin mahiyyətinə vurğu edər, onu yığcam və siyasi praktikanın səmərəliliyi aspektində təqdim edərdi. Buna görədir ki, bir sıra insanlar Heydər Əliyevi sırf praktiki danışdığını zənn edərlər. Ancaq həmin sadə və praktiki fikirlər dərin siyasi, nəzəri, fəlsəfi anlamın dahiyanə ifadəsidir.

Arif insanlar həmin dərinliyə baş vurur və dərs alırlar. Vətəndaş da nəzəri və fəlsəfi-siyasi tərəfini dərk etmədən belə, sözün gücü və təsiri ilə davranışlarında həmin mənanı təkrar edirlər.

Bununla Heydər Əliyev siyasi təbliğat və təşviqdə nəzəriyyə ilə praktikanın birliyini təmin edərdi. Buna görədir ki, insanlar Ulu öndərin səsinin, baxışının, fikirlərinin və bütövlükdə, aurasının güclü cazibədarlığından danışırlar. Reallıq ondan ibarətdir ki, bu cazibədarlığın və dərin intuisiya ilə geniş bilginin qaynağında yüksək strateji zəka dayanırdı.

Həmin yüksəklikdən dövlətçilik şüurunun atributu kimi milli ideyaya baxanda çox məqam aydınlaşır. O cümlədən, Ulu öndərin hər zaman Azərbaycan üçün elm və təhsilin, savadın olduqca vacibliyini vurğulamasının müəyyən bir aspekti aydınlaşır. Heydər Əliyev demişdir: "Azərbaycan Milli Elmlər Akademiyası xalqın ümumi zəkasını, ağlını birləşdirən böyük bir sərvətdir"; "Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın"; "Böyük siyasət və dövlət işi ilə məşğul olan şəxslərin dövləti əhəmiyyəti olan məsələləri həll etməsi hər dəfə elmi axtarışdır, tapıntıdır, elmi ixtiradır"...

Bu dahiyanə fikirləri birləşdirən bir məntiq vardır. Ulu öndər öyrədirdi ki, birincisi, Azərbaycan xalqı daim özünü öyrənməlidir, ikincisi, AMEA bu prosesdə aparıcı rol oynamalıdır, üçüncüsü, siyasəti özəl elmi axtarış kimi dərk etməyi bacarmaq gərəkdir! Bu üç faktorun ana birləşdirici xətti isə Azərbaycan toplum olaraq fərdi savadlılıqla dövləti və toplumsal biliyi uyğunlaşdırmalıdır. Heydər Əliyevin müəyyən etdiyi bu dərin tezisin dövlətçilik şüuru kontekstində vacib parametrləri mövcuddur.

## Siyasi savadın zəruriliyinin bir neçə səbəbi

Bu zərurilik Heydər Əliyevin yuxarıda vurğuladığımız fikirlərindən məntiqi olaraq birbaşa alınır. Belə ki, əgər Azərbaycanda elm, savad və təhsil toplum və dövlət üçün həmişə əhəmiyyətli olmuşdursa, müasir tarixi dönəmdə bu məsələ daha da aktuallaşır. Buna görədir ki, Heydər Əliyevin xalqı elm və təhsilə, savada çağırışı həm ümumi, həm də konkret siyasi səviyyədə dərin mənalıdır. Ulu öndər bununla faktiki olaraq böyük məharətlə müasir dövlətçilik üçün strateji vacibliyi olan bir sıra siyasi məqamları kompleks halında nəzərə ala bilmişdir. Filosoflar və politoloqlar vurğulayırlar ki, siyasiləşmə, siyasi mədəniyyət və siyasi səfərbərlik kimi faktorlar birbaşa siyasi savaddan asılıdır.

## Siyasiləşmə

Siyasi nəzəriyyədə siyasiləşməyə iki cəhətin qarşılıqlı münasibətləri kontekstində baxırlar. Onlardan biri cəmiyyətin həyatında siyasi sferanın əhəmiyyəti və rolunun artması ilə bağlıdır. Siyasi sferaya indi müəyyən dərəcədə sosial, iqtisadi, kültür və digər vacib sahələri də daxil edirlər. Digər cəhət insanların siyasi fəallığının yüksəldilməsidir. Bunun üçün onların siyasətə cəlb edilməsi gərəkdir. Dövlətçilik konktestində bu cəhətin prinsipial əhəmiyyəti vardır.

Deməli, müasir dövlətçilikdə bütövlükdə siyasətin cəmiyyət üçün əhəmiyyətinin yüksəldiyini və buna görə də vətəndaşların siyasi fəallığının artırılmasının vacib olduğunun dərk edilməsi çox lazımdır. Siyasiləşmənin bu anlamı fonunda insanların siyasi savadlarının daimi artırılması zərurəti heç şübhə doğurmur. Lakin bunu necə təmin etmək olar? Əsas sual bundan ibarətdir. Yəni insanları necə siyasi cəhətdən savadlı olmağa həvəsləndirmək mümkündür?

Hər toplumun buna öz cavabı vardır. Ancaq onların hamısını birləşdirən bir xüsusiyyət olmalıdır: insanlar dövlətçilik şüurunu inkşaf etdirməklə real siyasi savada malik ola bilərlər. Çünki müasir dövrdə toplum sürətlə dəyişir. Dünya miqyasında proseslər həm mürəkkəbləşir, həm də intensivləşir. Bu tendensiyaların düzgün dərk edilməsi üçün mütləq siyasi savadlılıq lazımdır. Savadlılıq isə birbaşa şüura bağlı fenomendir. Təfəkkürü inkişaf edən insanın savad alması məcburiyyət deyil, bir zərurət və tələbatdır. Siyasi aspektdə, bu, dövlətçilik şüurunun dinamik inkişafını zəruri etməkdədir.

Məsələni daha da konkretləşdirmək olar: insanların siyasi savadlı olması üçün ciddi bir motivasiyası olmalıdır. Müstəqil dövlətçiliyin strateji əhəmiyyət daşıdığı bir dönəmdə həmin faktor rolunu milli ideya oynaya bilər. Səbəbi onunla bağlıdır ki, milli ideya toplum üçün fraqmentar və ya lokal fenomen deyildir. Milli ideya cəmiyyətin mənəvi, əxlaqi, mədəni, ideoloji və siyasi həyatının bütün aspektlərini əhatə edir. Deməli, Azərbaycan reallıqları üçün siyasiləşmənin mərkəzində dövlətçilik şüurunun inkişafının əsasında milli ideyanın motiveedici rol oynaması dayanır! Bu məqamda daha iki mühüm komponent ön plana çıxır – siyasi mədəniyyət və siyasi səfərbərlik!

## Siyasi mədəniyyət

Siyasi mədəniyyət insanların siyasət haqqındakı təsəvvürlərinə aiddir. Bu keyfiyyətdə, o, üç səviyyəyə malikdir – fərdi, qrup (partiya) və toplumsal. Fərdi səviyyə insanın siyasət və siyasilik haqqında dayanıqlı təsəvvürlərinin, baxışlarının sistemidir. Əgər bu baxışlar real sistem halındadırsa, fərdin siyasi mədəniyyəti artıq oturuşmuşdur. Sistemlilik və daxili ziddiyyətsiz məntiqilik olmayanda yalnız siyasi mədəniyyətin təşəkkülündən danışa bilərik. Bu halda da elm və təhsilin rolunun yüksək olması nəticəsi ortaya çıxır.

Qrup (və ya partiya) miqyasında siyasi mədəniyyətin inkişafı olduqca vacibdir. Çünki burada həm partiya miqyasında münasibətlərin qurulması, həm də toplum miqyasında partiyalararası münasibətlərin formalaşmasında siyasi savadın rolu həlledici olur. Buna görədir ki, Ulu öndər daima partiya daxilində siyasi savadlılığın artırılması qayğısına qalmışdır. YAP "Heydər Əliyev məktəbləri" vasitəsi ilə bu istiqamətdə böyük irəliləyiş əldə etmişdir. Heydər Əliyevin qurucusu olduğu partiya indi ölkənin və regionun ən yetkin, siyasi mədəniyyəti yüksək və dövlətçiliyə sadiq partiyasıdır!

Toplum miqyasında siyasi mədəniyyət daha geniş yanaşma tələb edir. Burada ölkə üzrə məktəblər, siyasi təbliğat, təşviqat, bütövlükdə isə gənclərə dövlətçiliyin anladılması və s. kimi vacib məsələlər daxildir. Siyasi mədəniyyəti yüksək olan toplum inkişaf etmiş dövlətçilik şüuruna malik olur ki, bu da milli ideyanın qavranılması və həyata keçməsi imkanlarını xeyli genişləndirir!

## Siyasi səfərbərlik

Adətən, bu anlayışı siyasi partiyalara və ictimai hərəkatlara aid edirlər. Siyasi səfərbərlik müəyyən siyasi aksiyalara insanların hazır olmasını təmin etmək üçün həyata keçirilməli olan kompleks fəaliyyətdir.

Lakin indiki tarixi dönəmdə onun bütün topluma aiddiyyatı vardır. Vətəndaşlar ümumi səviyyədə siyasi səfərbər olmalıdırlar. Xüsusilə mühüm dövləti məsələlərin həllində cəmiyyətin səfərbərliyi ön sıraya çıxır. Məsələn, özünümüdafiə məqsədi ilə savaş etmək məcburiyyəti yarananda və ya total islahatlar zamanı müəyyən kəsimlər manеə törətmək istəyərkən və cəmiyyəti parçalamağa çalışan radikalların fəallaşması zamanı total səfərbərlik çox aktuallaşır. Təcrübə göstərir ki, total səfərbərlik qarşısında heç bir dağıdıcı qüvvə tab gətirə bilmir. Heydər Əliyev keçən əsrin 90-cı illərində radikalların süi-qəsd cəhdləri ilə mübarizədə xalqı səfərbərliyə dəvət etdi və cəmiyyət bu çağırışa çox fəal reaksiya verdi. Digər nümunə Prezident İlham Əliyevin II Qarabağ savaşı zamanı xalqa müraciəti əsasında toplumun bir yumruq kimi birləşməsini göstərmək olar.

Bu qəbildən mobil və kütləvi davranışlar üçün cəmiyyətin siyasi həyatında iştirakının dərk edilməsi lazımdır ki, bu da siyasi savadlılıq deməkdir. Bura hökumətin, hakimiyyət strukturlarının necə fəaliyyət götərdiyi və hansı səlahiyyətlərə malik olduqları haqqında bilgilər daxildir. Bundan başqa, digər faktorların mövcudluğu da zəruridir.

(ardı var)

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Baş Prokurorluq Ümummilli lideri ehtiramla yad etdi

**Mayın 8-də Baş Prokurorluqda müasir Azərbaycanın xilaskarı və qurucusu, müstəqil dövlətimizin banisi, xalqımızın Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.**



Baş prokuror Kamran Əliyev çıxış edərək müstəqil Azərbaycanın qurucusu və memarı, dünya miqyaslı siyasi təfəkkürə, zəngin və qətiyyətli idarəçilik bacarığına malik Ümummilli lider Heydər Əliyevin xalqımız qarşısında misilsiz tarixi xidmətlərindən, şərəfli ömür yolundan və dərin dövlətçilik təcrübəsindən bəhs edib, görkəmli dövlət xadiminin müəyyən etdiyi siyasi kursu uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə üçrəngli bayrağımızın ən yüksək zirvələrdə qürurla dalğalanmasını diqqətə çatdırıb.

Daha sonra Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri, deputat Sadiq Qurbanov və Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi Elnur Musayev çıxış edərək bildirib ki, Ulu öndər Heydər Əliyev tərəfindən respublikamızda ekoloji təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilib. Ölkədəki ekoloji problemlər həmişə xüsusi diqqət mərkəzində olub, ətraf mühitin mühafizəsi ilə bağlı müəyyənləşdirilmiş prioritetlər üzrə mütəmadi olaraq silsilə tədbirlər görülüb.

Sonda Ulu öndər Heydər Əliyev haqqında film nümayiş olunub.

***XQ***



# Marneulidə Ulu öndərin xatirəsinə ehtiram

**Marneuli rayonunda fəaliyyət göstərən Azərbaycan Evinin təşkilatçılığı ilə xalqımızın Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə Qafqaz Müsəlmanları İdarəsinin Gürcüstan üzrə nümayəndəsi Məhəmməd Şamilov, Tbilisi, Marneuli, Bolnisi, Qardabani və Dmanisi ictimaiyyətinin nümayəndələri, ziyalılar və gənclər iştirak ediblər.**

Əvvəlcə Ulu öndərin həyat və fəaliyyəti haqqında sərgi nümayiş olunub. Ümummilli liderin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan Evinin direktoru Məhəbbət İmanov çıxış edərək bildirib ki, dahi rəhbər Heydər Əliyev Gürcüstan azərbaycanlılarının və gürcü xalqının qəlbində özünə əbədi abidə ucaldıb. Azərbaycanda olduğu kimi, Gürcüstanda da onun siyasi irsinin təbliği istiqamətində daim mühüm işlər görülüb və yenə də görülür.

Tədbirdə, eyni zamanda, Diaspor-la İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə işıq üzü görmüş Azərbaycanın Əməkdar jurnalisti Nizami Məmmədzadənin "Əsrin yadigarı - Heydər Əliyev" kitabının təqdimatı keçirilib. Müəllif kitabın hazırlanması prosesi ilə bağlı fikirlərini bildirib.

Daha sonra Azərbaycanın Gürcüstandakı səfirliyinin nümayəndəsi Ramiz Hacızadə, Marneuli bələdiyyəsinin sədr müavini Rövşən İsgəndərov, Dmanisi merinin müavini Arif Süleymanov, Tbilisi Maarif Məktəbinin rəhbəri Əli Sedat Aslan, Marneuli bələdiyyəsinin üzvü Anar Piriyev, Gürcüstan parlamentinin keçmiş deputatları İsak Novruzov, Azər Süleymanov, Hidayət Hüseynov, professor Mahmud Kamaloğlu və digərləri çıxış edərək Heydər Əliyevlə bağlı xatirə və təəssüratlarını bölüşüblər.

Tədbirin ikinci hissəsində Azərbaycanın milli musiqisi və mətbəxindən nümunələr nümayiş etdirilib.

***XQ***

# Təbriz qəzetində Ulu öndər haqqında yazı

**Təbrizdə nəşr edilən "Tribune Tebriz" qəzetində ulu öndər Heydər Əliyevə həsr olunmuş məqalə dərc edilib.**

Yazıda qeyd olunub ki, Heydər Əliyev respublikaya rəhbərliyinin birinci dövründə özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olub.

Bildirilir ki, Ulu öndər ikinci dəfə siyasi hakimiyyətə gələndə Azərbaycan parçalanmaq təhlükəsi ilə üz-üzə qalmışdı. Heydər Əliyev belə bir çətin şəraitdə böyük müdrikliklə xalq-dövlət vəhdətinə nail olaraq mövcud təhlükələri ölkəmizdən uzaqlaşdırmaq üçün milli birlik fəlsəfəsi yaratdı. İnsanlar öz dövlətlərini qorumaq üçün səfərbər oldular.

Məqalədə qeyd edilir ki, Ulu öndərin müəyyən etdiyi inkişaf strategiyası Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və dövlətimizin yürütdüyü mehriban qonşuluq və səmimi dostluq siyasəti bu gün də real bəhrəsini verir. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, suverenliyinin bərpası və yeni geosiyasi vəziyyətin əzmlə qorunması İran İslam Respublikası üçün də xüsusi əhəmiyyət kəsb edən tarixi hadisədir.

Yazının sonunda bildirilir ki, Heydər Əliyevin müəyyən etdiyi siyasi və dövlətçilik ideyaları yüzilliklər boyu Azərbaycan xalqına




fayda gətirəcək, xalqı öz dövlətinin ətrafında birləşdirəcək.

# Qara fikirlərə işıq salan cavab

## Ermənilərin anti-Azərbaycan təbliğatı iflasa məhkumdur

**Bir mərkəzdən idarə olunan və "yemlənən" Qərb mediasında Ermənistan – Azərbaycan münaqişəsi ilə bağlı yazılarda, tele–reportajlarda uzun müddət müşahidə etdiyimiz qərəzli yanaşma, islamofobiya və türkofobiya tezislərinə köklənmiş təbliğatın qeyri-effektivliyi göz qabağındadır.**

Bu təbliğat "maşını"nın yalnız ermənipərəst mövqeli informasiya siyasətinin fonunda Azərbaycan tərəfinin münaqişənin əsl mahiyyəti, motivləri və tarixi köklərinə dair təqdim etdiyi, fakt və sübutlara söykənən məqalələr nəzərə alınmırdı. Son vaxtlara qədər erməni əsilli və erməni diasporu tərəfindən maliyyələşən "ekspertlər" 44 günlük müharibənin gedişində bölgədə, guya, xristian irsinin dağıdılması kimi saxta ittihamlarla ölkəmizə qarşı piar–kampaniya aparırdılar. Həmin ermənipərəst Qərb mediası azərbaycanlı müəlliflərin feyk-xəbərlərə cavab yazılarını dərc etməkdən boyun qaçırırdı. Belə nəşrlərin sırasına "Le Fiqaro", "Le Mond", "TheConversation", "New York Review of Books", "Politiko", "The Guardian" və digərləri daxildir.

* * *

Hazırda Cənubi Qafqazda, Avropada və bütövlükdə dünyada geosiyasi reallıq üç il əvvəlkindən fərqlidir. Həqiqətdən uzaq, uydurma və feyk xəbərlərlə beynəlxalq ictimai rəylə manipulyasiya etməyə çalışan ermənilərin təbliğat maşını artıq kökdən düşmüş vəziyyətdədir. Çünki avropalılar kimi, okeanın o tayındakılar da Qafqazda işğalçı ilə işğala məruz qalanın kim olduğunu yaxşı bilirlər.

Azərbaycan hakimiyyətinin son illər bu istiqamətdə apardığı davamlı və qətiyyətli diplomatik fəaliyyəti, informasiya savaşı öz bəhrəsini verməkdədir. Dünənə qədər erməni lobbisinin, diasporunun zərərli təbliğatına uyan, yaxud korporativ maraqları naminə ölkəmizə qarşı ideoloji cəbhədə yer alan media subyektləri, eləcə də ayrı–ayrı jurnalistlər əsl həqiqətin nədən ibarət olduğunu anlamış və yalan üfürməkdən yorulmuşlar.

Doğrudur, bu cəhətdən Fransanın ermənipərəst yazılı və elektron mediası istisna təşkil edir. Amma Azərbaycanla münasibətlərini diplomatik qalmaqal səviyyəsinə daşımış, hətta, bu ölkənin bəzi nəşrlərində bizim üçün maraqlı keyfiyyət dəyişikliyini müşahidə etməkdəyik. Misal üçün, keçən ilin payızında həmin "Le Mond" qəzeti Qarabağdan ermənilərin zorla deyil, öz xoşları ilə getməsi barədə fransız jurnalistin qeydlərini dərc etmişdi. Əlbəttə, Marsel ermənilərinin maliyyə dəstəyi və xüsusi sifarişi ilə bölgəyə göndərilən fransız müxbirin həqiqəti olduğu kimi qələmə alması qətiyyən mümkün deyil. Necə ki, Böyük Britaniyanın "The Guardian" qəzetinin əməkdaşı Patrik Vinter İrəvana xidməti ezamiyyətinin nəticəsi kimi yalnız bir tərəfin mövqeyini işıqlandırmış, reallıqdan və həqiqətdən uzaq mülahizələrini qələmə almışdır. O, "Azərbaycanla gərginlik şəraitində Ermənistan müttəfiqləri üçün Qərbə üz tutur" sərlövhəli məqaləsində 32 il əvvəl Ermənistan ordusu tərəfindən işğal olunmuş Azərbaycanın dörd kəndinin qaytarılmasını qonşuya "güzəşt" kimi şərh edib.



**Azərbaycanın Böyük Britaniyadakı səfiri Elin Süleymanov** ingilis jurnalisti Patrik Vinterin "Azərbaycanla gərginlik şəraitində Ermənistan müttəfiqləri üçün Qərbə üz tutur" sərlövhəli məqaləsini cavablandırıb. Azərbaycan diplomatının cavab məqaləsi həmin "The Guardian" qəzetində dərc olunub. E. Süleymanov ingilis oxuculara tarixi faktlar, mövcud xəritələr əsasında sübut edir ki, geri qaytarılan dörd kənd hətta İrəvan rəsmiləri tərəfindən tanınan Azərbaycanın suveren ərazisi daxilindədir.

* * *

"Patrik Vinter Ermənistana səfəri zamanı hayların onun qarşısında quraşdırdığı "acınacaqlı mənzərəni" məhz Bakı və İrəvanın iki ölkə arasında sərhədin delimitasiyasına başlamaq üçün qarşılıqlı razılığa gəldikləri anda təqdim edib". Bunu nəzərə çatdıran Londondakı səfirimiz beynəlxalq təşkilatların, ayrı–ayrı dövlətlərin təqdir etdiyi və Ermənistan baş naziri Nikol Paşinyan tərəfindən dəstəklənən sərhədin delimitasiyası və qanunsuz zəbt olunmuş ərazilərin qaytarılmasını sülhə aparan yolda önəmli addım kimi xarakterizə edir. Bundan başqa, o, Patrik Vinterin bölgədə baş verən hərbi qarşıdurmanın və qeyri-sabitliyin əsas səbəbinin Ermənistan tərəfindən Azərbaycanın beynəlxalq səviyyədə tanınmış torpaqlarının 20 fazinin 30 il işğal altında saxlaması faktı olduğunu qeyd etməyi "unutduğunu" da vurğulayır.

Səfir E.Süleymanov ingilis jurnalistin bir məsələdə haqlı olduğunu yazır. Bu da Ermənistanın mütəmadi şəkildə və boş yerə özünə regiondan kənarda müttəfiqlər axtarması ilə bağlıdır. "Amma uzunmüddətli sülhə nail olmaqdan ötrü uzaqda tərəfdaş axtarmaq yox, yaxın qonşuları ilə münasibətləri normallaşdırmaq lazımdır", – deyə səfir qeyd edib.

Məqalənin sonunda E.Süleymanov "The Guardian"ın əməkdaşının Azərbaycanın Qarabağ bölgəsində yaşayan etnik ermənidən sitat gətirərək, separatçıların yerli erməniləri getməyə təşviq etdikləri, onlar arasında qorxu yaydıqları, bununla etnik nifaqı qızışdırdıqları barədə danışdıqlarını qələmə almasını düzgün yanaşma saydığını bildirib. Azərbaycanın səfiri qəzetdə dərc olunan məqaləsində tamamilə haqlı olaraq qeyd edir ki, Azərbaycanda yaşamış dinc erməni əhalisi heç vaxt təhlükə altında olmayıb. "Azərbaycan hazırda inamlı addımlarla iqtisadi tərəqqiyə doğru irəliləyir. Erməni ordusu və vandalları tərəfindən dağıdılan Qarabağın şəhər və kəndləri yenidən tikilir, onların ilkin sakinləri öz yurdlarına qayıdırlar. Bakı hazırda COP29-a evsahibliyi etməyə hazırlaşır. Şuşa "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilib. Azərbaycan enerji təchizatı sayəsində Avropada həyat səviyyəsinin qorunub saxlanmasında həlledici rol oynayır. Bəlkə də əzab və zülmət nağıllarından əl çəkməyin, Azərbaycan və Ermənistanın sülh yolunda əldə etdikləri əhəmiyyətli irəliləyişi dəstəkləməyin vaxtı çatıb", – deyə səfir yazıb.

* * *

Biz isə öz növbəmizdə Patrik Vinterə obyektiv və qərəzsiz olmağı, peşə əxlaqına xəyanət etməməyi fransalı jurnalist Jan-Mişel Bryundan öyrənməyi tövsiyə edərdik. Şuşa haqqında kitab yazmış cənab Bryunun əsərindən bir epizod: "Onlar Qarabağı könüllü şəkildə tərk ediblər. Cənubi Qafqazda kütləvi etnik təmizləmə aparan yeganə monoetnik ölkə Ermənistan olub. 1988–1989-cu illərdə Ermənistandakı doğma yurdlarından 250 mindən çox, 1991-1993-cü illərdə isə Qarabağın və ətraf rayonların işğalı nəticəsində 750 min azərbaycanlı torpağından qovulub". Fransız jurnalist məqaləsində qeyd edib ki, Qarabağı ermənilərin "tarixi vətəni" kimi xarakterizə etmək, ən azı, gülüncdür. Hətta Ermənistan parlamentinin sədri Alen Simonyan dolayısı ilə etiraf edib ki, ermənilərin Qarabağda, guya, min il bundan əvvəl mövcudluğu barədə deyilənlər son 30 ildə uydurulmuş nağıldır.

"Əgər biz insanların birgəyaşayışını istəyiriksə, onda sülh prosesini dəstəkləməliyik". Bu sözləri isə Azərbaycanın Böyük Britaniyadakı səfiri Elin Süleymanov bir müddət bundan öncə ABŞ-nin "Politiko" nəşrinə açıqlamasında demişdi. Diplomat onu da xatırlatmışdı ki, 2020-ci il noyabrın 10-da əldə olunmuş razılığa əsasən Ermənistan qanunsuz hərbi birləşmələrini Qarabağdan çıxarmalı idi. İşğalçıların torpaqlarımızda törətdikləri cinayət əməllərindən söz açan E. Süleymanov azərbaycanlılar heç vaxt ermənilər kimi davrana bilməyəcəyini də önə çəkir: "Ermənilər 90-cı illərdə şəhərlərimizi ələ keçirəndən sonra çoxsaylı qətllər törətdilər, bir milyona yaxın qaçqın və köçkünümüz oldu. Amma biz onlar kimi davranmırıq".

Bəli, biz ermənilərə qarşı mübarizədə onların çirkin metodlarından bəhrələnmədik. Çünki ədalətli mövqeyimizi, haqq sözümüzü açıq şəkildə bəyan etdik. Həqiqəti, gec də olsa, bütün dünyaya, o cümlədən həmin Avropaya çatdırdıq. Artıq etiraf etmək lazımdır ki, hazırda Avropa Azərbaycandan daha çox asılıdır, nəinki Azərbaycan Avropadan. Çünki Azərbaycan təkcə bölgənin deyil, "qoca qitə"nin enerji təhlükəsizliyinin təminatında, eləcə də beynəlxalq daşımalarda əsas oyunçulardan birinə çevrilib. Bakı, həmçinin bərpa olunan enerji, "yaşıl dünyaya" keçid kimi planetar layihələrin lideri olmağı hədəfləyir. Müharibə bitəndən sonra Cənubi Qafqazda sülhə nail olmağın yeganə yolu İrəvan və Bakı arasında sülh sazişinin imzalanması, onun ardınca erməni və Azərbaycan xalqları arasında barışığın əldə olunmasıdır.

Amma Qərb mediasında yuxarıda misal gətirdiyimzi kimi bitərəf və qərəzli yazılar, heç də nəcib məqsədlərə xidmət eləmir. Əslində, artıq belə hədyanlara inananlar da xeyli azalıb.

***İmran BƏDİRXANLI***
***XQ***

### Ekspert rəyi



**Rasim MUSABƏYOV,**
**Milli Məclisin deputatı**

– Münaqişənin əvvəlində Azərbaycanla müqayisədə ermənilərin beynəlxalq informasiya mənbələrinə çıxışı, bəlkə də, birə–yüz nisbətində idi. Dünya bizi neft ölkəsi və "yazıq" ermənilərə zülm verən dövlət kimi tanıyırdı. Erməni diasporunun təsiri ilə dünyada Azərbaycanın mənfi imici formalaşmışdı. Torpaqları işğal altında olan Azərbaycan qonşuya təcavüz etmiş tərəf kimi təqdim olunurdu. Hərbi və diplomatiya sahəsində addım–addım irəli getdiyimiz kimi, eləcə də informasiya məkanında, xüsusilə beynəlxalq miqyasda vəziyyət tədricən dəyişməyə başladı.

Bu sahədə ermənilərin əlləri hələ də uzun olsa da, Azərbaycan balansı öz xeyrinə dəyişir. Bir məqamı ayrıca qeyd etmək istərdim ki, Prezident İlham Əliyevin dedikləri, açıqlamaları indi xarici qəzetlərin manşetlərinə çıxır. Yəni, Azərbaycanın haqq sözünü dünyaya çatdırmaq yönündə ciddi uğurlara imza atmışıq. Elə media təsisatları var ki, bizi düşünülmüş şəkildə tənqid edirlər ki, onların korporativ maraqlarını təmin edək. Azərbaycan bu cür şantajlara uymur. Obyektiv, sağlam media təmsilçilərini, ekspertləri, siyasi xadimləri özümüz Bakıya dəvət edirik. Onlar burada həqiqəti öz gözləri ilə görürlər. İşğaldan azad etdiyimiz rayonlarımıza səfərlərində erməni vandalların əməllərinin şahidi olur və bütün bunları çalışdıqları nəşrlərdə yazır, telekanallarda işıqlandırırlar. Amma sakitləşməməliyik. Bizim deməyə sözümüz, onu dünyaya çatdırmağa imkanımız, həqiqəti sübut etməyə iradəmiz var.

### Ekspert rəyi



**Asif NƏRİMANLI,**
**siyasi icmalçı**

– Qərb mediasında erməni diasporu/lobbisinin Azərbaycana qarşı ideoloji tezisləri ötən əsrin 90-cı illərindən mövcud olub. Sadəcə olaraq bu təbliğat maşını işğal dövründə status-kvonu saxlamağa çalışırdısa, zəfərimizlə başa çatan 44 günlük müharibədən sonra uydurma ittihamlar irəli sürməkdən başqa əllərindən heç nə gəlmir. İkinci Qarabağ savaşında ermənipərəst media heç bir fakt və sübut təqdim etmədən Azərbaycanı regiona "xarici döyüşçülər" gətirməkdə ittiham edirdi. Fəqət, sonra bu feyk-təbliğatları da boş çıxdı. Daha sonra Qarabağdakı erməniləri "blokadada" saxlamaq ittihamları irəli sürüldü. "Karvan–şou" da fiaskoya uğrayandan sonra ermənilərin bölgədən zorla çıxarılması, onların "qaçqın" düşməsi və s. kimi uydurma iddialar irəli sürülür. Bütün bunlar reallığı dəyişdirə bilməmək çarəsizliyinin nəticələridir.

Sadəcə olaraq, erməni diasporu son 30 ildə bütün fəaliyyətini Azərbaycana qarşı qurub və dünya erməniliyini bunun ətrafında birləşdirib. İndi planları alt-üst olduğu üçün eyni ideoloji xətti qondarma ittihamlar üzərindən davam etdirirlər. Erməni diasporunun bəslədiyi lobbi qruplar da aldıqları dəstəyin, yaxud maliyyənin qarşılığında nəsə etmək xatirinə Azərbaycana qarşı müxtəlif iddiaları təbliğ etməyə məcburdurlar. Yəni, indi bu "təbliğat maşını" "xaltura" ilə məşğuldur.

---

# Davakar kilsənin maskası yırtıldı

## Erməni cəmiyyəti Paşinyanla açıq qarşıdurmaya keçən keşiş oyunlarına dəstək vermir

**Erməni apostol kilsəsi ilə Nikol Paşinyan iqtidarı arasında xeyli vaxtdır gizli şəkildə gedən qarşıdurma artıq açıq müstəviyə keçib. Baş nazirin mayın 7-də keçirdiyi mətbuat konfransında səsləndirdiyi fikirlər bunun göstəricisi sayıla bilər.**

Nikol ilk dəfə mayın 7-də bildirdi ki, bütün ermənilərin katolikosu II Qaregin bu gün siyasi hərəkata rəhbərlik edir. Hərəkatın benefisiarı isə keçmiş prezident Robert Koçaryandır. Onun sözlərinə görə, kilsənin Tavuş yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyanın rəhbərlik etdiyi "Vətən naminə Tavuş" hərəkatının məqsədi onun sələflərini hakimiyyətə qaytarmaqdır. Ermənistan hökumətinin rəhbəri onu da dedi ki, R.Koçaryan hələ 2021-ci ildə kilsənin dəstəyi ilə hakimiyyətin dəyişməsi ssenarisini təqdim edib.

Qarşı tərəfin Paşinyana cavabı da özünü çox gözlətməyib. Günün sonlarına yaxın erməni apostol kilsəsinin ali ruhani şurası bəyanat yayıb. Kilsə delimitasiya və demarkasiya prosesinə qarşı çıxdığını bəyanatda bu sözlərlə ifadə edib: "Ali ruhani şura hərtərəfli və zəmanətli həll yolları olmadan sərhədyanı Tavuş bölgəsində delimitasiya və demarkasiya adı altında həyata keçirilən, xalqımız üçün yeni təhlükələr yaradan fəaliyyəti son dərəcə təhlükəli hesab edir. Müqəddəs Eçmiədzin ana taxt-tacı Tavuş vilayəti ərazilərinin Azərbaycana birtərəfli təslim olunmasının (?) real mənzərəsi və danışıqlar zamanı Ermənistan hakimiyyətinin qəbuledilməz mövqeyi ilə əlaqədar əvvəllər bəyan etdiyi mövqeyini bir daha təsdiqləyir. Yaranmış vəziyyət bütün dünya ermənilərini, xüsusilə Tavuşun sərhədyanı icmalarının sakinləri arasında haqlı etiraza, "Vətən naminə Tavuş" vətəndaş hərəkatının başlanmasına səbəb olub. Din xadimləri, indiki halda, Tavuş yeparxiyasının ruhaniləri, öz mənəvi missiyalarına (?) sadiq qalaraq, insanların qayğı və ehtiyaclarına biganə və etinasız qala bilməzlər".

Ali ruhani şura, bir qrup şəxsin qarışıqlıq, iğtişaş salmaq cəhdlərinin "xalqın övladlarının ədalətli qayğı və narahatlıqları" adlandırıb. Eyni zamanda, onları qanunsuz hərəkətlərdən çəkinərək, sakitlik və təmkin nümayiş etdirməyə, etirazlarını yalnız dinc yolla bildirməyə çağırıb: "Həmçinin ictimai asayişin qorunmasına cavabdeh olan xidmətlərdən qanuna ciddi şəkildə riayət edən iş tərzi gözləyirik".

Onu da qeyd edək ki, ermənilərin inzibati cəhətdən müstəqil olan digər katolikosluğunun – mərkəzi Livanın paytaxtı Beyrutun 5 kilometrliyindəki Antelias şəhərində yerləşən Böyük Kilikiya evinin katolikosu I Aram da Tavuşdakı etirazlarla bağlı Eçmiədzinin mövqeyini tam dəstəklədiyini bildirib. İki katolikos telefon danışığı zamanı Tavuşdakı vəziyyəti müzakirə edərək, narahatlığın aradan qaldırılmasında erməni apostol kilsəsinin əsas rolunu vurğulayıblar.



Bu arada Azərbaycanla başlanan delimitasiya prosesinə mane olmaq və revanşist arzulara qol-qanad vermək məqsədilə ölkəmizin Xeyrımlı (Kirants) kəndindən başlayan yürüş İrəvana yaxınlaşır. Keşiş B.Qalstanyanın başçılığı ilə hərəkət edən yürüş iştirakçıları bu gün – mayın 9-da İrəvanda böyük mitinq keçirməyi nəzərdə tutublar. Lakin dünən səhər saatlarından yürüş iştirakçılarının dronla havadan çəkilən görüntüsü yürüşün təqdim ediləndən ciddi surətdə fərqləndiyini göstərir. Belə ki, bu görüntülərdə yürüş iştirakçılarının sayının azlığı aydın görünür. Bu isə mayın 9-da keçirilməsi nəzərdə tutulan mitinqin iştirakçılarının da sayının az olacağını deməyə əsas verir.

Kilsənin öz mövqeyini açıq-aydın ortaya qoyması, faktiki olaraq, hakimiyyətə qarşı çıxanların cəbhəsində yer alması erməni cəmiyyətinin böyük əksəriyyətinin etirazına səbəb olub. Cəmiyyətin avanqard qüvvəsi olan jurnalistlər kilsənin hərəkətlərinin yanlış olduğunu haylara çatdırmağa, onların necə deyərlər, gözlərini açmağa çalışırlar. Belə yazılardan biri kifayət qədər ciddi media resursu olan "Armenian Report" saytında yerləşdirilib. Yazıda bildirilir ki, sabiqlərlə (keçmiş hakimiyyət nümayəndələri–S.H.) bağlı hər şey aydındır. Qeyd edilir ki, indiki hakimiyyətlə bağlı pis hallar nə qədər çox olsa, onların Paşinyanı devirmək və bəlkə də dövləti idarə etməyə qayıtmaq şansları bir o qədər çox olur: "Onlar Tavuşda və bütün Ermənistanda etiraz aksiyalarına sponsorluq edir, delimitasiya və demarkasiya prosesini "Ermənistan ərazilərinin növbəti dəfə təslim olunması" kimi təqdim edirlər. Onlar baş verənlərin mahiyyətini dərk etməyən insanları küçələrə çıxmağa, yolları bağlamağa çağırır, vətəndaşlar arasında münaqişə və qarşıdurma yaratmağa xidmət edən təxribatlar törədirlər. Bütün bunlar isə "Tavuşun xilası" kimi təqdim olunur. Üstəlik, onlar əhalini Azərbaycan əsgərlərinin, guya, Voskepar (haylar Əskiparanı belə adlandırırlar – S.H.) ərazisində irəliləməsi ilə qorxudurlar. Hərçənd, aydındır ki, indiki vəziyyətdə Azərbaycanın Ermənistanla yeni hərbi toqquşmalara ehtiyacı yoxdur. Müharibə edən iki dövlət çətinliklə ümumi dil tapmaqda nail olub və öz aralarında razılığa gəlməyə çalışır. Bu isə yenə deyirəm, Qarabağ klanının və onun arxasında duran qüvvələrin maraqlarına ziddir".

Müəllif Tevos Arşakyan daha sonra yazır: "Amma mənim anlaya bilmədiyim kilsənin Qarabağ klanının tərəfində dayanaraq, proseslərə müdaxilə etməsidir. Tamamilə aydındır ki, Ermənistan daxilində iğtişaşlar törətməyi qarşısına məqsəd qoyan qüvvələr təkcə Eçmiədzinə deyil, həm də kilsənin ayrı-ayrı nümayəndələrinə arxalanırlar. Kilsənin Tavuş yeparxiyasının rəhbəri Qalstanyan sülhə qarşı kəskin mübarizənin önündə yer alıb. Son günlər Tavuşdakı etiraz aksiyalarını məhz o yönəldir. İnsanları polisə qarşı çıxmağa çağıran, sonra isə "dinc nümayişçilərə" qarşı güc tətbiq edildiyi barədə qışqıran da odur".

Bildirilir ki, Qalstanyanı destruktiv fəaliyyətə, heç şübhəsiz, indiki hökumətlə çoxdan düşmənçilik münasibətində olan katolikosun özü həvəsləndirir. Katolikos kütləvi aksiyalar keçirməsi üçün Baqrata da maliyyə dəstəyi verir: "Onlar Tavuşdakı vəziyyətin baş nazir Paşinyanı devirmək və əvvəlki qayğısız həyatlarını yaşamaq üçün son şans olduğunu düşünürlər. Təəssüf ki, kilsə xadimləri bu məsələdə zorakılığa əl atmaq, məsələni qanla həll etmək yolunu tutublar".

Ancaq qeyd edilir ki, qaydalara görə, kilsə bu proseslərdə rol ala bilməz. Kilsə sülh və əmin-amanlığa çağırış etmək əvəzinə, hakimiyyətə qarşı mübarizədə kənar qüvvələrin alətinə çevrilib: "Buna görə də II Qareginin rəhbərlik etdiyi qurum dövlətin təhlükəsizliyinə təhdidə çevrilib, cəmiyyətdə parçalanmanı gücləndirir. Son vaxtlar "beşinci kolon"a çevrilməsi ilə bağlı onun ünvanına səsləndirilən bütün ittihamlar əsassız deyil. Kilsə ilkin missiyasından geri çəkilib və bu, təəssüf doğurmaya bilməz. Bu gün kənardan gələn sifarişlə ölkənin sularını bulandıran bütün bu qüvvələrə elə gəlir ki, onlar Paşinyanı hədəfə alır və onunla vuruşurlar, əslində isə bütün hərəkətləri Ermənistanın özünə qarşı yönəlmiş olur. Nə yaxşı ki, Ermənistan əhalisinin əksəriyyəti bu oyunu çoxdan dərk edib. Ona görə də Koçaryanın, Sarkisyanın, daşnakların və kilsənin aksiyalarına bu qədər az sayda adam qoşulub".



**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri, politoloq Cavid Vəliyev** mövzu üzrə "XQ"-yə şərhində bildirdi ki, əslində, kilsənin belə addımlar atması gözlənilən idi. Onun sözlərinə görə, diaspor, kilsə və Qarabağ klanı daşnak ideologiyasının təsiri altında olan qruplaşmalardır. Bu qruplaşmalar indi də Azərbaycanla münasibətlərin normallaşması prosesinə qarşı çıxırlar. Çünki ölkəmizlə normallaşma prosesi olarsa, sülh sazişi imzalanarsa, bu qrupların mövcudluğu aradan qalxar: "Onlar özlərini hər zaman Azərbaycana və Türkiyəyə qarşı düşmənçilik ideologiyası üzərindən formalaşdırıblar. Həmin qruplaşmanın maddi sərvətlər əldə etməsi də bu əsaslar üzərindən olub. Cəmiyyətdən də düşmənçilik şüarları səsləndirmələri səbəbindən dəstək alıblar. Ona görə deyirik ki, Ermənistan Azərbaycan və Türkiyə ilə sülh əldə edərsə, dövlətlərarası münasibətlər qurarsa, bu qüvvələrin var olma səbəbi aradan qalxacaq. Bu baxımdan İrəvanın Bakı və Ankara ilə münasibətlərdə konstruktiv mövqe tutması hazırda onları, necə deyərlər, təhdid edir. Onlar hər vəchlə çalışırlar ki, düşmənçilik bitməsin".

C.Vəliyev qeyd etdi ki, Qarabağ klanı Tavuşdakı etirazları, eyni zamanda, hakimiyyətə qayıtmaq vasitəsi kimi görür: "Əgər bu məsələdə cəmiyyətdə çaxnaşma yarada, özlərinə siyasi dəstək qazana bilərlərsə, təkrar siyasi hakimiyyətə gedən yollarının açıla biləcəyini düşünürlər. Onlar gedən proseslərlə bağlı Ermənistan cəmiyyətində bir çaşqınlıq, qarışıqlıq olduğunun fərqindədirlər. Özlərini 30 il qalib tərəf olaraq təqdim edənlər indi ölkələrinin Azərbaycana bir çox məsələdə güzəştə getmək məcburiyyətində qaldığını hiss edirlər. Bunda da Paşinyanı təqsirləndirərək, özlərinə daha çox ictimai dəstək qazanmağa və prosesi gecikdirməyə çalışırlar".

Müsahibimiz onu da bildirdi ki, bu prosesdə kilsə tək deyil. Kilsə siyasi oyunun bir parçasıdır. Onun təmsilçiləri dindən uzaqlaşaraq siyasi oyun oynayırlar. Əgər onlar cəmiyyətdə dəstək qazana, delimitasiya və demarkasiya prosesini dayandıra bilərlərsə, o zaman bunu uğur kimi təqdim edəcək və mövqelərini daha da gücləndirəcəklər. Bu səbəbdən prosesi davam etdirirlər.

***Səxavət HƏMİD***
***XQ***

# Heydər Əliyev və iqtisadi inkişafda təhsilin rolu



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" sərəncamda deyilir: "Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir".**

Müasir Azərbaycanın təntənəsini, uğurlu iqtisadi inkişafını təmin edən əsas amillərdən biri də məhz təhsildir. Ulu öndər təhsilin əhəmiyyəti haqqında özü belə deyirdi: "Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. O, milli məqsədlər, milli mənafelər əsasında qurulmalıdır. ...Cəmiyyət təhsilsiz inkişaf edə bilməz".

**Ali təhsilin məqsədləri**

Təhsilin məqsədləri haqqında Ulu Öndərin fikirləri bu gün də olduqca aktualdır. Dahi şəxsiyyət deyirdi: "İndi bizim təhsilimizin məqsədi gənc nəslə təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşını hazırlamaqdır, müstəqil Azərbaycanın cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır. Hər bir insan gərək eyni zamanda vətəndaş olsun. Mütləq vətəndaş olsun! Gərək dövlətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaş olsun". Başqa sözlə, ali təhsilin əsas məqsədi əmək bazarının tələblərinə uyğun mütəxəssis hazırlamaqdan daha çox vətəndaş hazırlamaqdır. Yəni əmək bazarının tələbi, xüsusilə özəl sektorun üstünlük təşkil etdiyi iqtisadiyyatda dövlətinə sadiq, ənənələrinə sadiq, xalqına sadiq vətəndaşlar deyil, daha çox mənfəət əldə etməklə bağlıdır.

**Ali təhsilin milliliyi və əlçatanlığı**

1993-cü ildə Ulu öndər Heydər Əliyev təhsil siyasətinin prioritet sahə olduğunu bəyan etdi. 1995-ci ildə qəbul edilən Konstitusiyanın 42-ci maddəsində vətəndaşların təhsil hüququ təsbit edildi. Bununla da, təhsil sahəsində həyata keçiriləcək islahatların hüquqi əsası yaradıldı. Hər bir vətəndaşın təhsil hüququ ilə yanaşı, Ulu Öndər həm də təhsilin milliliyi amilini önə çəkirdi. Hələ 1969-cu ildə BDU-nun 50 illik yubileyində Azərbaycan dilində geniş nitqlə çıxışı və 1978-ci ildə Azərbaycan SSR-in yeni Konstitusiyasına Azərbaycan dilinin dövlət dili kimi daxil edilməsi milli təhsildə milli ədəbiyyatımızın, ana dilimizin, tariximizin və mədəniyyətimizin tədqiqinin, öyrənilməsinin vacibliyinə bir çağırış idi.

Sovet İttifaqının qüdrətinin təntənəsini yaşadığı, milli-mənəvi dəyərlərin beynəlmilləlşməyə qurban verildiyi bir dövrdə Heydər Əliyev milli kimliyin qorunması, ana dilində təhsilin inkişafına böyük sərmayə yatırdı. Dünya klassiklərinin və elmi ədəbiyyatın Azərbaycan dilinə tərcüməsi, Azərbaycan dilində günün tələblərinə uyğun bədii və elmi əsərlərin nəşri Konstitusiyaya əlavə edilmiş bu mühüm bəndin nəticələri idi. "Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı biri-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir", - deyən Heydər Əliyev bir daha ana dilində təhsilin əhəmiyyətini vurğulayır.

Milli təhsil sisteminin XXI əsrin çağırışlarına uyğun yenidən qurulması II dəfə hakimiyyətə gələndə də onun diqqət mərkəzində idi. Heydər Əliyev 1999-cu ilin 15 iyununda "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nı təsdiq etdi. Bundan bir il sonra, yəni 13 iyun 2000-ci ildə "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" fərmanla tarixi, siyasi və milli əhəmiyyət kəsb edən latın əlifbasına keçidin təmin edilməsi həm təhsilin milliliyinin artırılması, həm müstəqilliyin möhkəmlənməsi, həm də türkdilli dövlətlərin gələcək birliyi istiqamətində həyata keçirilmiş uğurlu və cəsarətli bir addım idi.

**Ali təhsilin strukturunun optimallaşdırılması və Avropa təhsil sisteminə inteqrasiya**

Heydər Əliyev Azərbaycanda vətəndaşların təhsil hüququnu tam təmin etmək, milli təhsil konsepsiyasının müddəalarını gerçəkləşdirmək, təhsil sistemində aparılan islahatları sürətləndirmək, idarəetmə mexanizmini təkmilləşdirmək, təhsildə maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyini artırmaq məqsədi ilə mümkün olanı edirdi. Ali təhsil müəssisələri şəbəkəsi optimallaşdırıldı, onlara universitet statusu verildi.

1970-1980-ci illərdə Azərbaycanda yeni texnologiyalara əsaslanan istehsal sahələrinin yaradılması həm də həmin sahələr üzrə ali və orta ixtisas təhsili müəssisələrinin, elmi-tədqiqat institutlarının yaradılmasına imkan verirdi. 1970-82-ci illərdə Azərbaycanda 5 yeni ali məktəb yaradılmış, ali təhsil müəssisələrin sayı 21-ə çatmışdı. Ali məktəblərdə təhsilalanların sayı isə 70 mindən 100 minə yüksəlmişdi.

Azərbaycanın milli təhsil sisteminin Avropa təhsil sisteminə inteqrasiyasının vacibliyi də yaddan çıxmırdı. 1996-cı ildə Ulu öndərin təşəbbüsü ilə "Avropa regionu dövlətlərində tədris kurslarının, ali təhsil haqqında diplomların və elmi dərəcələrin tanınması barədə Konvensiyaya qoşulmaq haqqında", həmçinin 1997-ci ildə "Avropa regionunda ali təhsil sahəsində ixtisasların (kvalifikasiyaların) tanınması haqqında Konvensiyanın təsdiq edilməsi barədə" qanunlar qəbul edildi. Bu, Azərbaycan milli təhsil sisteminin tarixi ənənələrə və əldə olunmuş nailiyyətlərə əsaslanaraq tədricən Avropa təhsil məkanına inteqrasiyasına hazırlıq idi.

**Gələcəkdə müstəqil Azərbaycan üçün milli mütəxəssislərin hazırlanması**

XX əsrin 70-80-ci illərində dövrün sərt siyasi-ideoloji tələblərinə baxmayaraq, 1970-ci ildən başlayaraq, azərbaycanlı gənclərin keçmiş Sovetlər İttifaqının ən nüfuzlu universitetlərinə oxumağa göndərilməsi təmin edildi. 70-ci illərin sonunda ildə 800-900 nəfər və 80-ci illərin əvvəlində ildə 1000-1400 nəfərə yaxın gəncimiz respublikamızdan kənardakı ali məktəblərdə təhsil alırdılar.

O, bütövlükdə, Azərbaycandan kənarda, keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəbində 15 mindən artıq azərbaycanlı gəncin təhsil almasını təmin etmişdir. Həmin gənclər isə ölkəmizin 80-dən çox sahə, 250-dən çox ixtisas üzrə yüksəkixtisaslı kadrlara olan tələbini ödəmişdir.

Ulu öndərin milli mütəxəssislərin hazırlanması, gənclərin ölkə üçün zəruri olan ixtisaslar üzrə xaricdə təhsil almaları istiqamətində həyata keçirdiyi islahatlar bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Belə ki, "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində 4000 nəfərə yaxın azərbaycanlı gənc dünyanın 32 ölkəsinin 379 aparıcı universitetində təhsil almaq hüququnu qazandı. Hazırda isə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" uğurla icra olunmaqdadır.

Ümummilli lider Heydər Əliyev milli iqtisadçı kadrların yetişdirilməsi məsələsinə də xüsusi önəm verirdi. Onun iqtisadiyyatın müxtəlif sahələri üzrə milli kadrların hazırlanması istiqamətində hələ sovet dönəmindən başlayaraq atdığı misilsiz addımlar ölkənin inkişafına xidmət edəcək güclü milli kadr potensialını formalaşdırmışdır. Heydər Əliyevin bu istiqamətdə gördüyü işlər arasında ölkədə iqtisad elmi və təhsilinin inkişafı və milli iqtisadiyyatın müasir iqtisadçı kadrlarla təminatı hər zaman prioritetliyi ilə seçilmişdir. O, bazar iqtisadiyyatına keçidin digər ictimai elmlərdə olduğu kimi, iqtisad elmində də köklü dəyişikliklər tələb etdiyini görürdü. Ulu Öndər bununla bağlı 2002-ci il iyunun 13-də Azərbaycan Dövlət İqtisad Universitetinin 70 illik yubileyindəki çıxışında deyirdi: "İctimai elmlər çox dəyişir və dəyişməlidir, mütləq dəyişməlidir. Bunlar hamısı indi bizim müstəqilliyimizin inkişafına xidmət etməlidir. Bizim milli müstəqilliyimizi əks etdirməlidir. Elmdə, təhsildə, kadrların hazırlanmasında bu dəyişikliklər gərək yeni Azərbaycanın yaranmasına xidmət etsin. O cümlədən də iqtisad elmi".

Ulu öndər Heydər Əliyevin Azərbaycan dövləti və milləti qarşısında təhsil sahəsində əvəzsiz xidmətlərindən biri də milli hərbi kadrların yetişdirilməsilə bağlı gördüyü işlərdir. Artıq sirr deyil ki, həm çar Rusiyasında, həm də SSRİ-də azərbaycanlıların peşəkar hərbiçilər kimi yetişməsinə, hərb sənətinə yiyələnməsinə imkan verilməmişdir. Yalnız Heydər Əliyevin birbaşa rəhbərliyi ilə 1972-ci ildən etibarən hər il yüzlərlə gənc keçmiş SSRİ-nin böyük təcrübəyə malik ali hərbi məktəblərinə təhsil almağa göndərilmişdir. Eləcə də, Ulu Öndər uzaqgörənliklə xüsusi əhəmiyyətini nəzərə alaraq, Bakıda C. Naxçıvanski adına Hərbi Məktəbi yaratmış, bununla da hərbi təhsilin əsasını qoymuş və sonrakı inkişafına nail olmuşdur. Məhz bu hərbi məktəblərdə təhsil alan və ya hərbi təhsil almağa göndərilən zabitlər sonradan müstəqil Azərbaycanın Milli Ordu quruculuğu işlərində və Ermənistanın təcavüzünə qarşı mübarizədə yaxından iştirak etmişlər.

**Müəllim peşəsinə diqqət və qayğı**

Ulu öndər Heydər Əliyev hər zaman müəllim peşəsinə böyük dəyər vermişdir. O, deyirdi: "Müəllim adı ən yüksək addır. Mən yer üzündə müəllimdən yüksək ad tanımıram".

Ulu öndər 1998-ci ildə Azərbaycan müəllimlərinin XI Qurultayında bu barədə danışaraq deyirdi: "Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda, qəhrəmanlıq göstərən insanlardır. Müəllimlik peşəsi asan peşə deyil. Bəziləri hesab edirlər ki, hər adam müəllim ola bilər. Bəzən olur ki, müəllimliyə layiq olmayan adam da müəllimlik edir. Belə hallar bu gün də var, gələcəkdə də ola bilər. Ancaq Azərbaycan müəllimlərinin tam əksəriyyəti layiqli müəllimdir. Əgər bunlar belə olmasaydı, Azərbaycanın bugünkü elmi, iqtisadiyyatı, mədəniyyəti, yüksəlişi ola bilərdimi? Biz bunların hamısını məktəblərdən, universitetlərdən, müəllimlərdən, sizdən almışıq".

Müəllimlərə verilən yüksək qiymətlə yanaşı, Ümummilli lider Heydər Əliyev həm də, onların özlərinin də vətənpərvər, dövlətə və millətə sadiq olmalarının vacibliyini xüsusi vurğulayırdı. O, deyirdi: "Biz keçmişlərdən fərqli olaraq, indi müstəqil Azərbaycanın gələcəyini formalaşdırırıq, müstəqil Azərbaycanın vətəndaşlarını formalaşdırırq və universitetdə formalaşan gənc, Azərbaycanın gələcək fəal vətəndaşı gərək, birincisi, mənəviyyatca saf olsun. Ona görə də gərək mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün. Gərək o, vətənpərvərlik hissi yaşasın, vətənpərvərlik hissi ilə tərbiyə olunsun. Ona görə də gərək onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər".

Etiraf etməliyik ki, Azərbaycan təhsili qarşısında duran bu vəzifəni uğurla icra edir. Vətənpərvərlik ruhunda tərbiyə edilən, formalaşan Azərbaycan gəncləri Müzəffər Ali Baş Komandan İlham Əliyevin komandanlığı altında igid əsgər və zabit kimi öz müəllimləri ilə birlikdə qəhrəmanlıqla döyüşərək, 44 günlük Vətən müharibəsində ərazilərimizi erməni işğalçılarından azad etdilər, Azərbaycanın Zəfər tarixini yazdılar. Bəli, bu, həm də Azərbaycan təhsilinin ən böyük uğurlarından biridir.

**Tələbələrin keyfiyyətli təhsilə motivasiya edilməsi**

Azərbaycan Respublikasında təhsil sahəsində yüksək nəticələr əldə etmək və onların təhsilə olan həvəslərini artırmağın əhəmiyyəti də Ulu Öndərin diqqətindən yayınmırdı. Bu baxımdan Azərbaycan Respublikasının ali məktəblərinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş 102 nəfər tələbə üçün Prezident təqaüdünün təsis edilməsi, həmin tələbələrlə görüşləri Ulu Öndərin gənclərin ali təhsil almalarına böyük dəstəyinin təzahürü idi. Heydər Əliyev həmin gəncləri Azərbaycanın işıqlı gələcəyi kimi görürdü: "İndi Azərbaycanın ali məktəblərində təhsil alan gənclər, siz ölkəmizin gələcəyisiniz. Özü də yaxın gələcəyi yox, uzaq gələcəyisiniz. Azərbaycan gələcəkdə sizin kimi gənclərdən formalaşmış insanların çiyinlərində yaşayacaqdır, inkişaf edəcəkdir. Mən sizə və bütün gənclərə, bütün tələbələrə Azərbaycanın gələcəyi ilə əlaqədar böyük ümidlərlə baxıram".

**Heydər Əliyevin təhsil siyasətinin uğurlu davamı**

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi və iqtisadi kurs bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, eləcə də Azərbaycan Respublikasının I vitse-prezidenti Mehriban xanım Əliyeva və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən uğurla davam etdirilir. Azərbaycan təhsilinin inkişaf tarixinin təhlili göstərir ki, Ümummilli lider Heydər Əliyevin bütün islahat təşəbbüsləri İlham Əliyev tərəfindən yeni müstəvidə və beynəlxalq təcrübə əsasında davamlı olaraq inkişaf etdirilmiş və ölkəmizin tərəqqisinə böyük töhfələr vermişdir. Prezident İlham Əliyevin yeni dövrün yeni təhsil sisteminin, eyni zamanda insan kapitalının yaradılması konsepsiyasını irəli sürməsi ali təhsilin uğurlu gələcəyinə ən böyük zəmanətdir.

**Ədalət MURADOV,**
**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor**

# Heydər Əliyev ideyaları və müasir Azərbaycan

**Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasında Ulu öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev ideyaları və müasir Azərbaycan" mövzusunda respublika elmi-nəzəri konfransı keçirilib.**

DTX-nin mətbuat xidmətindən verilən məlumata görə, tədbirdə ölkənin xüsusi təyinatlı ali təhsil müəssisələrinin rəhbər şəxsləri və professor-müəllim heyəti ilə yanaşı, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov və Milli Məclisin deputatı Etibar Əliyev iştirak ediblər.

Xalqımızın Ümummilli lideri Heydər Əliyevin akademiyanın ərazisində ucaldılan abidəsi önünə gül dəstələri düzülüb, onun və ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla anılıb, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda akademiyanın rəisi, polkovnik Elşad Nəsirov müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin milli dövlətçilik ənənələrimizin yenidən bərqərar edilməsindən və ölkəmizdə demokratik prinsiplərə əsaslanan hüquqi dövlət qurulmasından, eləcə də Vətən və xalq qarşısında göstərdiyi misilsiz xidmətlərdən bəhs edib.

Ulu öndərin həyat və fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş olunub.



Konfransda Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov çıxış edərək Ulu öndərin düşünülmüş və uzaqgörən siyasəti nəticəsində ölkəmizin gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsindən və Azərbaycanda hüquqi dövlət quruculuğu strategiyasının uğurla həyata keçirilməsindən, müstəqil respublikamızın ilk Konstitusiyasının hazırlanmasında və qəbul edilməsində gərgin əməyindən danışılıb. Qeyd olunub ki, Heydər Əliyevin əsasını qoyduğu hüquqi islahatlar hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

Milli Məclisin deputatı Etibar Əliyev və Dövlət Gömrük Komitəsi Akademiyasının rəisi, gömrük xidməti general-mayoru Qulu Novruzov konfransın əhəmiyyətini, Heydər Əliyevin dövlətçilik amallarının və vətənpərvərlik irsinin təbliğinin vacibliyini vurğulayıb.

**XQ**



# Ulu öndər və uğursuzluğu zəfərə çevirən siyasət

## *“Xalq qəzeti”nin Goranboyda dəyirmi masa müzakirəsi*

**Xəbər verdiyimiz kimi, mayın 7-də Goranboy Rayon İcra Hakimiyyəti və “Xalq qəzeti” ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş birgə dəyirmi masa keçirib. “Ulu öndər və uğursuzluğu zəfərə çevirən siyasət” mövzusunda müzakirədən hazırlanmış materialı oxucularımıza təqdim edirik.**

Dəyirmi masa ətrafındakı söhbətdən əvvəl tədbir iştirakçıları Heydər Əliyev Mərkəzi qarşısında ucaldılan Ulu öndərin abidəsi önünə gül dəstələri düzdü, dahi şəxsiyyətin xatirəsinə dərin ehtiramlarını bildirdilər. Sonra mərkəzin foyesində təşkil olunmuş stendər, foto-şəkillərlə tanışlıq oldu. Ümummilli liderin 1978, 1982 və 2002-ci illərdə Goranboya səfərləri ilə bağlı şəkillərə, tarixi sənədlərə və digər materiallara iştirakçılar böyük maraqla baxdılar.

Toplantı Yeni Azərbaycan Partiyası Goranboy Rayon Təşkilatının binasında davam etdirildi. Əvvəlcə Ulu öndərin və Vətən şəhidlərinin xatirəsi ehtiramla yad edildi. Sonra Ulu öndərin mətbuatımızın inkişafı ilə bağlı həyata keçirdiyi tədbirləri, jurnalistlərə göstərdiyi diqqət və qayğını əks etdirən film nümayiş etdirildi.

**Dəyirmi masanı giriş sözü ilə açan Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev iştirakçıları salamlayaraq dedi:**

– Ümummilli lider Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən, müstəqilliyini günbəgün möhkəmləndirən müasir Azərbaycan dövləti Heydər Əliyev ideyalarının təntənəsidir.

Heydər Əliyev Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, çağdaş dövlət idarəçiliyi sisteminin yaradıcısı, azərbaycançılıq ideologiyasının və milli özünüdərkin banisidir. Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında intibaha nail olmuşdur.

Möhkəm siyasi iradə və sarsılmaz əqidəyə sahibi olan Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün bütün imkanlardan bacarıqla istifadə etmişdir. Ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan sovet imperiyasının süqutunun yaratdığı böhran və xaos, Ermənistanın ölkəmizə hərbi təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdı.

Tarixi taleyimizin həll olunduğu fəlakətli bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmışdır. Xilaskar lider bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir.

Ulu öndər Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş biliyi və dərin təfəkkürü, düşünülmüş və cəsarətli qərarları ilə Heydər Əliyev təkcə müstəqillik illərində deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri yüksək səviyyədə həll etmişdir.

Müstəqil dövlətin lideri Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir.

Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması da Ulu öndərin müstəsnatöhfəsidir. Azərbaycanınçoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Başqa maraqlı bir dövr Azərbaycanda vətəndaş müharibəsinin qarşısının alınması ilə bağlıdır. Bu, olduqca mürəkkəb və təzadlı bir dövr idi. Azərbaycan dövləti parçalanmaq təhlükəsi ilə baş-başa qalmışdı. Həmin dövrə diqqətlə nəzər salsaq görərik ki, ulu öndər Heydər Əliyev dahi bir dövlət xadimi kimi Azərbaycan dövlətinin və dövlətçiliyinin mənzərəsini çox aydın şəkildə görür və onun struktur formulasını müəyyənləşdirərək nəyin, necə olmasını dəqiq cizgilərlə qura bilmişdir. Məhz bunun nəticəsi idi ki, müstəqil Azərbaycan dövləti quruldu, möhkəmləndi və əbədiyyət qazandı. Məhz Ulu öndərin həmin dövrdə həyata keçirdiyi siyasət nəticəsində bu gün Azərbaycan dünyada müstəqil, tərəqqi edən dövlət kimi tanınır.

Bölgələrimizi addım-addım gəzən, ayağı dəyən yerləri cənnətə döndərən qüdrətli lider Heydər Əliyev sonuncu dəfə, 2002-ci il sentyabrın 13-də Goranboyda olarkən demişdi: “Xatirimdədir, 1978-ci ildə, 1982-ci ildə mən sizin rayona gəlmişəm, burada geniş müşavirə keçirmişəm. Hətta rayonlararası müşavirələri burada keçirmişəm. Təkcə bu deyil, sizin rayonunuzla mən daim məşğul olmuşam və o illərdə rayonun inkişafı üçün lazım olan tədbirləri görmüşəm”.

O illərdə rayonda pambıq istehsalı 35 min tona çatmışdı. 1996-cı illə müqayisədə rayonda taxıl istehsalı 15 min ton artmışdı. Məktəblər, tibb müəssisələri yenidən qurulmuşdu. Digər sosial obyektlər istifadəyə verilmişdi. Rayonun Gülüstan ərazisindəki Aşağı Ağcakənd və Yuxarı Ağcakənd qəsəbələrində müharibə zamanı dağıdılmış 1400 yaşayış evinin bərpa edilməsi, 1995-ci ildən tikintisi yarımçıq qalmış 322 evin inşasının başa çatdırılması üçün Neft Fondunun hesabından kifayət qədər vəsaitin ayrılması uğurlu neft siyasətinin bəhrələrindən biri, Ümummilli Liderin Goranboy rayonuna böyük diqqət və qayğısının təzahürü idi.

Heydər Əliyev dünya miqyaslı siyasətçi kimi keçmiş sovet dövlətinin də həyatında silinməz izlər qoymuşdur. Düz yarım əsr əvvəl təbii sərvətlərlə zəngin olan Sibir və Uzaq Şərqi birləşdirəcək Baykal–Amur Magistralının tikintisi barədə qərar qəbul edilməsi ittifaqda böyük əks-səda doğurmuşdu. Heydər Əliyev Moskvaya sovet rəhbərliyinə gedəndən sonra əsrin nəhəng tikintisi Baykal–Amur Magistralının inşası üzrə yaradılmış dövlət komissiyasının sədri olmuşdu və işlərin gedişini tam nəzarətdə saxlamışdı. Miqyasına görə nəhəng sayılan magistralın tikintisində isə işlərin sürəti qənaətbəxş deyildi. O illərdə Heydər Əliyevin qətiyyəti olmasaydı, Baykal–Amur Magistralının tikintisinin başa çatması müşkül bir məsələyə çevriləcəkdi. Böyük qurucu rəhbər Heydər Əliyevin rəhbərliyi altında 1984-cü ildə Baykal–Amur Magistralı əsasən istifadəyə verildi.

2008-ci il iyulun 18-də Baykal-Amur Magistralında Şərqi Sibir dəmiryolunun Anqoya stansiyasındakı vağzala Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adının verilməsi onun bu xidmətlərinin unudulmaması demək oldu.

Heydər Əliyev kimi müdrik şəxsiyyətləri tarix tez-tez yetirmir. Zaman keçdikcə bu nadir şəxsiyyətin əzəmətini qədirbilən xalqımız daha aydın görür və dərk edir. Bu gün Azərbaycan dünyada ən sürətlə və dinamik inkişaf edən dövlətlərdən biridir. Ölkənin iqtisadi qüdrətinin artması onun müstəqil siyasət yeritməsinə, əhalinin rifah halının ildən-ilə yüksəlməsinə imkan yaradır. İkinci Qarabağ müharibəsində qazanılmış parlaq Qələbə güclü dövlət-güclü ordu konsepsiyasının təntənəsidir. Regionun gündəliyini bu gün Azərbaycan diktə edir. Dünya gücləri Azərbaycanın yaratdığı yeni reallıqlarla hesablaşırlar. Ulu öndərin siyasi kursunun layiqli davamçısı olan Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanı bu böyük uğurlara çatdırmaqla ata vəsiyyətini layiqincə yerinə yetirdi.

**Tədbirdə “Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov çıxış edərək demişdir:**



- Zamanın, məkanın fövqündə dayanan şəxsiyyətlərin mövcudluğu hər xalqın taleyinə yazılmış xoşbəxtlik ola bilməz. Azərbaycan xalqı Heydər Əliyev kimi dühanı yetişdirdiyi üçün xoşbəxtdir.

Heydər Əliyev böyük zirvədir. Bu zirvə Uca Tanrının bizlərə lütfüdür. Hər sözü, hər davranışı, mimikası, jestləri, təbəssümü, mərhəməti parlaq cizgilərlə özündə birləşdirən nəhənglikdir Heydər Əliyev. O nələrə şahidlik etməyib ki? Dayandığı zirvəni təsvir emək mümkündürmü? Əsla yox. Heyrətamizdir, örnəkdir, tarixdir onun gördükləri və etdikləri. Hətta möcüzədir də.

Bu gün Azərbaycanın dünyadakı mövqeyinə, dəst-xəttinə baxanda bir daha əmin olursan ki, Heydər Əliyev möcüzə yaratmış şəxsiyyətdir, möcüzələr memarıdır. O möcüzələrin ki, azərbaycanlını yenidən dövləti olan xalq statusuna qaldırdı. O möcüzələrin ki, bir toplumu dövlətçilik təfəkkürünə köklədi. Bəli, Heydər Əliyev Azərbaycanı Azərbaycan edəndir.

Heydər Əliyev şəxsiyyəti məfkurədir, ideyadır, qətiyyətdir, əzmdir, iradədir. Bunun təsdiqi baxımından kifayət qədər təkrarsız və bənzərsiz nümunələr var. Çoxlarınız onlarla tanışsınız. O nümunələr yaşadığımız tarixin də ayrılmaz tərkib hissəsi kimi özünü təsdiqləmiş, vətəndaşlıq hüququ qazanmış təbiətə malikdir. Amma mənə Azərbaycan Prezidenti cənab İlham Əliyevin 8 noyabr 2020-ci il tarixdə Şuşanın azad olunması münasibətilə xalqa müraciətindəki bu fikirlər daha çox təsir etdi: “Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu öndərin ruhu şaddır bu gün!”

Bəli, Heydər Əliyevin torpaqlarımızın düşmən tapdağından xilas edilməsi yolundakı dönməzliyi, prinsipiallığı nəticəsini verdi. Qarabağ məsələsinin dərinliklərini, siyasi labirintlərini nəzərdən keçirəndə, keçmişdəki aktiv jurnalistlik fəaliyyətim zamanı bu mövzudakı siyasi mükalimələri, müxtəlif şəxslərin söylədiklərini beynimdə saf-çürük edəndə düşünürəm ki, ortada insanı heyrətə gətirən nəticə var. Qürur duyuram, fəxarət hissi keçirirəm ki, xalqımın Heydər Əliyev kimi stereotipləri sındıran, tarixi dəyişdirən, axına qarşı çıxa bilən mərd övladı var.

Qarabağın Azərbaycana qayıtması sıradan hadisə sayıla bilməzdi. Qarabağı və digər işğal edilmiş torpaqlarımızı bizə qovuşduran təpər və cəsarət illərdən bəri aparılmış düşünülmüş siyasətin son dərəcə parlaq akkordu idi. O siyasətin ki, təməlini Heydər Əliyevdən götürmüşdü.

Heydər Əliyev şəxsiyyəti üçün Qarabağ xalqımızın milli davasıydı. Prezident İlham Əliyev məhz bu ideyanı müqəddəs məfkurəyə çevirdi. Bunu bacarması ilə nə qədər fəxr etsə, öyünsə, yenə azdır. Axı ata vəsiyyətini belə dəqiqlik və həssaslıqla yerinə yetirə bilən lider övladlar da tarixdə çox deyil.

Bildiyiniz kimi vaxtilə “RUH” Jurnalistləri Müdafiə Komitəsi Heydər Əliyevi “Jurnalistlərin dostu” seçib. Bu münasibətlə təşkil olunan mərasimdə Ulu Öndərin dedikləri bu gün də yadımdan çıxmır: “Bu mənim üçün qeyri-adi bir hadisədir. İlk dəfə olaraq, mən jurnalistlərin, nəhayət, xoşuna gəlmişəm və onlar məni mükafatlandırıblar. Mənə 2001-ci ildə Azərbaycanda "Jurnalistlərin dostu" mükafatı verdiklərinə görə "RUH" Jurnalistləri Müdafiə Komitəsinə, onun rəhbərliyinə təşəkkürümü bildirirəm. Əmin edirəm ki, mən keçmişdə olduğu kimi, bu gün də o jurnalistlərin dostuyam və həmişə jurnalistlərin dostu olacağam”. Siz sadəliyə, eyni zamanda böyüklüyə, müdrikliyə baxın.

Heydər Əliyev jurnalistikaya kifayət qədər açıq idi və jurnalistikanın gücünü son dərəcə aydın dəyərləndirirdi. O, Azərbaycanın media orqanlarının dövlətçilik ruhunda inkişafında mühüm işlər görüb. İstər Naxçıvanda dövlət çevrilişinə cəhd olunanda, istərsə də 1994-1995-ci illərdə dövlət çevrilişinə cəhdlər zamanı televiziya vasitəsilə xalqa müraciət edib onları səfərbər olmağa çağırması kifayət qədər ciddi addım idi. Onun xalqa müraciət forması bunun bir göstəricisi idi.

Yəqin bilirsiniz, qəzetlərin Azərbaycan Nəşriyyatına borcu yığılıb qalmışdı. Belə bir məqamda Heydər Əliyev media rəhbərləri ilə görüş keçirdi və borclar donduruldu. Yeri gəlmişkən, onu da deyim ki, Prezident İlham Əliyev dövlət başçısı kimi fəaliyyətə başlayanda isə həmin borclar ümumiyyətlə silindi. Əlbəttə, bu, Ulu öndərin əsasını qoyduğu mediaya dəstək siyasətinin parlaq göstəricisi idi. O siyasətin isə saysız-hesabsız təzahürləri var. Bu baxımdan Prezident Heydər Əliyevin 1998-ci il avqustun 6-da senzuranın ləğvi ilə bağlı imzaladığı Sərəncam xüsusi vurğulanmalıdır. Sənəd bütün media ictimaiyyətində dərin rəğbət doğurmaqla yanaşı, cəmiyyəti sözün yaxşı mənasında şoka saldı.

Biz hamımız düşünürdük ki, müharibə vəziyyətində olan bir ölkə senzuranı necə ləğv edə bilər?! Bunu yalnız O böyük İnsan edə bilərdi və sonrakı proseslər bir daha göstərdi ki, Heydər Əliyev necə bir uzaqgörən, dahi şəxsiyyət idi.

Əflatun Amaşov çıxışının sonunda “Heydər Əliyevin media dərsləri” kitabını rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyevə bağışlamışdır.







(ardı 9-cu səhifədə)

# Ulu öndər və uğursuzluğu zəfərə çevirən siyasət

(əvvəli 8-ci səhifədə)

**Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev qədim şəhərin inkişafında Ulu öndərin, Prezident İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın xidmətlərindən söz açdı:**



– Ulu öndər Azərbaycana rəhbərliyi illərində Gəncəyə 12 dəfə səfər edib. Bu səfərlər Gəncənin inkişafına, tərəqqisinə güclü və davamlı təkan verib. Şəhərdə elə bir sahə, obyekt, tikili yoxdur ki, orada Heydər Əliyevin izi, xidməti olmasın. Nəhəng sənaye müəssisələri, təhsil, səhiyyə, mədəniyyət ocaqları, saysız-hesabsız sosial obyektlər, park və xiyabanlar Gəncəyə yeni nəfəs gətirdi, şəhərin adı ölkənin hüdudlarından kənara çıxdı. Burada tarixi abidələrə də yeni nəfəs verildi, şəhərin elmi potensialı gücləndirildi. Elə Gəncə Elm Mərkəzi də Heydər Əliyevin təşəbbüsü ilə yaradıldı. Bu elm ocağı AMEA-nın Gəncə bölməsi adı ilə öz fəaliyyətini ildən-ilə genişləndirir.

Ulu öndərin bu siyasətini Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlət başçımız respublikaya rəhbərlik etdiyi 21 il ərzində 21 dəfə Gəncəyə səfər edib.

Hər dəfə də yeni obyektlərin açılışı olub və ya digərlərinin təməli qoyulub. Fərəhli hal odur ki, Prezidentimiz bu tədbirlərin hamısında özü şəxsən iştirak edib. Bu səfərlər şəhərin həyatında mühüm dəyişikliklərin əldə olunması ilə yadda qalıb. Ölkə rəhbəri hər dəfə qədim diyarın müasirləşdirilməsi istiqamətində aparılan işlərlə maraqlanaraq milli xüsusiyyətləri unutmamağı tövsiyə edib.

Gəncənin tarixi simasını və ənənəvi memarlıq üslubunu qoruyub saxlamaqla şəhəri müasirləşdirmək barədə qərar da dövlət başçımızın tövsiyələrinə uyğun qəbul olunub. Bundan başqa, Prezident İlham Əliyevin tapşırığına əsasən, Gəncənin memarlıq ansamblına şəhərin qədimliyini nəzərə çarpdıran monumental ünsürlərin əlavə edilməsi qərara alınıb. Beləliklə, həm Prezident İlham Əliyevin, həm də Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində Gəncədə tarixi-memarlıq abidələri yeni bir dövrə qədəm qoyub.

Gəncədəki Heydər Əliyev Park-kompleksini möcüzə adlandıran dövlət başçımız onun da açılışında olub. Yeri gəlmişkən, 400 hektar sahəsi olan bu obyekt dünyanın 5 ən böyük parkından biridir və gəncəlilər bununla haqlı olaraq fəxr edirlər. İlk çinarın 1979-cu ildə Ulu öndər tərəfindən əkildiyi ərazi indi gəncəlilərin və qonaqların ən böyük istirahət yerinə çevrilib.

Dövlət başçısı Gəncədə yeni iş yerlərinin yaradılması istiqamətində də böyük tədbirlərin həyata keçirilməsinə nail olub. "DET AL" Alüminium MMC-nin Gəncə alüminium zavodu kompleksinin istifadəyə verilməsi ilə minlərlə adam daimi iş yeri azandı. Bu, Azərbaycanın dinamik inkişafının parlaq göstəricisidir.

(Akademik AMEA Gəncə bölməsi alimlərinin birgə hazırladıqları "Heydər Əliyev və Gəncə" kitabını Goranboy Rayon İcra Hakimiyyətinin kitabxanasına hədiyyə etdi.)

**"Mübariz" rayon qəzetinin redaktoru Xuraman Abbasova isə mövzu ətrafında çıxışında dedi:**



– Müasir Azərbaycan jurnalistikası da öz inkişafını Heydər Əliyev ideyalarından götürür. Çünki medianın inkişafı məsələləri həmişə ümummilli lider Heydər Əliyevin diqqət mərkəzində olub. Milli mediamızın bir qərinəlik dövrdə inkişafı daim jurnalistlərin dostu olmuş Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı mətbuatımızın inkişaf tarixində də yeni mərhələ açdı. Müasir Azərbaycan jurnalistikası dünya standartları səviyyəsinə yüksəldi.

Azərbaycanda ictimai-siyasi sabitliyin yaradılması, vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, sosial-iqtisadi problemlərin həlli, söz, fikir azadlığına geniş meydan açılması media sahəsində də əsaslı irəliləyişlərə şərait yaratdı. Müstəqil kütləvi informasiya vasitələrinin təsis edilməsi milli mətbuat ənənəsinin davam etdirilməsinə yol açdı.

1998-ci ildə imzalanan "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman ölkə KİV-nin inkişaf tarixində mühüm hadisə kimi qiymətləndirilir. Bu fərman kütləvi informasiya vasitələrinin sərbəst inkişafı, onların cəmiyyətin dinamik şəkildə










demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda dövlət siyasətinin həyata keçirilməsində mühüm addım sayıldı. Məhz bu fərmanla Mətbuatda və digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə edən Baş İdarə adlı senzura birdəfəlik ləğv edildi.

1999-cu ilin sonunda qəbul olunan "Kütləvi informasiya vasitələri haqqında" yeni qanun mətbuatda demokratik prinsiplərin daha da möhkəmləndirilməsinə xidmət etdi. Bu sənəd Azərbaycanda mətbuatın inkişafına mane olan bir sıra bürokratik əngəllərin aradan qaldırılmasına yol açdı. Dövlət qeydiyyatı ləğv olundu və yeni mətbuat orqanlarının təsis olunması prosedurası asanlaşdırıldı. Ümummilli lider Heydər Əliyevin azad, demokratik medianın inkişafı ilə bağlı tədbirləri davamlı şəkil aldı.

2000-ci ilin martında Ulu öndərin sərəncamı ilə "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqamı" təsdiq olundu. Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi, Mətbuat, Teleradio və İnternet şuraları yaradıldı.

2001-ci ildə kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşən Ulu öndər Heydər Əliyev demişdir: "Biz mətbuat haqqında bir neçə ciddi addım atmışıq: söz azadlığının, mətbuat azadlığının təmin olunması, senzuranın aradan qaldırılması, bütün mətbuat orqanlarına sərbəstlik verilməsi. Əgər bu gün hansısa yeni bir şey varsa, biz onu edirik və edəcəyik".

Ulu öndər mətbuatın maneəsiz fəaliyyəti, dünya təcrübəsindən bəhrələnməsi, xüsusilə kütləvi informasiya vasitələrinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılması, o cümlədən jurnalistlətin peşə səviyyəsinin yüksəldilməsi və hüquqlarının qorunması üçün bütün zəruri addımlar atdı və tədbirlər həyata keçirmişdir. Qısa bir müddət ərzində media sahəsində böyük irəliləyiş müşahidə olundu. Yeni qəzetlər, kütləvi informasiya vasitələri, özəl televiziyalar yarandı.

**Milli Qəhrəman Niyazi Aslanovun həyat yoldaşı Rübabə İsmayılova müzakirələrə qoşularaq söylədi:**



– Belə bir gündə danışmaq mənim üçün qürurvericidir, həm də məsuliyyətlidir. Heydər Əliyev haqqında günlərlə danışsaq da qurtarmaz. Onun Azərbaycan üçün gördüyü xidmətlər misilsizdir. Ulu öndər xalqın təkidi ilə hakimiyyətə gələndə ölkə daxilində xaos, çəkişmələr baş verirdi. Torpaqlarımız işğal olunurdu, sənayedə, təhsildə, elə mətbuatın özündə də problemlər əmələ gəlmişdi. Onun hakimiyyətə gəlişi bütün bunların qarşısını aldı və özbaşnalıqlara son qoyuldu. Torpaqlarımızın işğalı dayandırıldı və tədricən hər bir sahədə dirçəliş başladı.

Ulu öndər hakimiyyətə gələndən sonra ordu quruculuğuna yetirdiyi diqqətin nəticəsidir ki, indi biz bu salonda qalib Azərbaycan dövlətinin nümayəndələri kimi əyləşmişik. Çünki bunun təməli o dahi şəxsiyyət tərəfindən qoyulub. Kiçik bir epizodu xatırlatmaq istəyirəm: oktyabr ayında andiçmədən sonra ilk görüşünü biz şəhid ailələri ilə keçirdi. İkinci dəfə Prezident seçiləndə də ilk görüşü 1998-ci ildə bizimlə oldu və mənim orada sevimli rəhbərlə maraqlı söhbətim oldu.

Xalq atası adını şərəflə daşımış Heydər Əliyev heç vaxt şəhid ailələrinə diqqətini, qayğısını əsirgəmədi və insanlarda da belə bir fikir formalaşdı ki, deməli, torpaq, vətən uğrunda canından keçən hər bir kəs dövlət tərəfindən qayğı ilə əhatə olunur.

Ulu öndər böyük inamla demişdir ki, nə qədər Azərbaycan var, mən də varam. Mən də Azərbaycanda həmişəlik qalacağam. Bəli, o böyük insan həmişəlik Azərbaycandadır, bizim qəlbimizdədir.

**Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair Ələsgər Əlioğlu isə dəyirmi masada söz alaraq dedi:**

– Ümummilli lider Heydər Əliyevin söz adamlarına, yaradıcı insanlara qayğısı mətbuat səhifələrinə silinməz izlərlə həkk olunub. Mən "Xalq qəzeti"nin tarixi ilə bağlı araşdırma apararkən görmüşəm ki, 1969-cu ildən sonra ədəbiyyatımızda və incəsənətimizdə milli ab-hava yaranıb. Böyük rəhbərin yaradıcı adamlara münasibəti bir məktəbdir və bu, mütləq dərindən öyrənilməlidir. Kiçik bir epizod deyim. Yazıçıların qurultayında deyilib ki, Hüseyn Cavidin məzarı Sibirdə qalıb. Ulu öndər dərhal cavab verib: Siz nə vaxt bu məsələni qaldırmısınız ki, mən də bununla bağlı tədbir görməyim?

Çox keçmədi ki, Heydər Əliyev uzaq Sibirdən, yiyəsiz bir yerdən Hüseyn Cavidin nəşini Azərbaycana gətizdirdi. Bu hadisə mədəni tariximizə qızıl hərflərlə yazılan səhifələrindəndir. Yaradıcı insanlara belə isti münasibəti, qayğını, bu ənənəni Heydər Əliyevdən sonra onun ən layiqli varisi Prezident İlham Əliyev davam etdirir.

**"Xalq qəzeti"nin bölgə müxbiri, Əməkdar jurnalist Hamlet Qasımov Ulu öndərin onun çalışdığı qəzetə verdiyi yüksək qiyməti xatırlatdı:**



– Ulu öndər Azərbaycana rəhbərlik etdiyi dövrlərdə daim mətbuatın himayədarı, qayğıkeşi olub. Bunu "Xalq qəzeti"nin timsalında da aydın görmək olur. Mediamızın misilsiz himayədarı ölkənin ən uzunömürlü, anadilli gündəlik ictimai-siyasi nəşrinin 75 illiyi münasibətilə redaksiya kollektivinə göndərdiyi teleqramda demişdi: "Xalq qəzeti" mənalı yaradıcılıq yolu keçmiş, özünəməxsus üslub və sənətkarlıq xüsusiyyətləri olan nəşrlərdəndir. Uzun müddət "Kommunist" adı ilə nəşr edilən qəzet bütün sovet dövrü ərzində Azərbaycanın ictimai və mədəni həyatının güzgüsü olmuşdur".

**Dəyirmi masa müzakirəsini çapa hazırladı: H.Zeynaloğlu**

**XQ**

**Goranboy**

# Heydər Əliyev və Azərbaycan Dövlət Aqrar Universiteti



**Bir əsrdən artıq zəngin tarixi olan Azərbaycan Dövlət Aqrar Universitetinin ən böyük uğurları məhz Ümummilli liderin respublikamıza rəhbərliyi illərinə təsadüf edir.**

Azərbaycan Mərkəzi Dövlət Arxivində və ADAU-nun arxivində saxlanılan sənədlərə istinadən deyə bilərik ki, 1920-ci il noyabrın 13-də Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun imzaladığı qərarla Bakı Politexnik İnstitutu təsis edilmişdir. Bir ay sonra, yəni dekabrın 14-də bu institutun nəzdində 5 fakültə, o cümlədən kənd təsərrüfatı fakültəsi yaradılmış və bununla da ölkəmizdə ilk dəfə ali kənd təsərrüfatı mütəxəssislərinin hazırlığına başlanılmışdır. 1929-cu ilədək fəaliyyət göstərmiş kənd təsərrüfatı fakültəsində Cənubi Qafqaza sürgün edilmiş bir qrup görkəmli rus və digər xalqlardan olan əcnəbi alimlər tədris prosesinə cəlb edilmişdir. 1924-cü ildə ali təhsilli kənd təsərrüfatı mütəxəssislərinin birinci buraxılışı olmuşdur.

Araşdırmalarımız deməyə əsas verir ki, məhz 14 dekabr 1920-ci il respublikamızda ali aqrar təhsilin başlandığı gün kimi qəbul olunmalıdır. Bu əlamətdar tarixi günlə bağlı Azərbaycanın 2 böyük şəxsiyyətinin – Inqilab Komitəsinin sədri Nəriman Nərimanovun və ümummilli lider Heydər Əliyevin imzaları vardır.

Azərbaycan SSR Xalq Komissarları Sovetinin 15 may 1929-cu il tarixli qərarı ilə Bakıda kənd təsərrüfatı fakültəsinin bazasında Azərbaycan Kənd Təsərrüfatı İnstitutu yaradılmışdır. 1931-ci ildə institut Bakıdan Cümhuriyyətimizin ilk paytaxtı Gəncəyə köçürülmüşdür. 1933-cü ildə Gəncədə fəaliyyət göstərən Zaqafqaziya Pambıqçılıq İnstitutu, Azərbaycan Zoobaytarlıq İnstitutu və Tiflisdəki Hidromeliorasiya İnstitutu Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (indiki ADAU) tərkibinə birləşdirilmişdir. Qeyd edək ki, AKTİ (indiki ADAU) 1991-ci ilin sonunadək keçmiş Sovet Ittifaqındakı 108 kənd təsərrüfatı institutunu və 16 filialı özündə birləşdirən SSRI Kənd Təsərrüfatı Nazirliyinin nəzdindəki Ali Kənd Təsərrüfatı Təhsili Baş İdarəsinin tabeliyində olmuşdur.

AKTİ 1991-ci ilin iyun ayından Azərbaycan Kənd Təsərrüfatı Akademiyası, 2009-cu ilin aprel ayından isə Azərbaycan Dövlət Aqrar Universiteti adlanır.

1930-cu ilin dekabr ayında respublikamızda ali kənd təsərrüfatı mütəxəssislərinin hazırlığına başlanılmasının 10-cu ildönümü ilə əlaqədar 1932-ci ildə AKTİ-nin dar çərçivədə 10 illik yubileyi keçirilir, 50 çap vərəqi həcmində 1000 nüsxə (500-ü türk dilində, 500-ü rus dilində) yubiley toplusu Bakıda "Qızıl Şərq" mətbəəsində nəşr edilir.

1940-cı ildə respublikada ali kənd təsərrüfatı təhsili üzrə mütəxəssis hazırlığının 20 illiyi ilə əlaqədar Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun yubileyi keçirilmiş, kənd təsərrüfatı istehsalının və elminin inkişafında böyük xidmətləri nəzərə alınaraq SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə institutun bir qrup əməkdaşı Sovet İttifaqının orden və medalları ilə təltif edilmişdir.

1950-ci ildə institutun 30 illiyi ilə əlaqədar SSRİ Ali Təhsil Nazirliyinin 10 aprel 1951-ci il tarixli 594 nömrəli əmri ilə AKTİ-nin dar çərçəvədə 30 illik yubileyi keçirilmişdir.

1969-cu il iyulun 14-də Heydər Əliyev Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi seçilir. Respublikanın yeni rəhbəri ilk günlərdən bütün sahələrlə yanaşı, aqrar sahəyə və aqrar təhsilə xüsusi diqqət və qayğı ilə yanaşır. Kənd Təsərrüfatı İnstitutunun ölkəmizin aqrar təhsilində böyük xidmətlərini və AKTİ-nin yubileyləri ilə bağlı əlamətdar tarixi hadisələri dəqiq bildiyindən az sonra, iyulun 22-də Ulu öndərimizin rəhbərliyi ilə respublikada yüksəkixtisaslı kadr hazırlığında və kənd təsərrüfatı elminin inkişafında böyük xidmətləri nəzərə alınaraq, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin və Azərbaycan SSR Nazirlər Sovetinin "S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (indiki ADAU) 50 illiyinə hazırlıq və onun keçirilməsi tədbirləri haqqında" tarixi qərarı qəbul edilir. Yubileyin keçirilməsi 1970-ci il dekabrın 14-ə təyin edilir. Mərkəzi Komitə katibinin sədrliyi ilə 27 nəfərdən ibarət hökumət üzvlərindən ibarət yubiley komissiyası yaradılır və həmin qərardan irəli gələn müddəaların icrasını təmin etmək məqsədilə müvafiq orqan və təşkilatlara göstərişlər verilir.

Lakin üzrlü səbəblərdən yubiley əvvəlcədən təyin olunmuş vaxtda – 14 dekabrda keçirilmir. Buna baxmayaraq, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1979-cu il 13 mart tarixli qərarı ilə AKTI-nin (indiki ADAU) 50 illik yubileyinin keçirilməsinə yenidən baxılır və icazə verilir. Respublikamızın rəhbəri ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yüksəkixtisaslı mütəxəssis hazırlığında və kənd təsərrüfatı elminin inkişafında xidmətlərinə görə Azərbaycan Kənd Təsərrüfatı İnstitutu (indiki ADAU) SSRİ Ali Soveti Rəyasət Heyətinin 1979-cu il 16 may tarixli Fərmanı ilə "Şərəf nişanı" ordeni ilə təltif edilir, bir qrup əməkdaş fəxri adlara və dövlət mükafatlarına layiq görülür.

Heydər Əliyev həmin ordeni SSRİ Ali Soveti Rəyasət Heyəti adından bu ali təhsil ocağına təqdim etmək üçün 1980-ci il dekabrın 16-da Gəncəyə gəlir. Şəhərdəki keçmiş "Bakı" kinoteatrının böyük salonunda Moskvadan (baş idarənin rəisi professor İ.P.Markov), Gürcüstandan, Dağıstandan və digər yerlərdən gələn yüksək səviyyəli qonaqların iştirakı ilə yubileyə həsr olunmuş yığıncaq keçirilir. Burada Ulu öndər ali təhsil ocağımızın yarıməsrlik fəaliyyəti barədə geniş nitq söyləyir. Xüsusi olaraq vurğulayır ki, "Azərbaycan Kənd Təssərüfatı İnstitutu nəinki yüksəkixtisaslı kadrlar hazırlamalı, həm də respublikada kənd təssərüfatını daha da inkişaf etdirmək sahəsində elmi tədqiqatların mühüm mərkəzi olmalıdır!" Sonra isə "Şərəf nişanı" ordenini təntənəli şəkildə institutun bayrağına sancılır.

İndi bu tarixi hadisəni həmin yubileydə iştirak etmiş əməkdaşlarımız məmnunluqla xatırlayırlar. Heydər Əliyevin tövsiyəsi və tapşırığı ilə 1979-cu ilin mart ayında Gəncədə yaradılmış "Xatirə parkı"nın (indiki Heydər Əliyev parkı) AKTİ-yə (ADAU) ayrılmış sahəsində yubiley günü orada əkmək üçün şam ağacı gətirdilər. Ulu öndər ağacı kənara qoyaraq "Mənə çinar verin, mən Gəncədə çinar əkəcəyəm" dedi. Bu gün Ulu öndərin əkdiyi həmin çinarın "Heydər Əliyev park kompleksi"ndə xüsusi yeri var. Həmin günü yaxşı xatırlayıram. Qollu-budaqlı bu nəhəng çinar ağacı parka gözəllik bəxş edir.

Bu təhsil ocağı 1969-1982-ci illərdə, Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə daim diqqət mərkəzində olub. 1970-ci ilədək bu ali məktəbə tələbə qəbulu planı orta hesabla hər il 400 – 500 nəfər olduğu halda, 1970 – 1982-ci illərdə 1000 - 1200 tələbə qəbul edildi. 1970 – 1974-cü illərdə İnstituda 5666, 1975 – 1979-cu illərdə 4482, 1980 - 1982-ci illərdə 6009 tələbə qəbul olunmuşdu. 1982-ci ildə institutun əyani və qiyabi təhsil formalarında 12000-dən artıq tələbə təhsil alırdı.

1978-ci ilin iyun ayında məhz Ulu öndərin təşəbbüsü ilə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi, SSRİ Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan SSR Nazirlər Sovetinin "Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda kadr hazırlığının daha da yaxşılaşdırılması və onun tədris-maddi bazasının möhkəmləndirilməsi tədbirləri haqqında 9 iyun tarixli 210 nömrəli birgə qərarı qəbul olundu. Bu qərarda tədris prosesinin, elmi tədqiqatların və tərbiyə işlərinin keyfiyyətinin daha da yaxşılaşdırılması proqramı nəzərdə tutulmuşdu. Həmin qərarın tələblərinə uyğun olaraq Gəncə-Göygöl (Xanlar) şəhərləri arasında 300 hektarlıq sahədə Kənd Təsərrüfatı İnstitutunun böyük kompleksinin tikilməsi planlaşdırılmış, bu məqsədlə keçmiş İttifaq büdcəsindən külli miqdarda maliyyə vəsaiti ayrılmışdı. Ulu öndərin daim nəzarəti altında olan bu kompleksdə 1979-cu ilin əvvəlindən ciddi şəkildə işlərə başlanıldı, xeyli tikinti, kommunikasiya işləri həyata keçirildi, 2 yataqxana, 1 qazanxana inşa edildi, bir neçə tədris korpusunun, dendroloji parkın, ippodromun əsası qoyuldu. 1990-cı ildən sonra bu işlər məlum səbəblərdən dayandırıldı.

Ümumiyyətlə, zamanın hər bir mərhələsində dövlətin və millətin inkişafında təhsilin müstəsna xidməti olub. Təsadüfi deyil ki, Ulu öndər təhsili millətin gələcəyi adlandırırdı. Elmi və təhsili olmayan savadsız xalqların, əlbəttə, qabaqcıl millətlər sırasında yeri yoxdur. Bu baxımdan, elm və təhsilin inkişafına daha çox ehtiyac və tələbat duyulurdu. Bu həm də onunla bağlıdır ki, dünyada maddi sərvətlər tükənməkdədir. Alimlər, elm adamları yeni qaynaqlar axtarışındadır. Hazırda inkişaf etmiş ölkələrdə elmə əsaslanan iqtisadiyyatın qurulması ən prioritet sahələrdəndir.

Cəmiyyətin bugünkü səviyyəsi elmin, yeni texnologiyaların inkişafını birbaşa zərurət kimi qarşıya qoyur. Bu prosesdə, şübhəsiz, ali təhsilin müstəsna rolu var. Yəni ali təhsil bu işdə lokomotiv rolunu oynamaqla, bir tərəfdən, ölkədə təhsilin inkişafını təmin edirsə , digər tərəfdən, kadr potensialını formalaşdırır.

Heydər Əliyevin 2000-ci il 13 iyun tarixli fərmanı ilə ölkəmizdə cəmi 4 ali məktəbə, o cümlədən Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna muxtariyyət hüququ verildi.

1969-1982-ci illərdə Ulu öndərin bilavasitə diqqəti və qayğısı sayəsində Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna hər il güzəştli tələbə qəbulu həyata keçirilirdi, ucqar və dağlıq rayonlardan gənclərin, xüsusən, azsaylı xalqların nümayəndələrinin qəbuluna daha ciddi yanaşılır, böyük üstünlüklər verilirdi. Yeri gəlmişkən, məhz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində 1970-ci ildən başlayaraq hər il keçmiş İttifaqın nüfuzlu ali təhsil müəssisələrinə azərbaycanlı gənclərin müsabiqədənkənar qəbulu həyata keçirilirdi. 1969-1982-ci illərdə keçmiş İttifaqın 170 nüfuzlu ali məktəbində 150 ixtisas üzrə 15 mindən çox azərbaycanlı gəncin ali təhsil almasına şərait yaradılmışdı. Həmin gənclər bu gün də Azərbaycanın inkişafında mühüm rol oynayırlar. Həmin dövr hər dərs ilinin başlanğıcı ərəfəsində – avqust ayının sonlarında respublikamızda Heydər Əliyevin rəhbərliyi, hökumət üzvlərinin, dövlət xadimlərinin iştirakı ilə indiki Heydər Əliyev Sarayında yeni qəbul olunmuş tələbələrin görüşü keçirilirdi. Bu görüşlərin hamısında Heydər Əliyev geniş nitq söyləyir, tapşırıq və tövsiyələrini verirdi. Bununla yanaşı, hər il iyul ayının ortalarında Ulu öndərin rəhbərliyi ilə Mərkəzi Komitənin büro iclaslarında tələbə qəbulu ilə bağlı Mərkəzi orqanların rəhbərləri, ali məktəb rektorları və ictimai təşkilatların nümayəndələrinin iştirakı ilə geniş müzakirələr aparılırdı. Həmin görüşlərdə və iclaslarda bu sətirlərin müəllifi də institut komsomol komitəsinin katibi və əməkdaşların həmkarlar ittifaqı komitəsinin sədri kimi iştirak etmişdir.

Heydər Əliyevin müstəqillik illərində də xarici ölkələrə təhsil almağa gedən, həmçinin ölkəmizin ali məktəblərinə yuksək balla qəbul olunmuş tələbələrlə görüşlərini davam etdirirdi.

Ulu öndərin ölkənin yeganə ali aqrar təhsil müəssisəsinə göstərdiyi diqqət və qayğı 20 ildən artıqdır ki, onun ən layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab Ilham Əliyev tərəfindən ən yüksək səviyyədə davam etdirilir. Qocaman elm məbədi müasirləşir, dünyanın aparıcı aqrar təhsil müəssisələri ilə sıx əməkdaşlıq əlaqələri qurur, aqrar təhsil sahəsində yeniliklərə imza atır.

Azərbaycanda təhsillə bağlı son nailiyyətlər beynəlxalq təhsil ekspertlərin hesabatlarında da öz əksini tapmışdır. Təsadüfi deyil ki, 2012-ci ilin may ayında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə təhsillə bağlı beynəlxalq konfranslar məhz Bakı şəhərində keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət beynəlxalq aləmdə xalqımızın iradəsinin təsdiqinə, ölkəmizin iqtisadi imicinin artırılmasına əlverişli şərait yaradır. Bu siyasi kursun əsasını isə xalq və dövlət qarşısında öz xilaskar missiyasını şərəflə yerinə yetirmiş əbədiyaşar ümummilli lider Heydər Əliyev qoymuşdur.

*Nüsrət HÜSEYNOV,*
*Azərbaycan Dövlət Aqrar Universitetinin dosenti*

# Slovakiya şirkətləri ölkəmizdə həvəslə fəaliyyət qurur

**Azərbaycan və Slovakiya arasında münasibətlər dostluq, əməkdaşlıq və qardaşlıq ruhunda inkişaf edir. İki ölkə arasındakı bu münasibət iqtisadi əməkdaşlıq sahələrində güclənərək son illərdə daha da inkişaf edib. Azərbaycanla Slovakiya arasında diplomatik münasibətlər 23 noyabr 1993-cü ildə qurulub. 2000-ci ilin fevralında Slovakiyanın xarici işlər naziri Eduard Kukan Azərbaycana səfər edib. 1 fevral 2000-ci ildə Azərbaycan Prezidenti Heydər Əliyev Eduard Kukan başda olmaqla nümayəndə heyətini qəbul edib. Səfər zamanı Birgə Bəyanat, Azərbaycan Respublikası Hökuməti və Slovakiya Respublikası Hökuməti arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq haqqında Saziş, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Slovakiya Respublikası Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Protokol imzalanıb. 20 Aprel 2002-ci ildə isə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Slovakiya Respublikası Xarici İşlər Nazirliyi arasında növbəti dəfə əməkdaşlıq haqqında Protokol imzalanıb.**



İkitərəfli münasibətlərin genişlənməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasına səfəri böyük rol oynayıb. 18 mart 2004-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Slovakiya Respublikasına işgüzar səfər edib. Səfər çərçivəsində Prezident İlham Əliyev bir sıra beynəlxalq təşkilatların və xarici ölkələrin rəhbər şəxsləri ilə görüşlər keçirib.

Azərbaycan və Slovakiya arasında iqtisadi münasibətlər energetika, ticarət, texnologiya və turizm kimi sahələrdə genişlənməkdədir. Energetika sahəsində Azərbaycan ilə Slovakiya arasında əməkdaşlığın səmərəliliyi diqqət çəkir. Azərbaycanın zəngin neft və qaz ehtiyatları, Slovakiya üçün əhəmiyyətli bir sahədir. Bu, enerji ticarəti, boru kəmərlərinin qurulması və enerji infrastrukturunun inkişafı kimi layihələrə imkan yaradır.

Bu gün Azərbaycan neft və qaz ehtiyatlarını tədarük etməklə təkcə regionda deyil, həm də Avropa İttifaqının (Aİ) enerji təhlükəsizliyinin təmin olunmasında həlledici rol oynayır. Azərbaycan qazının Aİ bazarına ixrac edilməsi üçün infrastrukturun yaradılması məqsədilə bir neçə əsas layihə icra olunub. 2007-ci ildə "Bakı-Tbilisi-Ərzurum" qaz kəməri (Cənubi Qafqaz qaz boru kəməri) istifadəyə verilib və "Şahdəniz" yatağının birinci mərhələsi çərçivəsində hasil edilən qaz Gürcüstan, Türkiyə və Yunanıstana ixrac edilməyə başlayıb. 2012-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin (ozamankı) Baş naziri Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə İstanbulda Azərbaycan ilə Türkiyə arasında TANAP (Trans-Anadolu təbii qaz boru kəməri) layihəsinə imza atılıb. 2013-cü ildə TANAP kəməri ilə daşınacaq Azərbaycan qazının Avropa bazarına çatdırılması üçün Türkiyə sərhədini İtaliyanın cənubuna birləşdirən TAP (Trans-Adriatik təbii qaz boru kəməri) layihəsi razılaşdırılıb və kəmərin tikintisi 2020-ci ildə başa çatdırılıb. Bu layihələr "Şahdəniz" yatağını İtaliyanın cənubuna birləşdirməklə Cənub Qaz Dəhlizi layihəsinin reallaşmasına imkan verib. Artıq tam gücü ilə işə düşən Cənub Qaz Dəhlizi məhz Azərbaycanın təşəbbüsü, Azərbaycan Prezidentinin siyasi iradəsi və qətiyyəti nəticəsində reallığa çevrilən və Avropanın enerji xəritəsinə ciddi töhfə verən mühüm enerji infrastrukturudur. Ölkə başçısının müdrikliyi və siyasi iradəsi, layihə iştirakçıları arasında düzgün koordinasiyanın təşkili, beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq, Avropa İttifaqının siyasi dəstəyinin təmin olunması bu layihənin hər bir mərhələsinin uğurla tamamlanmasını təmin etdi.

Bütün bu layihələr Azərbaycan qazını Avropa bazarına çatdırmaq üçün əsaslı infrastruktur yaradır və enerji təhlükəsizliyinin artırılmasında əhəmiyyətli addım kimi qiymətləndirilir. Həmçinin bu infrastrukturun yaradılması bölgədə iqtisadi əməkdaşlığı gücləndirmək və strateji tərəfdaşlığı genişləndirməklə yanaşı, regionda sabit və uzunmüddətli enerji təchizatının inkişafını təmin edir.

2021-ci ildə Azərbaycan Avropaya 8 milyard kubmetr qaz ixrac edirdisə bu il bu rəqəmin 12 milyarda qədər artması gözlənilir. 2027-ci ilin sonunadək isə təkcə Avropa İttifaqı məkanına 20 milyard kubmetr qazın nəql edilməsi planlaşdırılır. Bu planın olması Azərbaycanın qaz ixracının müsbət perspektivlərinin təzahürüdür. Qaz ixracının artırılması, ölkənin iqtisadi inkişafına və beynəlxalq enerji bazarlarındakı mövcudluğuna olan təsirini daha da artıracaq. Bununla birlikdə bu layihələrin həyata keçirilməsi, infrastrukturun inkişafını və Avropa İttifaqı ilə əlaqələrin daha da güclənməsini təmin edəcək potensialı əks etdirir.

Azərbaycan hazırda 8 ölkəyə öz təbii qazını ixrac edir və Slovakiya 9-cu ölkə olacaq. Bununla bağlı 2023-cü il aprelin 25-də Sofiyada Bolqarıstan, Rumıniya, Macarıstan, Slovakiyanın qaz nəqli operatorları ilə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın inkişafına dair Anlaşma Memorandumu imzalanıb. "Həmrəylik halqası" adlanan bu təşəbbüs Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş qaz ötürücü sistemləri şəbəkəsi vasitəsilə Avropaya əlavə qaz tədarükü üçün əməkdaşlıq sahələrini müəyyən edir. Bu layihə Mərkəzi, Şərqi və Cənubi Avropa regionunda enerji təchizatının təhlükəsizliyini və şaxələndirilməsini təmin edəcək.

Qeyd edək ki, 2022-ci il iyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında "Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. Bu memorandumun imzalanması, iki tərəfin energetika sahəsindəki əməkdaşlığını daha da genişləndirməyə və strateji məqsədlərinə nail olmağa, həmçinin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayıb.

Dövlətimizin başçısının yeni enerji siyasətinin digər mühüm komponenti isə odur ki, Prezident İlham Əliyev Avropaya digər enerji körpüsünü də salır. Azərbaycan Avropanın mühüm elektrik enerjisi, əsasən, yaşıl enerji təchizatçısına çevrilməyi planlaşdırır. Azərbaycanın nəhəng bərpaolunan enerji potensialı ölkəmizin bu sahədə də həlledici rol oynamasına imkan verir. Azərbaycanın bərpaolunan enerji potensialına gəldikdə, quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çoxdur, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 qiqavat təşkil edir. Azərbaycan strateji investorların biri ilə 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisi istehsal etməyi planlaşdırır ki, istehsal olunacaq enerjinin 80 faizi ixrac olunacaq. Azərbaycan 2037-ci ilə qədər ən azı 6 qiqavatlıq əlavə gücləri yaratmağı da hədəfləyir.

İqtisadçı ekspert Eldəniz Əmirov AZƏRTAC-a açıqlaması zamanı bildirib ki, Azərbaycan və Slovakiya arasında münasibətlər davamlı olaraq artmaqdadır. Onun sözlərinə görə, Slovakiya Azərbaycanın Avropa İttifaqına daxil olan və ikitərəfli strateji tərəfdaşlığa dair əməkdaşlığı olan 9 ölkədən biridir.

"Azərbaycanın 2,6 trilyon kubmetrlik qaz ehtiyatı, eyni zamanda, bu ehtiyatın hasil olunması üçün mövcud potensialı və ixrac olunması üçün Cənub Qaz Dəhlizi kimi bir infrastruktur imkan verir ki, Şərqi Avropa ölkələrinin, o cümlədən də Slovakiyanın qazla təchizatında Azərbaycan öz rolunu oynasın. Bu isə ikitərəfli münasibətləri daha da yüksəldir", - deyə E.Əmirov vurğulayıb.

Ekspert diqqətə çatdırıb ki, ötən il Bolqarıstanın paytaxtında "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu" imzalanıb. Onun sözlərinə görə, bunu əməkdaşlığın perspektivdə daha da genişlənməsinə əlavə yol xəritəsi kimi adlandırmaq olar.

E.Əmirov bildirib ki, Azərbaycanla Slovakiya arasında ticarət dövriyyəsi 2022-ci ildə 52,7 milyon dollar olub. 2023-cü ildə isə bu göstərici daha da artıb. O vurğulayıb ki, iki ölkə arasında illik ticarət dövriyyəsi davamlı olaraq artmaqdadır: "Ən azından Azərbaycanın qaz ixracı iki dəfəyə qədər artıb. Məsələn, 2022-ci ildə ixrac 600 milyon kubmetr idisə, bu rəqəm 2023-cü ildə 1 milyard 250 milyon kubmetr olub. Təbii ki, bu ixrac artdıqca ticarət dövriyyəsində də özünü göstərəcək. Ümumiyyətlə Azərbaycanda yaradılan mövcud investisiya mühiti, o cümlədən Ələt-Araz iqtisadi zonasının öz rezidentləri və qeyri-rezidentləri üçün yaratdığı fürsətlər Slovakiya şirkətlərinin də Azərbaycanda fəaliyyətini stimullaşdırır. Azərbaycan-Slovakiya biznes forumunda da bu məsələ bilavasitə vurğulanıb. Ticarət, energetika, sənaye, nəqliyyat və turizm sahələri üzrə əməkdaşlığı gücləndirməyə əlavə fürsətlər verir. Düşünürəm ki, qeyd edilən bütün istiqamətlərdə iki ölkə arasında münasibətlər artan dinamika ilə davam edəcək. Azərbaycanın Orta Asiyadan əlavə, Avropa istiqamətində də iqtisadi kontekstdəki əlaqələrində genişlənmə prosesi gedir".

# Bolqarıstan ölkəmizin Avropaya açılan qapısıdır

**Son illər Azərbaycanla Bolqarıstan arasında siyasi, iqtisadi, elmi, texniki və mədəni əlaqələrin genişləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. İki ölkə arasındakı əlaqələrin möhkəmlənməsində dövlət başçılarının və digər rəsmi şəxslərin qarşılıqlı səfərləri, həmin səfərlər çərçivəsində müxtəlif sahələrdə əməkdaşlığı nəzərdə tutan müqavilə və sazişlərin imzalanması xüsusi əhəmiyyət daşıyır. Eyni zamanda qlobal əhəmiyyət kəsb edən bir sıra məsələlərdə iki ölkənin maraqlarının və mövqelərinin üst-üstə düşməsi münasibətlərin daha da genişlənməsinə imkan yaradır. Bolqarıstan Respublikasının Prezidenti Rumen Radevin mayın 8-də Azərbaycana növbəti səfəri isə iki ölkə arasında əlaqələrin inkişafında yeni səhifə açacaq.**



Xatırladaq ki, iki Azərbaycan və Bolqarıstan arasında diplomatik əlaqələrin əsası 1992-ci il iyun ayının 5-də qoyulub. 1999-cu il mayın 28-də Azərbaycan Prezidenti tərəfindən iki ölkə arasında iqtisadi-ictimai və elmi texniki komissiyanın yaradılması haqqında sərəncam imzalanıb. 2004-cü ilin oktyabr ayında Bolqarıstan Prezidenti Georji Pırvanov və onun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində ticari-iqtisadi və elmi-texniki komissiyalarının fəaliyyəti və digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb, bir sıra vacib sənədlər, o cümlədən iki ölkə arasında investisiyanın təşviqi və qarşılıqlı qorunması haqqında saziş, ticari-iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Azərbaycan–Bolqarıstan Hökumətlərarası Komissiyanın ikinci iclasının protokolu, eləcə də ticarət gəmiçiliyi haqqında saziş imzalanıb. Bütün bu sənədlər iki ölkənin iqtisadi münasibətlərinə yeni bir dinamizm gətirib.

Azərbaycan Prezidenti İlham Əliyevin 2015-ci ildə bu ölkəyə səfəri zamanı imzalanmış "Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" ilə münasibətlər keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Həmin sənədlə tərəflər qarşılıqlı maraq doğuran sahələrdə həm ikitərəfli formatda, həm də beynəlxalq aləmdə əməkdaşlığı dərinləşdirmək və genişləndirmək məqsədilə strateji tərəfdaşlığa daxil olduqlarını bəyan ediblər. Ötən müddətdə ölkələrimiz arasında 65 sənəd imzalanıb.

Hazırda Bolqarıstanın 15 şirkəti ölkəmizdə fəaliyyət göstərir. Yaxın vaxtlarda isə bu ölkənin "Caspian Lubricants Recycling" şirkəti də Azərbaycan iqtisadiyyatına investisiya yatıracaq. Şirkət Sumqayıt Kimya Sənaye Parkının 2 hektar ərazisində istifadə olunmuş mühərrik və sənaye yağlarının təkrar emalı ilə baza yağlarının istehsalı layihəsini həyata keçirəcək. Layihənin investisiya dəyəri 13,1 milyon manat təşkil edir. Müəssisədə 54 nəfərlik daimi iş yeri yaradılacaq. Burada istehsal olunacaq məhsulların daxili bazara çıxarılması ilə yanaşı, ixracı da nəzərdə tutulur. Xatırladaq ki, artıq İqtisadiyyat Nazirliyinin İqtisadi Zonaların İnkişafı Agentliyi tərəfindən Bolqarıstan şirkətinə Sumqayıt Kimya Sənaye Parkının rezidenti olması ilə əlaqar şəhadətnamə də təqdim edilib.

Yeri gəlmişkən, Azərbaycanın iqtisadiyyat nazirinin müavini Sahib Məmmədovun bildirdiyinə görə, iki ölkə arasında olan əməkdaşlıq ənənəvi ticarət və investisiya fəaliyyətlərindən kənara çıxır. Belə ki, Bolqarıstan və Azərbaycan Avropa İttifaqının ümumi dəyəri 2,1 milyon avro olan iki tvinninq layihəsində birgə iştirak ediblər. Bu da ölkələrimizin müxtəlif istiqamətlərdə əməkdaşlığa və tərəfdaşlığa sadiqliyini nümayiş etdirir.

Bütövlükdə isə, ötən illər ərzində Azərbaycanla Bolqarıstan arasında iqtisadi əlaqələr dinamik şəkildə artıb. Elə ötən müddətdə Bolqarıstanın Avropa məkanında ölkəmizin əsas ticarət tərəfdaşına çevrilməsi də bunu təsdiqləyir. Müqayisə üçün qeyd edək ki, 2007-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi vur-tut 15, 9 milyon ABŞ dolları təşkil etdiyi halda, 2023-cü ildə bu göstərici dəfələrələ artaraq 510 milyon dolları ötüb. Eyni zamanda ötən il aparılmış idxal-ixrac əməliyyatlarında ölkəmiz 453 milyon dollara yaxın müsbət saldo əldə edib. Bir maraqlı məqam da ondan ibarətdir ki, 2022-ci ildə Azərbaycanın dünya ölkələri arasında 28-ci xarici ticarət tərəfdaşı olan Bolqarıstan bir il sonra bu göstərici üzrə 18-ci olub.

2024-cü ilin birinci rübündə isə qarşılıqlı ticarət təxminən dörd dəfə artaraq 153 milyon ABŞ dollarına çatıb. Hesabat dövründə Azərbaycan Bolqarıstana 146 milyon dollarlıq ixrac həyata keçirib. Beləliklə, bu ölkə Azərbaycanın "TOP10" ixrac bazarı sırasına daxil olub.

Məlum olduğu kimi, Azərbaycan hazırda "köhnə qitə" nin enerji təhlükəsizliyinin təminatına mühüm töhfələr verir. Bu səbəbdən də ölkəmiz Avropa məkanında etibarlı enerji müttəfiqi kimi tanınır. Bu da Azərbaycanın bir sıra Avropa ölkələri ilə münasibətlərini strateji müttəfiqlik səviyyəsinə yüksəldib. Hazırda Bolqarıstan da özünün xarici siyasətində Cənubi Qafqaz regionunda lider olan Azərbaycanla əməkdaşlığa xüsusi önəm verir. 2020-ci il dekabrın sonlarında Trans-Adriatik Boru Kəmərinin istifadəyə verilməsindən sonra Şərqi Avropanın bir sıra ölkələri kimi, Bolqarıstan da Azərbaycan qazının əsas alıcılarından birinə çevrilib. Azərbaycan təbii qazını Avropaya nəql edən Trans-Adriatik Boru Kəməri Balkan regionundan–Yunanıstan və Albaniyadan keçir. 2022-ci ildə Yunanıstan–Bolqarıstan birləşdirici qaz kəmərinin (interkonnektor) istifadəyə verilməsi "mavi yanacağ"ın bu ölkəyə nəqlinə imkan yaradıb. Avropa İttifaqı Statistika İdarəsinin (Avrostat) məlumatına görə, 2023-cü ildə Bolqarıstan Azərbaycandan rekord həcmdə – 311,5 milyon avro dəyərində 37,7 min teracoul təbii qaz idxal edib. Bu da 2022-ci illə müqayisədə 58 faiz çoxdur.

Göründüyü kimi, Azərbaycan qazı Bolqarıstanın enerji təhlükəsizliyi məsələlərinin həllində əhəmiyyətli rol oynayır. Bununla yanaşı, energetika sahəsində strateji tərəfdaşımız olan Bolqarıstan Cənub Qaz Dəhlizinin də fəal üzvüdür. Dost ölkə Bakıda keçirilən ənənəvi Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclaslarında, bir qayda olaraq, yüksək səviyyədə təmsil olunur.

Bütün bunlarla yanaşı, Azərbaycan Bolqarıstanla bütün sahələrdə əməkdaşlığın daha da dərinləşməsini və möhkəmlənməsini daim diqqətdə saxlayır. Bunun nəticəsidir ki, hazırda ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları və əczaçılığın inkişafı istiqamətində müxtəlif layihələr gerçəkləşdirilir.

Bolqarıstan Prezidentinin ölkəmizə növbəti səfəri çərçivəsində dövlət başçıları tərəfindən təkbətək və geniş tərkibdə keçirilən görüşlərdə müzakirə olunan məsələlər, eləcə də imzalanmış bir sıra vacib sənədlər, xüsusən də "Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında strateji tərəfdaşlığın gücləndirilməsi haqqında Birgə Bəyannamə" dost və müttəfiq ölkələr arasında bir çox sahələrdə əməkdaşlığın daha da möhkəmlənməsinə səbəb olacaq.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycan "yüksək insan inkişafı" dövlətinə çevrilib

**Müstəqillik illərində respublikamızın beynəlxalq aləmə inteqrasiyası, o cümlədən Birləşmiş Millətlər Təşkilatı (BMT) ilə əməkdaşlıq çərçivəsində birgə layihələrin həyata keçirilməsi ölkəmizin dünyada nüfuzunu artırıb, iqtisadi potensialını gücləndirib. Bütün bunlar isə əhalinin rifahının daha da yüksəlməsini şərtləndirib. Nəticədə Azərbaycan yoxsulluğun yarıya qədər azaldılması öhdəliyini götürən 128 ölkə arasında bu təşəbbüsü gerçəkləşdirən 18 ölkədən biri olub, "orta insan inkişafı" statusuna malik dövlətlər qrupundan çıxaraq "yüksək insan inkişafı" kateqoriyasında yer alıb.**



Respublikamız bütün bu uğurlara əsaslanaraq və BMT-nin Minilliyin Bəyannaməsinin davamı olaraq "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) qoşulub. Ötən illər ərzində DİM-in icrası ölkəmizdə uğurla davam etdirilib, bu istiqamətdə dünyada 10 ölkədən biri, regionda isə ilk ölkə olan Azərbaycan tərəfindən BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna 3 hesabat təqdim edilib, növbəti hesabatın isə bu il təqdim olunması nəzərdə tutulub.

Hazırda Minilliyin İnkişaf Məqsədlərinin uğurlu icrası nəticəsində Azərbaycanda yoxsulluq səviyyəsi 49 faizdən 5 faizə enib, İnsan İnkişafı İndeksində isə göstəriciləri 30 faiz artıb.

Bakıda "Azərbaycanın 4-cü Könüllü Milli Hesabatına dair maraqlı tərəflərlə məsləhətləşmələr və 5-ci DİM üzrə irəliləyiş" mövzusunda keçirilən 4-cü Dayanıqlı İnkişaf Məqsədləri (DİM) dialoqunda bu barədə ətraflı danışılıb. İndiki toplantının əsas məqsədinin maraqlı tərəflər, o cümlədən hökumət, BMT, özəl sektor, vətəndaş cəmiyyəti, beynəlxalq maliyyə institutları və inkişaf tərəfdaşları üçün bilikləri stimullaşdırmaq, beynəlxalq qabaqcıl təcrübələri təqdim etmək olduğu bildirilib. Həmçinin gerçəkləşdirilən dialoqun Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyinə əsaslanılaraq, Azərbaycanın 2030-cu il Strategiyası çərçivəsindəki milli prioritetlərin icrasında Azərbaycan Hökumətinə və Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasına praktiki dəstək vermək və innovativ həllərə şərait yaratmaq üçün platforma funksiyasını yerinə yetirmək məqsədi daşıdığı diqqətə çatdırılıb.

Tədbirdə 2022-ci ilin noyabr ayından indiyədək 3 DİM dialoqunun keçirildiyi vurğulanıb. Eyni zamanda Azərbaycanın dünyada baş verən gərgin siyasi proseslərə baxmayaraq sosial-iqtisadi inkişafını davam etdirə bildiyi və bu istiqamətdə bir sıra uğurlu layihələri həyata keçirdiyi, hazırda isə dövlətimiz tərəfindən reallaşdırılan sosial-iqtisadi, humanitar, ekologiya, yaşıl enerji ilə bağlı layihələrin BMT-nin DİM proqramına uyğunlaşdırıldığı xatırladılıb.

Yeri gəlmişkən, DİM-in toplantısında Azərbaycanın 30 il ərzində erməni işğalında qalan ərazilərinin azad edildiyi və 1 milyona yaxın qaçqının qayıtması üçün böyük quruculuq işlərinin həyata keçirildiyi və bu istiqamətdə reallaşdırılan bərpa-quruculuq layihələrinin DİM-ə uyğun şəkildə aparıldığı bildirilib. Bu fikrin təsdiqi olaraq vurğulanıb ki, qlobal proseslər nəzərə alınaraq azad edilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "ağıllı kənd" salınıb, bu regionun enerji təminatı əsasən, "yaşıl enerji" istehsalı hesabına ödənilib.

Bu məqamda xatırlatmaq yerinə düşər ki, Azərbaycanda müxtəlif dövlət qurumları tərəfindən irəli sürülərək həyata keçirilən 40 təşəbbüs DİM layihəsinə uyğunlaşdırılıb və beynəlxalq əhəmiyyət daşıması baxımından yüksək dəyərləndirilib. Bundan başqa 2022–2026-cı illər üzrə "Azərbaycan Respublikasının Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı"nda 4 əsas sahəyə ("yaşıl enerji", qida, infrastruktur və ekologiya) investisiya qoyulması nəzərdə tutulub.

Hazırda ölkəmizdə icrası diqqətdə saxlanılan layihələrdən biri "yaşıl iqtisadiyyat"ın inkişaf etdirilməsi ilə bağlıdır. Azərbaycanın regionda ilk dəfə BMT-nin forumuna təqdim etdiyi 3 könüllü milli hesabatda "yaşıl artım"a nail olunması ilə bağlı öhdəlik götürməsi də bu məqsədin prioritetliyindən irəli gəlir.

Azərbaycanın "yaşıl iqtisadiyyat"a önəm verməsi, eyni zamanda respublikamızın bununla əlaqədar Paris sazişinə qoşulması ilə bağlıdır. Yeri gəlmişkən, həmin sənədə əsasən, baza ili 1990-cı il olmaqla 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyasının 35 faiz azaldılması əsas məqsəd kimi qarşıya qoyulub və artıq bu öhdəlik 40 faizə çatdırılıb.

Qeyd edək ki, 2050-ci ilə qədər xalis "sıfır emissiya"ya çatmaq üçün 2030-cu ilə qədər bərpaolunan enerji, texnologiya və infrastruktura ildə 4–6 milyon ABŞ dolları vəsaitin cəlb edilməsi nəzərdə tutulub.

Dayanıqlı İnkişaf Məqsədləri sırasında təhlükəli tullantıların saxlanılması və utilizasiyası, o cümlədən neft qalıqlarının təmizlənməsi də xüsusi yer tutur. Təhlükəli tullantıların idarə edilməsi, təmizlənməsi və saxlanılması xidmətlərini reallaşdıran müəssisələrin tikintisi və istismarı, o cümlədən neft qalıqlarının təmizlənməsi, burada yığılmış neft məhsulunun qalıqlarının müvafiq neft qalıqları təchizatçısına qaytarılması, yaxud bərk tullantı yanacağa çevrilməsi imkanları var.

İqtisadiyyat Nazirliyi tərəfindən artıq bu istiqamətdə fəaliyyətə başlanılıb. Bununla bağlı BMT-nin İnkişaf Proqramının Azərbaycan ofisi inteqrə edilmiş maliyyə çərçivəsində müştərək proqramın icrasına üstünlük verib. Bu proqram çərçivəsində investisiyaların ekosistemə müsbət təsirinin tədqiqi məqsədilə hesabatlar hazırlanıb.

Azərbaycan Hökumətinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi layihələr "Yaşıl enerji" və "Yaşıl iqtisadiyyata keçid" prinsiplərinə uyğundur. Bununla yanaşı, 44 günlük Vətən müharibəsindən sonra düşməndən təmizlənən ərazilərimizdə genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir, soydaşlarımızın öz doğma torpaqlarına qayıdışı istiqamətində tədbirlər görülür. Həmin ərazilərə investisiyaların cəlb olunması çox vacib məsələlərdən biridir. Bu məsələnin də yer aldığı İnvestor Xəritəsinin və yaxud investisiya platformasının formalaşdırılmasının isə Azərbaycanda iqtisadi inkişafa öz mühüm töhfəsini verəcəyi gözlənilir.

Hesabatda infrastruktur sahələri üzrə investisiya imkanları üzrə təklif edilən digər sahə əsas ticarət marşrutları boyu ticarətlogistika mərkəzlərinin yaradılmasıdır. Məhsulların düzgün saxlanılmasını və bazarlara vaxtında, təhlükəsiz səkildə çatdırılmasını gerçəkləşdirmək üçün bir məntəqədə saxlamaq, nəqliyyat və tranzit-gömrük xidmətlərini təklif edən əsas quru və dəmir yolu ticarət marşrutları ilə bağlı logistika mərkəzlərinə investisiya qoyuluşunu həyata keçirmək mümkündür.

Qeyd edək ki, yuxarıda adıçəkilən Dövlət Proqramında vurğulanan qadın sahibkarların inkişafı üçün 800 layihəynin icrasına 50 milyon manatdan çox kredit verilib.

4-cü DİM dialoqunda qadın sahibkarların inkişafı ilə bağlı digər faktlar da diqqətə çatdırılıb. Bildirilib ki, 2012-ci ildən etibarən qadın sahibkarların sayında 4 dəfəyədək artım müşahidə olunub. Hazırda ümumi sahibkarlar arasında qadınların payı 22,7 faizə yüksəlib. 2020-ci ildə qadınların orta əməkhaqqı kişilərin orta əməkhaqqının 63,3 faizini təşkil edirdisə, 2021-ci ildə 64,8 faiz və 2022-ci ildə isə 67,1 faizini təşkil edib.

Bu gün Azərbaycan hökuməti prioritet hesab etdiyi 17 məqsəd, 88 hədəf və 119 göstərici üzrə dövlət proqramları, fəaliyyət planları, həmçinin strateji sənədlərin DİM-in məqsəd və hədəfləri ilə uzlaşdırması istiqamətində ardıcıl iş aparır.

Azərbaycanda hazırlanan inkişaf konsepsiya və strategiyaları, proqram və layihələr bir qayda olaraq BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ilə uyğunlaşdırılır. Bu da onu göstərir ki, Azərbaycan dövləti öz siyasətini qlobal çağırışlar və təmayüllər nəzərə alınmaqla qurur.

***Vaqif BAYRAMOV***
***XQ***

## 59 milyon manat "ƏDV geri al"

**Cari ilin yanvar–aprel ayları ərzində pərakəndə ticarət və ictimai iaşə obyektlərindən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), eləcə də səhiyyə müəssisələri, həmçinin özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən xidmətlərə görə ödənilmiş ƏDV-nin 59,2 milyon manatı fiziki şəxs olan istehlakçılara geri qaytarılıb.**




Dövlət Vergi Xidmətinin məlumatına görə, "ƏDV geri al" layihəsinin reallaşdırılması nəticəsində pərakəndə ticarət, ictimai iaşə və tibb xidmətləri sahələrində nağdsız ödəmələrin xüsusi çəkisi əhəmiyyətli şəkildə yüksəlib.

Bundan başqa, ölkə ərazisində bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin "ƏDV geri al" layihəsi çərçivəsində qaytarılan həcmi yanvar-aprel aylarında 6,5 milyon manat təşkil edib.

## Yeni nəsil nəzarət-kassa aparatları

**2024-cü ilin yanvar-aprel ayları ərzində Azərbaycanda yeni nəsil nəzarət-kassa aparatları vasitəsilə qeydə alınan dövriyyə 7,3 milyard manatdan artıq olub. Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11,1 faiz çoxdur.**



Bu barədə "XQ"yə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən məlumat verilib. Qeyd edilib ki, indiyədək ölkə ərazisində 97 min 735 ədəd yeni nəsil nəzarət-kassa aparatı quraşdırılıb.

## İxrac logistika subsidiyaları

**Azərbaycanda ixracatçılara logisitika subsidiyalarının verilməsinə 2024-cü ilin ikinci yarısında başlanacaq. Bu barədə İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayev məlumat verib. Hazırda ənənəvi bazarlarla bağlı təhlillər aparıldığını bildirən agentlik rəhbəri deyib ki, bəzi məhsullar üzrə subsidiyalaşma həyata keçiriləcək.**



Y.Abdullayev subsidiya məbləğinin hələ müəyyən olunmadığını qeyd edib. "Bu subsidiya Azərbaycanda bütün ixracatçılara şamil olunacaq və bu mexanizm ixracımızın yeni bazarlara genişləndirilməsinə dəstək olacaq", – deyə o əlavə edib.

Xatırladaq ki, logistika subsidiyasını, ümumilikdə, 5 il, işğaldan azad edilən ərazilərdə isə 10 il müddətinə tətbiqi gözlənilir.

## Əmək müqavilələri çoxalıb

**Azərbaycanda əmək müqavilələrinin sayı 2019-cu ilin əvvəli ilə müqayisədə 442,126 min vahid artaraq bu il mayın 1-nə 1 milyon 844 min 41-ə çatıb.**



İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin məlumatına görə, bu illər ərzində qeyri-neft sektorunun özəl bölməsində həmin göstərici 398 min 852 vahid artaraq 938 min 774 olub. Bildirilib ki, 5 ilə yaxın bir müddətdə həyata keçirilən təşviq əsaslı vergi siyasəti əmək bazarında əhəmiyyətli dəyişikliklərə səbəb olub. "Artım Dövlət Xidmətinin iş yerlərinin rəsmiləşdirilməsi, əməkhaqqı fondunun "ağardılması" və şəffaflılığın təmin edilməsi istiqamətində həyata keçirdiyi tədbirlərin nəticəsidir", – deyə məlumatda qeyd edilib.

## Laçında elektrik şəbəkəsi yenilənir

**Yaxın vaxtlarda Laçın rayonunun Minkənd yaşayış məntəqəsinin ərazisində 35 kilovoltluq yarımstansiyasının tikintisi nəzərdə tutulur.**

Bununla yanaşı, "Ağbulaq-SES" – "Minkənd" yarımstansiyalarını əlaqələndirən 35 kilovoltluq iki dövrəli SİP-3 xətti də çəkiləcək.

Bununla bağlı "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən tender elan olunub.

***XQ***

# Ulu öndər və insan haqlarının müdafiəsi





**Dünən Naxçıvanda Ulu öndərin anadan olmasının 101 illiyinə və muxtar respublikanın 100 illik yubileyinə həsr olunmuş “Blokada şəraitində hüquq təsisatlarının səmərəli fəaliyyəti və insan haqlarının müdafiəsi” mövzusunda konfrans keçirilib.**

Məclisin açılışında Naxçıvan MR-də Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, xalqımızın ümummilli lideri Heydər Əliyev siyasi fəaliyyətinin bütün dövrlərində qanunun aliliyinə strateji məsələ kimi yanaşıb, hüquq sistemində işlək və çevik mexanizmlər tətbiq olunub, ədalət mühakiməsinin səmərəliliyinə və insan hüquqlarının etibarlı təminatına nail olunub. O, müstəqillik dövründə Ulu öndərin rəhbərliyi ilə Azərbaycanda Konstitusiyamıza əsaslanan təkmil qanunvericilik bazasının formalaşdırıldığını, hüquq təsisatlarının səmərəli fəaliyyət göstərdiyini vurğulayıb.

Bildirilib ki, bu gün Prezident İlham Əliyev 100 illiyini qeyd etdiyimiz Naxçıvan MR-də də hüquq təsisatlarının səmərəli fəaliyyəti və insan haqlarının müdafiəsi işini diqqət mərkəzində saxlayır, ardıcıl islahatlar həyata keçirilir. Aparılan kadr islahatları muxtar respublikada hüquq təsisatlarının səmərəli fəaliyyəti və insan haqlarının müdafiəsi işində yeni mərhələnin əsasını qoyub.

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının sədri Anar Bağırov qeyd edib ki, Ulu öndərin xalqın qətiyyətli təkidi ilə yenidən Azərbaycan rəhbərliyinə qayıdışı nəticəsində müstəqillik, ədalətlilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi ümumbəşəri dəyərləri təşkil edən yeni bir ideologiyanın əsasının qoyulub, ölkəmizdə insan hüquq və azadlıqlarının təmini, onların inkişafı və müdafiəsi sahəsində tarixi addımlar atılıb.

Konfransda III "Yüksəliş" müsabiqəsinin qalibi İbrahim Məmmədzadə “Naxçıvanın inkişaf potensialı” mövzusunda təqdimatla çıxış edib.

Naxçıvan MR Ali Məhkəməsinin sədri Səadət Bəktaşi, muxtar respublika prokuroru Sənan Paşayev, MR ədliyyə naziri vəzifələrini icra edən Hüseyn Səfərov mummilli lider Heydər Əliyevin həyata keçirdiyi hüquqi islahatların ölkədə insan haqlarının müdafiəsi sahəsində yeni demokratik əsaslar yaratdığını söyləyiblər.

“Elektron vəkillik" Komitəsinin sədri Nihad Əliyev “Elektron vəkil orderi” və elektron müqavilələrin izahlı təqdimatını edib. Komitənin üzvü İlham Hüseynov isə elektron vəkil sorğusuna digər qurumların inteqrasiyası və qanunvericilikdəki dəyişikliklə bağlı məlumat verib. Həmçinin “Pro Bono ChatBot” süni intellektin təqdimatı olub.

Konfransda bir qrup vəkilliyə namizədin andiçmə mərasimi keçirilib.

**XQ**

**Naxçıvan**

# Naxçıvan Ali Məclisində hökumətin hesabatı dinlənilib



**Mayın 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yaz sessiyasının növbəti plenar iclasında Muxtar Respublika Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabat dinlənilib.**

Ali Məclisin sədr müavini Anar İbrahimov qeyd edib ki, Nazirlər Kabinetinin hesabatı komitələrdə müzakirə edildikdən sonra parlamentin müzakirəsinə tövsiyə olunub.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatı təqdim edib.

Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli, Humanitar siyasət komitəsinin sədri Elman Cəfərli, Sosial siyasət komitəsinin sədri Yeganə Məmmədova və İqtisadi siyasət komitəsinin sədri İsa İsayev təmsil etdikləri komitələrin rəylərini diqqətə çatdırıblar.

Deputatlardan Fərəc Fərəcov, Ehtimad Məmmədov, Vüqar Abbasov, Aidə Allahverdiyeva, Arif Qasımov və Nüsrət Həsənov hesabatla bağlı təklif və tövsiyələrini bildiriblər. Deputatlar seçicilərin qaldırdıqları məsələləri də hökumət üzvlərinin diqqətinə çatdırıblar.

Ali Məclisin sədr müavini Anar İbrahimov bildirib ki, hökumətin hesabatının dinlənilməsi yeni prosedur kimi muxtar respublika üçün faydalı olacaq. O, Ali Məclis adından Muxtar Respublika Nazirlər Kabinetinə qarşıdakı dövrdə fəaliyyətində uğurlar arzulayıb.

**XQ**

# Sülh Ermənistanın xilas qapısıdır

**Fransanın “Le Figaro" qəzetində mayın 10-da Qazaxıstanın Almatı şəhərində keçiriləcək Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü ərəfəsində Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması və bu prosesdə beynəlxalq vasitəçilikdən imtina mövzusuna dair geniş məqalə dərc olunub.**

Beynəlxalq münasibətlər üzrə ekspert Sebastyan Bussuanın müəllifi olduğu məqalədə iki ölkənin xarici işlər nazirlərinin Almatıdakı görüşünün ciddi geosiyasi irəliləyiş olacağı bildirilib. Onun fikrincə, iki ölkənin ilin sonuna qədər sübut edə bilərlər ki, nəinki Birləşmiş Millətlər Təşkilatı sülhə gətirib çıxarmaq üçün çox köhnəlib, həm də beynəlxalq vasitəçilik tendensiyası da uzaq keçmişdə qalıb.

“Həqiqətən də Cənubi Qafqaz artıq dörd ildir ki, yekun razılığa gəlməyə çalışır. Lakin ABŞ, Rusiya və Avropa İttifaqının cəhdləri heç nəyə gətirib çıxarmadı. Artıq bir neçə aydır ki, nazirlərin rəhbərlik etdiyi İrəvan və Bakıdan olan iki danışıqçı nümayəndə heyəti müntəzəm olaraq həll edilməli olan, iki ölkə arasında son razılaşmaya gətirib çıxaracaq və otuz ildən çox davam edən münaqişəyə son qoyacaq bütün digər müddəaları müzakirə edir. Bu həftənin cümə günü Qazaxıstanın paytaxtı Almatıda yeni ikitərəfli görüş keçiriləcək. Ev sahibliyi edən ölkə heç bir vasitəçi rol oynamayacaq, lakin bu yer böyük simvolik əhəmiyyətə malikdir: SSRİ-nin dağılması anını simvolizə edən Almatı Bəyannaməsi burada imzalanmaqla, nəhəng Sovet İttifaqının mövcudluğuna son qoyuldu. İndi burada yenidən tarix yazıla bilər”, - deyə məqalədə vurğulanıb.

Yazıda Azərbaycan tərəfdən sülh sazişi üzrə danışıqların iştirakçısı kimi məsələyə aydınlıq gətirilərək qeyd olunub ki, Prezident Əliyev kimi Nikol Paşinyan da sazişin yaxın gələcəkdə imzalanacağına ümid edir. Elçin Əmirbəyovun sözlərinə görə, hər iki ölkədə bu kontekstdə hətta müəyyən həvəs hiss olunur və ümid var ki, sonda bu problemə son qoyulacaq.

“Erməni diasporu, erməni kilsəsi və siyasi opponentləri indi ona (Nikol Paşinyana – red.) qarşı birləşsələr də, o, artıq bir şeyi başa düşüb: sülh onun ölkəsinə çox uzun müddət qaldığı siyasi və iqtisadi baxımdan çıxılmaz vəziyyətdən mümkün qədər tez çıxmağa imkan verəcək”, - deyə Prezidentin xüsusi tapşırıqlar üzrə nümayəndəsi əlavə edib.

Müəllif fikirlərini yekunlaşdıraraq yazıb ki, Nikol Paşinyan mütəmadi olaraq regional iqtisadi inteqrasiyanın vacibliyindən bəhs edir. Lakin bu məsələ yalnız, insanların və malların sərbəst hərəkətinə də imkan yaranması üçün, onun ölkəsi Türkiyə və Azərbaycanla sərhəd mübahisələrini həll etdikdən sonra mümkün olacaq.

“İki ölkə arasında münasibətlərin normallaşdırılması üçün əsaslı ümidin, nəhayət ki, ortaya çıxması üçün vaxt lazım oldu və sözügedən vasitəçilərin səbəb olduğu bir çox reallaşmamış gözləntilər meydana çıxdı. Əslində, Ermənistanın artıq başqa seçimi yoxdur: ölkə mümkün qədər tez bir zamanda regional dinamikaya reinteqrasiya etməlidir. Nikol Paşinyan, öz ölkəsini logistik mərkəzə çevirmək istəyir və onu dəstəkləyən ermənilərə məhz bu perspektivi təqdim edir, çünki öz missiyasını sona qədər yerinə yetirə biləcəyinə ümid bəsləyir. Zəngəzur dəhlizi məsələsinin həlli, Azərbaycan üçün həm onun öz bölgəsi olan Naxçıvana birbaşa çıxışı bərpa edəcək, həm də qonşuları ilə ticarət əlaqələri qurmaq istəyən Ermənistana faydalı olacaq. Hər iki tərəf noyabrda Bakıda keçiriləcək COP29 sammitinə (BMT-nin İqlim Dəyişmələri haqqında Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - red.) qədər sülh sazişinin imzalanacağına ümid edir. Əgər bu gerçəkləşərsə, çox simvolik hadisə ola bilər!”, - deyə müəllif S.Bussua bildirib.

# Gürcüstan DİN-nin aksiya xəbərdarlığı

**Gürcüstanın Daxili İşlər Nazirliyi ölkədə aksiya keçirmək istəyən insanlara sərt xəbərdarlıq edib. Bildirilir ki, polis qüvvələri mitinq iştirakçılarının zorakılıq hərəkətlərinin qarşısını qanun çərçivəsində alacaq. Bu zaman, Amerikanın və Avropanın qabaqcıl ölkələrində tətbiq edilən analoji sərt tədbirlər tətbiq olunacaq.**

Bu barədə Gürcüstan DİN-də keçirilən brifinqdə Mərkəzi Kriminal Polis Departamentinin rəisi Teymuraz Kupatadze məlumat verib.

O, Avropanın qabaqcıl ölkələrində və ABŞ-da polisin toplantılar və nümayişlər zamanı izdihamı idarə etmək və lazım gəldikdə qanunla müəyyən edilmiş xüsusi vasitələrdən istifadə etmək üçün tətbiq etdiyi tədbirlər haqqında ictimaiyyətə məlumat verib.

Bildirib ki, Gürcüstan polisi toplantı və nümayişlər zamanı həmişə beynəlxalq standartlara uyğun hərəkət edir. “Mitinqin bütün iştirakçılarını və təşkilatçılarını xəbərdar edirik ki, polis mitinq iştirakçılarının zorakılıq hərəkətlərinin qarşısını qanuna uyğun almağa başlayacağı bir vaxtda, Amerika və Avropanın qabaqcıl ölkələrində qəbul edilən tədbirlər kimi sərt tədbirlər tətbiq olunacaq” – deyə, Teymuraz Kupatadze vurğulayıb.

**XQ**



# Ankarada qardaş ölkələrin biznes forumu

**Mayın 8-də Ankara şəhərində Azərbaycan-Türkiyə biznes forumu keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov və Türkiyə Respublikasının Vitse-prezidenti Cevdet Yılmaz biznes forumun açılışında iştirak ediblər.

Əli Əsədov və Cevdet Yılmaz açılış mərasimində çıxış ediblər.

Tədbirdə Azərbaycanda və Türkiyədə mövcud olan biznes və investisiya mühiti barədə məlumat verilib, iki ölkənin hökumətlərinin bundan sonra da biznes dairələri arasında dialoqun təşviqinə dəstək vermək əzmində olduqları bildirilib.

Biznes forum çərçivəsində Azərbaycan və Türkiyənin iş adamları arasında ikitərəfli görüşlər keçirilib.

**XQ**

# Bakıda Azərbaycan–Bolqarıstan işgüzar müzakirəsi



**İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan-Bolqarıstan biznes forumu keçirilib.**

Forumda Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Bolqarıstanın energetika naziri Vladimir Manilov iştirak ediblər.

Forumun açılışında çıxış edən M.Cabbarov Azərbaycan ilə Bolqarıstanın əməkdaşlıq əlaqələrindən danışıb. Qeyd edib ki, iki ölkə arasındakı münasibətlərin əsasında yalnız neft-qaz sahəsindəki əməkdaşlıq əlaqələri dayanmır: “Bolqarıstan Azərbaycandan təbii qaz idxal edir. Lakin bununla yanaşı qeyri-neft sektorunda da əməkdaşlıq etmək üçün böyük potensial var. Bolqarıstanın iş adamları Azərbaycana sərmayə yatırıb biznes qura bilərlər. Bu gün keçirilən biznes forumunun da məqsədi hər iki ölkənin iş adamları və biznes strukturları arasında əlaqələrin yaradılmasından ibarətdir”.

Bolqarıstanın energetika naziri Vladimir Manilov bildirib ki, Bolqarıstan ilə Azərbaycan arasındakı qarşılıqlı əlaqələr artıq strateji xarakter daşıyır: “Hər iki dövlətin başçısı siyasi iradə ortaya qoyaraq bütün sahələr üzrə yaxın əməkdaşlıq əlaqələrinin qurulması niyyətində olduğunu bildiriblər. Azərbaycan biznesinin Bolqarıstanın iqtisadiyyatında iştirak etməsi üçün heç bir məhdudiyyət yoxdur. Hər iki ölkədə fəaliyyət göstərən şirkətlərin nümayəndələrinin B2B formatında keçiriləcək görüşündə qarşılıqlı əlaqələrin qurulacağı şübhəsizdir. Cari ilin iyul ayında Azərbaycan-Bolqarıstan Hökumətlərarası Komissiyanın iclası keçiriləcək. İclasda nəqliyyat, tranzit, Azərbaycanda istehsal olunan yaşıl enerjinin Avropaya tədarükü və digər aktual məsələlər müzakirə olunacaq”.

Sonra Bolqarıstan-Azərbaycan Ticarət və Sənaye Palatasının sədri Dimitri Bratanov, AZPROMO-nun icraçı direktorunun müavini Zöhrab Qədirov, iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov çıxış edərək Azərbaycandakı biznes mühiti, şirkətlərin fəaliyyəti, sərmayə yatırımı haqqında qanunvericilik barədə məlumat veriblər.

Forumda rəsmi şəxslərlə yanaşı, sənaye, nəqliyyat, logistika, kənd təsərrüfatı, İKT, neft-qaz, inşaat, mühəndislik xidmətləri, mebel, sığorta, konsaltinq, ticarət və digər sahələrdə fəaliyyət göstərən şirkətlərin nümayəndələri də iştirak edərək qarşılıqlı əməkdaşlıq və sərmayə yatırımı barəsində müzakirələr aparıblar.

**XQ**

# Ölkəmizin İsraillə əməkdaşlığı müzakirə edilib



**Mayın 8-də xarici işlər naziri Ceyhun Bayramov ilə İsrail Dövlətinin Xarici İşlər Nazirliyinin siyasi direktoru Aliza Bin Nun arasında görüş keçirilib.**

Görüş zamanı, ikitərəfli və çoxtərəfli münasibətlərin müxtəlif aspektləri, o cümlədən iki ölkə arasında iqtisadi, təhlükəsizlik, yüksək texnologiyalar və sair istiqamətlərdə əməkdaşlığın cari vəziyyəti və perspektivləri barədə müzakirə aparılıb.

Ceyhun Bayramov qarşı tərəfi postmünaqişə dövründə regionda mövcud vəziyyət barədə ətraflı məlumatlandırıb.

Görüş çərçivəsində, həmçinin geniş narahatlıq doğuran beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

İsrail nümayəndə heyətinin Azərbaycana səfəri çərçivəsində iki ölkənin Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti iclası keçirilib. Məsləhətləşmələrdə Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Fariz Rzayev, İsrail nümayəndə heyətinə isə Xarici İşlər Nazirliyinin siyasi direktoru Aliza Bin Nun rəhbərlik edib.

**XQ**

# Heydər Əliyev və elmi potensialın inkişafı



**Dünən Azərbaycan Dövlət Pedaqoji Universitetində "Heydər Əliyev və elmi potensialın inkişaf dinamikası" mövzusunda respublika elmi konfransı keçirilib.**

Məclisdə çıxış edən ADPU-nun rektoru professor Cəfər Cəfərov ölkəmizdə elmi potensialın inkişafının müstəqil Azərbaycanın memarı və qurucusu ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu vurğulayıb. O bildirib ki, Ulu öndərin sovet dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə minlərlə azərbaycanlı gənc SSRİ-nin nüfuzlu ali məktəblərinə təhsil almağa göndərildi, ölkədə ümumi və ali təhsilin əhatə dairəsi genişləndirildi, fundamental elmi tədqiqatların həyata keçirilməsinə başlanıldı. Bu çoxşaxəli siyasəti Ümummilli liderin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev uğurla davam etdirir. Ölkəmizdə elm və təhsil sahəsində davamlı islahatlar və yeniliklər həyata keçirilir.

Sonra mövzu ətrafında məruzələr dinlənilib. Milli Məclisin deputatı, Bakı Dövlət Universitetinin kafedra müdiri professor Anar İsgəndərov "Tarix yaradan və tarixi yazan dahi", "İki sahil" qəzetinin baş redaktoru professor Vüqar Rəhimzadə "Heydər Əliyev və Azərbaycan mətbuatı", ADPU-nun prorektoru professor Asəf Zamanov isə "Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzularında məruzə ediblər. ADPU-nun ədəbiyyat kafedrasının müdiri dosent Razim Məmmədov dahi şəxsiyyətin ziyalılara göstərdiyi qayğıdan söz açıb.

Sonda ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş "İlin gənc alimi və tədqiqatçısı" müsabiqəsinin qaliblərinə diplom və mükafatlar təqdim olunub.

**T.RÜSTƏMLİ**
**XQ**

# Azərbaycanın COP29 hazırlığı Almaniya qəzetində

**Almaniyanın "Die Zeit" qəzetində Azərbaycana həsr edilmiş "Onlar indi iqlim barədə danışırlar" sərlövhəli məqalə dərc olunub.**

Məqalədə Ermənistanla münaqişə başa çatdıqdan sonra Azərbaycanın sülhün əldə olunması istiqamətində səyləri, Avropanın enerji təminatı, yaşıl enerji və iqlimin mühafizəsi, COP29-a hazırlıq, eləcə Avropa və Asiya arasında mühüm nəqliyyat dəhlizi kimi oynadığı rol, eləcə də digər mühüm mövzulara geniş diqqət ayrılıb.

Məqalənin müəllifi ölkəmizə səfəri zamanı Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov və digər rəsmi şəxslərlə görüşlərindən bəhs edib, Bakıda və Ələtdə gördüyü inkişaf prosesini qələmə alıb. Məqalədə Elçin Əmirbəyovun Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesinə dair açıqlamalarına geniş diqqət ayrılıb. Azərbaycan rəsmisi qeyd edib ki, Qərbi Avropada Azərbaycanla bağlı erməni baxış bucağından yanaşma geniş yayılıb. Lakin o, fərqli baxış bucaqlarının bir araya gətirilməsinin mümkün nümunəsini təqdim edib. Belə ki, COP29 İqlim Konfransı ilə bağlı əldə olunmuş razılaşma, əsirlərin qarşılıqlı şəkildə dəyişdirilməsi etimad yaradan tədbirlərin nəticəsi idi və bu addımların gələcəkdə də mümkünlüyünü nümayiş etdirdi.

Məqalədə diqqətə çatdırılıb ki, Azərbaycan artıq Ermənistanla köhnə münaqişənin dar prizmasından görünmək istəmir. Ölkə xəritədəki mövqeyi, enerji resursları, onların istehsalı və nəqli üçün mühüm məkana çevrilib. Eyni zamanda, COP29 çərçivəsində planetimizdə iqlimin qorunması üçün beynəlxalq müzakirələr Bakıda keçiriləcək


Sie reden jetzt übers Klima

və bununla əlaqədar Azərbaycan Prezidenti İlham Əliyev aprelin sonunda Berlində hazırlıq konfransında iştirak edib, burada federal kansler və federal prezidentlə də görüşüb.

Müəllif Bakıda keçirilən enerji mövzusunda beynəlxalq tədbirə də diqqəti yönəldib və Almaniyanın bu tədbirdə 40 nəfərlik nümayəndə heyəti ilə iştirakını ölkəsinin Azərbaycana marağının göstəricisi kimi təqdim edib. Həmin tədbirə qatılan Avropa İttifaqının energetika məsələləri üzrə komissarı Kadri Simsonun Azərbaycanın enerji daşıyıcıları sahəsində böyük potensiala malik olması, Avropa qaz bazarının şaxələnməyə ehtiyac duyması barədə fikirləri diqqətə çatdırılıb. Azərbaycanın Avropa İttifaqının şaxələndirmə strategiyasında yer aldığı, ənənəvi enerji daşıyıcıları ilə yanaşı, gələcəkdə bərpaolunan enerjinin də Avropaya nəqlinin nəzərdə tutulduğu vurğulanıb.

Məqalənin yekununda Elçin Əmirbəyovun Ermənistanla münasibətlər və Zəngəzur dəhlizi ilə bağlı fikirlərinə yer ayrılıb. Azərbaycan rəsmisi Ermənistan tərəfindən beynəlxalq ictimaiyyətə təlqin olunan fikirləri qətiyyətlə rədd edərək bildirib ki, Azərbaycan Naxçıvanla dəhlizin qurulmasına hərbi güc yolu ilə nail olmaq niyyətində deyil. Çünki Azərbaycan heç zaman tarixin yanlış səhifələrində yer almaq istəmir, heç bir ölkənin ərazisində gözü yoxdur və əsas hədəfi Azərbaycanın beynəlxalq hüquqla tanınan ərazilərinin azad edilməsi idi. Azərbaycanın qeyri-legitim olaraq ərazi iddiaları ilə əlaqəsi yoxdur və beynəlxalq ictimaiyyət də bunu qəbul etməz. Ermənistanın öz maraqlarına xidmət edən, ölkəni təcriddən qurtaran, qonşu ölkələrlə əlaqələrini normallaşdıran və tranzitdən qazanc vəd edən bu dəhlizdən imtina etməsi, ilk növbədə, ona zərər vurur, çünki Ermənistan razı olmadığı təqdirdə həmin yol bir qədər cənubdan – İran ərazisindən çəkiləcək.

Məqalənin sonunda hazırda Azərbaycan ilə Ermənistan arasında mübahisəli sərhəd ərazilərinin demarkasiyası və demilitarizasiyası üzərində iş aparıldığı qeyd edilib. Bildirilib ki, tərəflər arasında fərqli yanaşmalar qalsa da, bunlar daha bir-birini tam şəkildə istisna etmir və mayın ortalarında müvafiq protokolun imzalanması gözlənilir.

# Sloveniyada Mehdi Hüseynzadənin xatirəsi anılıb

**Sloveniyanın Nova Qoritsa şəhərində Azərbaycan xalqının igid oğlu, əfsanəvi qəhrəman Mehdi Hüseynzadənin – Mixaylonun xatirəsinə həsr olunmuş tədbir keçirilib.**



Tədbir iştirakçıları Mehdi Hüseynzadənin abidəsinin və xatirə muzeyinin yerləşdiyi Nova Qoritsanın Şempas qəsəbəsinə baş çəkib, Azərbaycanın qəhrəman oğlunun şərəfinə ucaldılmış abidə önünə əklillər qoyub, Mixaylonun xatirəsinə yaradılmış muzeylə tanış olublar. Muzeydəki o dövrə aid fotolar, Mehdi Hüseynzadənin döyüş yoldaşlarının təqdim etdikləri qiymətli eksponatlar tədbir iştirakçılarında qəhrəmanın həyatı və keçdiyi döyüş yolu haqqında dolğun təəssürat yaradıb.

Azərbaycanın və Sloveniyanın Dövlət himnləri səsləndirildikdən sonra, ölkəmizin Sloveniyadakı səfiri Rövşən Sadıqbəyli, Milli Məclisdə Azərbaycan-Sloveniya parlamentlərarası əlaqələr üzrə işçi qrupun rəhbəri, deputat Ağalar Vəliyev, Sloveniya Milli Assambleyasında Azərbaycanla parlamentlərarası dostluq qrupunun sədri Boyan Çebela, Sloveniya-Azərbaycan Dostluq Cəmiyyətinin prezidenti Andrey Kompara, Nova Qoritsa şəhərinin merinin müavini Marko Tribuşon çıxış ediblər.

Nümayəndə heyətimiz tərəfindən səsləndirilmiş çıxışlar zamanı Mixaylonun xatirəsini əziz tutduğuna görə Sloveniya dövlətinə və xalqına Azərbaycan hökuməti və xalqı adından təşəkkür ifadə edilib.

Tədbir iştirakçılarına Prezident İlham Əliyevin tapşırığı ilə 2007-ci ildə əfsanəvi kəşfiyyatçının bu kənddə abidəsinin, daha sonra isə 2011-ci ildə onun xatirəsinə həsr olunmuş muzeyin yaradılmasının qısa tarixçəsi təqdim olunub.

## DOST-un 5 yaşı tamam olur

# DOST Azərbaycanın yeni sosial brendidir

## Bu mərkəzlərdə ötən dövrdə 2,6 milyon vətəndaşa xidmət göstərilib

**Azərbaycanın sosial dövlət statusu dinamik iqtisadi tərəqqi tempinə malik ölkəmizdə, eyni zamanda, sosial inkişaf proseslərinin davamlı xarakter almasında, əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımların atılmasında, sosial proqramların genişləndirilməsi və yeni sosial layihələrin işə salınmasında özünü aydın şəkildə göstərir. Ölkə rəhbərinin bəyan etdiyi kimi, "Azərbaycan sosial dövlətdir və biz bunu sözlə deyil, əməlimizlə təsdiq edirik".**

Prezidenti İlham Əliyevin "Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2018-ci il avqustun 9-da imzaladığı fərmanla isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi – DOST Agentliyi və uyğun sahələrdə xidmətlərin həyata keçirilməsini təmin edən DOST mərkəzləri yaradılıb.

DOST modelinə keçilməsi sosial sahədə köklü islahat tədbiri, aparılan sosial islahatlar proqramının ən mühüm nailiyyətlərindən biridir. Bu mərkəzlər Azərbaycanın yeni sosial brendinə çevrilib. 5 il əvvəl, 2019-cu ilin mayın 9-da isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə DOST Agentliyi və ilk DOST mərkəzinin acılışı olub. Birinci xanımın təşəbbüsü olan DOST konsepsiyası 15 istiqamət üzrə 159 sosial xidmətin vahid platformadan, "bir pəncərə"dən, tam şəffaf və operativ, vətəndaş rahatlığı, nəzakətlilik prinsipi, sadə prosedurlar əsasında təqdim olunmasına imkan yaradıb.





Dövlət başçısı DOST konsepsiyasını yüksək qiymətləndirərək deyib: "Bizim siyasətimiz demək olar ki, DOST mərkəzlərində öz əksini tapır – islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni, bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək". DOST Agentliyi və ilk DOST mərkəzinin açılışı ölkəmizdə dövlət sosial xidmətlərinin göstərilməsi sahəsində ciddi irəliləyişi, əsaslı keyfiyyət dəyişikliklərini özündə ehtiva edən yeni inkişaf mərhələsinə keçilməsini təmin etməklə, ölkə Prezidentinin uğurlu sosial siyasətinin vətəndaş rifahı və məmnunluğunu təminatına xidmət etməsinin növbəti mühüm təzahürü olub.

Bakı şəhəri, Abşeron və Bərdə rayonlarında olmaqla artıq 7 DOST mərkəzi açılıb. İşğaldan azad edilmiş bölgələrimizdə isə DOST xidmətlərinin qurulması istiqamətində ilk addım kimi 2022-ci ilin may ayında Zəngilanın Ağalı kəndində ilk "Smart DOST" xidmət məntəqəsi istifadəyə verilib. Ötən dövrdə DOST mərkəzlərində artıq 2,6 milyon vətəndaşa, o cümlədən bu ilin yanvar–aprel aylarında 259 min vətəndaşa xidmət göstərilib. DOST xidmətlərindən vətəndaş məmnunluğu 98,2 faizdir.

Sosial xidmətlər sahəsində mühüm nailiyyət olan DOST infrastrukturunun ölkə boyu genişləndirilməsi işləri də davamlı xarakter alıb. Bu mərkəzlərin sayı getdikcə artır. Növbəti mərkəz olaraq 2023-cü il avqustun 7-də Prezident İlham Əliyevin iştirakı ilə Bərdədə Qarabağ Regional DOST Mərkəzinin də açılışı olub. Qarabağ Regional DOST Mərkəzi 9 inzibati rayonu əhatə edir ki, onların sırasında işğaldan azad edilmiş rayonlarımız da var.

Ölkə üzrə ümumilikdə 17 yeni Regional DOST Mərkəzinin yaradılması üçün hazırlıq aparılır. Regional DOST Mərkəzlərinin ətraf rayon və şəhərlər üzrə filialları da qurulur. Ətraf rayonlar üzrə daha 55 DOST filialının olması, beləliklə, bütün ölkənin DOST xidmətləri ilə əhatə olunması nəzərdə tutulub. Hazırda Naxçıvan, Şuşa, Quba, Sabirabad, Sumqayıt, Gəncə və Masallıda DOST xidmətləri infrastrukturunun qurulması üçün layihə, təmir-tikinti işləri aparılır.

DOST konsepsiyası beynəlxalq səviyyədə yüksək qiymət alaraq mütərəqqi təcrübə kimi dünyanın sosial innovasiyalar sahəsində mühüm nailiyyətləri sırasına daxil edilib. DOST Agentliyi ötən dövrdə 30-dan çox beynəlxalq təltifə layiq görülüb. Bu mükafatların sırasında Avropa Sosial Şəbəkəsinin, Beynəlxalq Sosial Təminat Assosiasiyasının, Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyasının və digər təşkilatların sertifikatları var.



"Aİ Biznes Mühiti Hesabatı 2021"-də DOST mərkəzləri Azərbaycanın 3 təkmil islahatından biri kimi qiymətləndirilib. "Bir pəncərə" prinsipi üzrə təşkil olunmuş DOST modeli BMT tərəfindən "İnnovativ ictimai xidmət həlləri" ("Innovative public service solutions") statusunda tanınıb. Agentlik dünyada məşhur olan LRQA sertifikatlaşdırma (Böyük Britaniya) təşkilatının 4 istiqamət üzrə ISO sertifikatlarına layiq görülüb.Azərbaycana gələn xarici nümayəndə heyətlərini tez-tez DOST mərkəzlərində, ölkəmizin bu innovativ nailiyyəti ilə yaxından tanış olduqlarını görürük. Hazırda bir çox dövlətlər, o cümlədən Avropa ölkələri də DOST təcrübəsini öyrənərək onu tətbiq etməyə maraq göstərirlər. Bu sahədə həmin ölkələrlə təcrübə mübadiləsi aparılır.

DOST Konsepsiyasının mühüm nailiyyətlərindən biri də ölkəmizdə könüllülük hərəkatının genişlənməsində mühüm rola malik olması ilə seçilən "Könüllü DOST" proqramıdır. Bu günlərdə 5 yaşı tamam olan "Könüllü DOST" proqramına maraq daim artır. Gənclərlə yanaşı, "Gümüşü DOST" altproqramı ilə yaşlı insanları da əhatə edən "Könüllü DOST" proqramına ötən dövrdə 112 min 500-dən çox müraciət olub, 4 min 800-dən çox insan proqrama cəlb edilib. Onların böyük əksəriyyəti "Gənc DOST" altproqramı üzrə könüllülük fəaliyyətinə cəlb edilən gənclərdir. Ümumilikdə, "Könüllü DOST" proqramının "Gənc DOST", "Gümüşü DOST", "Distant DOST", "Korporativ DOST", "İnklüziv DOST" kimi altproqramları fəaliyyət göstərir.

DOST könüllüləri DOST mərkəzlərində vətəndaşların qarşılanması, xidmət pəncərələrinə yönləndirilməsi, habelə insan axınının idarə edilməsi və məlumatlandırılması və s. işlərdə köməklik göstərir. Könüllülük fəaliyyəti, eyni zamanda, onların xidmət sahəsində təcrübə, işgüzar vərdişlər qazanmalarına, fərdi inkişaf və karyera yolunda ilk uğurlu addımlar atmalarına imkan yaradır. "Könüllü DOST" proqramı məzunlarından artıq bir qismi agentliyin və DOST mərkəzlərinin əməkdaşları kimi fəaliyyət göstərir.

Xatırladaq ki, beynəlxalq səviyyədə də "Könüllü DOST" proqramı yüksək qiymətləndirilir. Ötən dövrdə bu layihə Beynəlxalq Sosial Təminat Assosiasiyasının xüsusi mükafatlarına layiq görülüb. Proqram "Global HR Summit 2023" beynəlxalq müsabiqəsinin də "Ən yaxşı Korporativ Sosial Məsuliyyət Strategiyası" kateqoriyası üzrə qalibi olub.

Beləliklə, 5 il əvvəl dövlət sosial xidmətlərinin DOST modeli üzərində göstərilməsinə başlandı. Hər kəsi əsl DOST münasibəti ilə qarşılayaraq dostcasına xidmətlər göstərən DOST mərkəzləri bu gün əhalinin böyük inam və etimad ünvanıdır.

***Zərifə HÜSEYNOVA***
***XQ***

Faşizm üzərində qələbədən 79 il ötür

# Qəhvəyi tauna vurulan Azərbaycanın zərbəsi

**Ötən əsrdə bəşəriyyətin dəhşətli sınaqlara çəkilməsi ilə xarakterizə edilən dövrlərdən biri də İkinci Dünya müharibəsi illəri olub. Həmin müharibədə Azərbaycanın da daxil olduğu SSRİ əsas təcavüz olunan tərəf kimi faşizmin sərt üzü ilə qarşılaşıb. Nəhayət, 1945-ci il mayın 9-da alman generalı Vilhelm Keytel qeyd-şərtsiz təslim aktını imzalayıb. Bundan bir neçə ay sonra bütövlükdə İkinci Dünya müharibəsi sona yetib və faşizm üzərində qələbə rəsmiləşib. Artıq 79 ildir ki, sülhpərvər bəşəriyyət 9 mayı Qələbə günü kimi qeyd edir.**



İkinci Dünya müharibəsində Azərbaycan xalqı həm ön, həm də arxa cəbhədə böyük qəhrəmanlıq və şücaət nümunəsi göstərib. Qısa müddətdə respublikada 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi yaradılmışdı. Azərbaycanın 650 min igid oğlu və qızı cəbhəyə yollanmışdı. Milli diviziyalar Qafqazdan Berlinə qədər şərəfli döyüş yolu keçib. Həmvətənlərimizin yarısı igidliklə həlak olub, 130 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 30 nəfəri "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilib, 170 min əsgər və zabit müxtəlif orden və medallara layiq görülüb.

Respublika iqtisadiyyatı cəbhəyə xidmət istiqamətinə yönəldilmişdi. Az vaxtda Bakı döyüşən ordu üçün silah-sursat cəbbəxanasına çevrilmişdi. Neftçilərimiz fədakarlıq göstərir, cəbhəni və sənayeni yanacaqla təmin edirdilər. Akademik Yusif Məmmədəliyevin rəhbərliyi altında aviasiya benzini alınmasının yeni texnologiyası yaradılmışdı. İnamla demək olar ki, Bakı nefti faşizm üzərində qələbənin əsas amillərindən biri olub: döyüşə gedən hər 10 tankın və hər 10 təyyarənin 7-si bizim benzinimizlə işləyib.

Azərbaycan İkinci Dünya müharibəsinin döyüş meydanlarından olmasa da, istər müttəfiqlərin, istərsə də "ox ölkələri"nin baş qərargahlarındakı müzakirələrdə və məxfi sənədlərdə Bakının də adı Stalinqrad, Berlin, London və Paris qədər tez-tez çəkilib. O dövrün hərbi xronikasına baxanlar SSRİ şəklində hazırlanmış ad günü tortunun "Bakı" hissəsinin kəsilib Hitlerə verildiyi kinokadrları yaxşı xatırlayırlar. Sənədlər göstərir ki, Britaniya və Fransanın hərbi strateqləri müharibənin ilk 2 ili ərzində Bakını bombardmana məruz qoymağı ciddi müzakirə ediblər. Məqsəd SSRİ-nin neft sənayesini sıradan çıxarmaq idi ki, həm ordunun yanacaq təchizatı zəifləsin, həm də Hitler Qafqazı tutsa, buranın neftinə sahiblənə bilməsin. Lakin müharibənin gedişi döyüşlər Bakıya çatmadan dəyişdi, mənhus plan elə xəritə üzərində qaldı.

Müharibədə cəbhəyə yollanan Azərbaycan vətəndaşının yarıdan çoxu – 420 mini geri qayıtmayıb. Faşizmin qurbanı olan azərbaycanlı igidlərin balaları yetimliklə böyüyüb. Fərəhlə qeyd edək ki, atalar və oğullar estafetini 70 il sonra layiqincə davam etdirən igidlərimiz 4 il əvvəl Qarabağ uğrunda erməni faşizminə qarşı müharibədə misilsiz rəşadət göstərərək, əzəli torpaqlarımızı düşmən işğalından təmizləyiblər. 44 günlük Zəfər Yürüşümüz işğaldan azad edilmiş ərazilərimizdə üçrəngli, Ay-ulduzlu bayrağımızın ucaldılması ilə sona çatıb. Ötən ilin sentyabrında isə antiterror tədbirləri sayəsində doğma ərazilərimizin tam suverenliyi bərpa olunub. Amansız erməni faşizmi məhv edilib və nankor separatizmi yuvası dağıdılıb. Bu yolda 3 min şəhid verməşik. Qürurla vurğulayırıq ki, biz ata-babaları Berlində, oğulları isə Şuşada və Xankəndidə Zəfər bayramını qeyd edən rəşadətli xalqıq. Faşizmlə barışmaz mübarizədə canından keçən qəhrəmanların xatirəsi qəlblərimizdə daim yaşayacaq.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev İkinci Dünya müharibəsi veteranlarına daim yüksək diqqət və qayğı ilə yanaşır, onların ailələrinin sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində ardıcıl addımlar atır. Dövlətimizin başçısı alman faşizminə qarşı savaşda iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında 2 may 2024-cü il tarixli sərəncam imzalayıb. Həmin sənədlə müharibənin iştirakçılarına 2 min, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin ailələrinə, arxa hüdudlarda fərqlənmiş şəxslərə isə min manat məbləğində birdəfəlik maddi yardım verilməsi nəzərdə tutulub. Xalqımız bütün bunları Azərbaycanın keçdiyi şərəfli yola yüksək hörmətin təzahürü kimi alqışlayır.

Bəli, biz artıq faşizm üzərində 2 böyük qələbəni bayram edən xalqıq: 1945-ci ilin 9 May və 2020-ci ilin 8 noyabr günlərini. Hitler faşizminin də, erməni faşizminin də məhv olunması tarixə qızıl hərflərlə yazılıb. Ata və babalarımız Berlində, onların nəvələri isə Qarabağda Zəfər atəşfəşanlığına seviniblər.

**Əli NƏCƏFXANLI**
**XQ**

Naxçıvanda Kitab Festivalı



**Dünən Naxçıvan şəhərindəki "Saat meydanı" Turistik İstirahət Mərkəzində Kitab Festivalının açılışı olub. Mərasimdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli iştirak edib.**

Ekspozisiyalarda Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101, Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyinə həsr olunan 900 çeşiddə, 70 minə yaxın kitab və digər nümunələr nümayiş etdirilir. Sərgi ilə tanış olan Fuad Nəcəfli Naxçıvan Dövlət Universiteti, AMEA Naxçıvan Bölməsi və Naxçıvan Müəllimlər İnstitutu üçün ayrılmış stendlərdə muxtrespublikada fəaliyyət göstərən alim və pedaqoqların nəşr olunmuş tədqiqat əsərləri, dərslik və dərs vəsaitləri, eləcədə qəzet və jurnallara baxıb, bu əsərlərin işıq üzü görməsini yüksək qiymətləndirib.

"TEAS PRESS" Nəşriyyat Evinin Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr etdiyi stenddə dahi soydaşımızın mənalı ömür yoluna işıq tutan onlarla yerli və xarici dildə kitablar nümayiş etdirilir. Burada Fuad Nəcəfliyə "Heydər Əliyev: yaşayan tarix" kitabı hədiyyə olunub. Səlahiyyətli nümayəndə isə festivalda iştirak edən balaca kitabsevərlərə kitablar hədiyyə edib, onlarla xatirə fotoları çəkdirib.

Gənc könüllülər Kitab festivalının təşkilində fəal iştirak edib, kitab və mütaliə ilə bağlı fləşmob təqdim ediblər. Könüllülərin "Kitab hədiyyə et, dəyər qat" aksiyası çərçivəsində iştirakçıların təqdim etdikləri kitablar cəzaçəkmə müəssisəsi, internat məktəbi və ahıllar evinə təqdim olunacaq. Kitab festivalı mayın 11-dək davam edəcək.

**XQ**

Məmməd Cəfər–115

**Böyük ziyalı və görkəmli şəxsiyyət olan akademik Məmməd Cəfər Azərbaycan ədəbiyyatşünaslığında xüsusi xidmətləri olan alimlərdən biri idi. O, Azərbaycan ədəbi tənqidi ilə yanaşı, rus, Avropa və Şərq ədəbiyyatı tarixi ilə bağlı bir çox ciddi tədqiqatlar aparıb.**

# Ədəbiyyatımızın filosof tənqidçisi



Akademik Məmməd Cəfər Nizaminin, Füzulinin bədii-estetik görüşləri, eləcə də Mirzə Fətəli Axundov, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Cəfər Cabbarlı, Həsən bəy Zərdabi və Səməd Vurğunun haqqında sanballı məqalələr yazıb. Onun "Rus ədəbiyyatı tarixi oçerkləri", "A.İ.Gertsen", "Azərbaycan-rus ədəbi əlaqələri tarixindən", "Rus klassikləri" və üç cildlik "XIX əsr rus ədəbiyyatı" kimi çalışmaları ilə görkəmli alim Azərbaycanda rus ədəbiyyatşünaslığının əsasını qoyub.

Məmməd Cəfəri "filosof tənqidçi" adlandırıblar. İlk böyük əsəri olan beş fəsildən ibarət diplom işini fransız maarifçi filosofu Volterə həsr edib. Avropada maarifçi estetikanın nəzəri prinsiplərini dərindən araşdırıb. Müasirləri haqqında yazanda da fəlsəfi mühakimələrlə təhlil aparıb və məntiqi nəticəyə gəlib.

Məmmədcəfər Zeynalabdin oğlu Cəfərov 9 may 1909-cu ildə Naxçıvan şəhərinin Anbar məhəlləsində dərzi ailəsində doğulub. "Kündəgir" imzası ilə şeirlər də yazıb. O zaman Məmməd Cəfəri orta məktəbə qəbul etməyiblər. Hüseyn Cavidin qardaşı Məhəmməd Rasizadə Məmməd Cəfərə öz evində dərs deyib. Daha sonra Məmməd orta məktəbdə oxumaq istəyi ilə bağlı maarif naziri Ruhulla Axundova şeirlə müraciət yazıb. Nəhayət, R.Axundovun göstərişindən sonra o, Naxçıvanda arzuladığı məktəbə qəbul edilib.

Orta məktəbi müvəffəqiyyətlə bitirən gənc Naxçıvan Pedaqoji Texnikumuna daxil olub. Texnikumun son kursundan Pedaqoji İnstitutun dil-ədəbiyyat fakültəsinə köçürülüb. Sonra filologiya üzrə namizədlik və doktorluq dissertasiyaları müdafiə edib. Professor elmi adına yiyələnib. AMEA-nın müxbir üzvü və həqiqi üzvü seçilib.

O, ədəbi fəaliyyətə 1937–1938-ci illərdə "Kommunist", "Yeni yol" və "Ədəbiyyat qəzeti"ndə dərc etdirdiyi məqalələrlə başlayıb. Dövri mətbuatda vaxtaşırı çıxan elmi, ədəbi-tənqidi, publisistik və bədii əsərləri ilə tanınıb. Ədəbiyyatşünas–alim, tanınmış pedaqoq kimi ali məktəblərdə mühazirələr oxuyub. Eyni zamanda dərsliklər, ədəbiyyat tarixləri tərtib edib. Onun bədii yaradıcılığındakı "Qayanın dibində", "Qeybalının dostuna məktubu", "Metronun əxlaqı", "Sehrli palto", "Zənbillər", "Bir yüngülvari səhv" kimi povest və pyesləri də maraqla qarşılanıb.

Məmməd Cəfərin ömürlüyü çoxşaxəli əmək fəaliyyəti ilə zəngindir. "Maarif işçisi" qəzetinin şöbə müdiri, Azərbaycan Pedaqoji İnstitutunda kafedra müdiri, dekan, Bakı Müəllimlər İnstitutunda baş müəllim, Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Rus ədəbiyyatı kafedrasının dosenti, kafedra müdiri, filologiya fakültəsinin dekanı, "Ədəbiyyat qəzeti"nin şöbə müdiri, redaktoru, AMEA-nın Ədəbiyyat İnstitutunda baş elmi işçi, şöbə müdiri, həmin institutun direktoru və sair vəzifələrdə işləyib. Azərbaycan və dünya ədəbiyyatı tarixi, ədəbiyyat nəzəriyyəsi və estetika, fəlsəfə və kulturologiya məsələlərinə həsr edilmiş 30-dan çox kitabın, 750-yə yaxın məqalənin müəllifidir. Onun "M.F.Axundovun ədəbi-tənqidi görüşləri", "Füzuli düşünür", "Hüseyn Cavid", "Azərbaycan ədəbiyyatında romantizm", "Mütəfəkkirin şəxsiyyəti", "Nizaminin fikir dünyası" kimi tədqiqat əsərləri Azərbaycan mədəni-fəlsəfi loloji fikrinin ən qiymətli örnəklərindəndir.

Məmməd Cəfər elmi-pedaqoji xidmətlərinə görə müxtəlif orden və medallarla təltif edilib, Respublika Dövlət mükafatına və "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb. 1992-ci ildə Bakıda vəfat edən akademik Fəxri xiyabanda dəfn olunub. Ruhu şad olsun.

***Həzi HƏSƏNLİ,***
***Şair-publisist***

İslam Qəribli – 70

# Misraların sevgi işığı

**Görəsən, dünyanın açılmayan bir sirri qalıbmı? Axı bütün sirlər gec-tez açılır. Elə İslam Qəriblinin "Gecikmiş görüş"ü də onun sirli, sehirli könül dünyasının gizlinlərini, gec də olsa, açdı. Məhz bu kitabından sonra filologiya elmləri doktoru, professor İslam Qəriblinin gözəl müəllim, tədqiqatçı-alim, publisist olmaqla yanaşı, həm də gözəl şair olması üzə çıxdı, onu sevənlər üçün əsl tapıntı oldu.**



Adətən, istedadın, uğurun 90 faizi zəhmətə bağlıdır, deyirlər. Yaxşı müəllim, alim olmaq üçün çox çalışmaq, bilik xəzinəsini qətrə-qətrə toplamaq lazım gəlir. Amma bu ölçü, mizan, tərəzi şairlik üçün keçərli deyil. Şairlik – tanrı vergisidir, könül işidir. Ölməz söz ustadı Seyid Məhəmmədhüseyn Şəhriyar da "Şair ola bilməzsən, anan doğmasa şair" deyirdi. Bunları niyə xatırlayıram? Fikrimcə, alim İslam Qəriblinin şair kimi qəlbinin dərinliklərində hifz etdiyi, ən yaxınlarına belə aşkarlamadığı, "ismi pünhan"a yazdığı zərif sevgi duyğuları elə ilahi vergi təzahürləridir.

Elmi rəhbərim professor İslam Qəriblinin tədqiqat əsərlərinin, demək olar ki, əksəriyyəti ilə tanışam. Azərbaycan romantizminin nümayəndəsi Məhəmməd Hadi haqqında silsilə yazılarını oxuyanda həmişə düşünürdüm ki, İslam müəllimin saçlarını ağardan, vaxtsız bəmbəyaz edən məhz nakam şairin dərdidir, talesizliyidir, məhəbbətinin ağrısıdır. "Gecikmiş görüş" göstərdi ki, Məhəmməd Hadi ilə İslam Qəriblinin üst-üstə düşən acı eşq hekayətləri də varmış və onları yaxınlaşdıran, doğmalaşdıran, bəlkə də, elə bu hisslərmiş. Hamının qınına çəkildiyi "boz", rəngsiz dünyamızda bütün ürəklərin saf, səmimi məhəbbətə ehtiyacı var, əslində:

*O ötən günlərim bir iztirabdır,*
*Saçıma ələnən qırovdur, qardır,*
*O qədər intizar çəkmişəm ki, mən,*
*Ürəyim həsrətdən qabar-qabardır.*

Hər ürək ürək deyil, hər ürək sevə bilmir. İslam Qəribliyə görə, məhəbbət həm də ilahidən gələn səbr deməkdir. Şairi ayaqda saxlayan da elə tanrının məhəbbətlə qoşa yaratdığı cəbr və səbrdir:

*Bu nadan ağlımın dözdün cəbrinə,*
*Döndün sən sinəmdə qərib qəbrinə,*
*Səbr etdin illərlə, qurban səbrinə,*
*Səni əzablara yar eləsaid mən.*

İslam Qəriblinin "ismi-pünhan"a sevgisi təmizdir, alidir, təmənnasızdır. Bu eşqdə Həzrəti Yusif səbri gizlənir:

*Dünya yalan dünya, yaxşı var, bəd var,*
*Hər işə əndazə, hər sözə hədd var,*
*Bizim aramızda keçilməz sədd var,*
*O səddi keçməyə cəsarətim yox!*

Onun bir çox şeirləri həzin mahnı təsiri bağışlayır. Özabında nikbinlik var bu duyğuların. Buna görə də "tale qarğışı" həyatın müəyyən dönəmində "alqış"a dönür. Nə yaxşı ki, "Qəfil tutan bir qarğışdı məhəbbət", – deyən şairin arzusu çin olur. İllər şair İslam Qəriblini əyə bilmir, əksinə, dikəldir. Ömrünün 70-ci baharını qeyd edən alim-şair İslam Qəriblini ayaq üstə saxlayan təmiz, ləkəsiz məhəbbətindən aldığı güc, ümid bu gün də onu dağ əyilməzliyində saxlayır. O taylı–bu taylı Azərbaycanda, Türk dünyasında professor İslam Qəribli ədəbiyyatşünas alim-tədqiqatçı kimi tanınır, sevilir. Tələbələri üçün o, həm də gözəl müəllim-pedaqoqdur. Özü üçünsə:

*Elə zənn etmə ki, hissiz, lal daşam,*
*Mən dərdə ortağam, qəmə qardaşam,*
*Sirrim öz içimdə, sirrə sirdaşam,*
*Tanı bu nişanla, tanısan məni.*

Çoxşaxəli elmi yaradıcılığa malik ədəbiyyatşünas alimi fərqli baxış bucağından – lirik şair kimi tanıtmaq istədim. Sizi bilmirəm, mən İslam Qəriblini lirik şeirlər müəllifi – məhəbbət şairi kimi daha çox sevirəm:

*Məhəbbət sahili görünməz ada,*
*Kimlər baş əyməmiş bu böyük ada?*

70 illik yubileyiniz mübarək, gözəl şair, dəyərli alim, sevilən müəllim! Ömrünüzün davamı da doğma yurd-yuvaya, torpağa, vətənə, əzizlərinizə sevgi ilə yoğrulsun!

***Esmira İSMAYILOVA,***
***Lənkəran Dövlət Universiteti mətbuat xidmətinin rəhbəri***

# Lahıcdan Afrikaya yol

**Onu YouTube-də yayımlanan "DiasporaTV"-dəki "Uğurlu soydaş" proqramından tanıdıq. Verilişin qonağı İsmayıllı rayonunun Lahıc qəsəbəsində dünyaya gələn, hazırda Fransa vətəndaşı olan, 9 il Nigeriyada, 2 ildən bəri isə Anqolada yorulmadan milli mədəniyyətimizi təbliğ edən Azərbaycan Dostları Cəmiyyətinin sədri Billurə Əvəz qızı Bayramova-Bernard idi. O, müsahibə zamanı öz uğur hekayəsindən, yaşadığı ölkələrdə azərbaycançılıq ideyalarını yaymasından, ona bu mübarək işində dəstək olan həmvətənlərimizdən və xarici dostlarından elə vəcdlə danışırdı ki, fərəhlənməmək olmurdu.**



Billurə xanım Azərbaycan Dövlət İqtisad Universitetini (magistr) və İsveç Krallığı Lund Universitetini bitirib, ixtisasca maliyyəçidir. "Danone" şirkətində, "Beynəlxalq Qadınlar Təşkilatı"nda maliyyə meneceri kimi çalışıb. Bir neçə il əvvəl baş tutan "Fransa üçün birlikdə" siyahısına qoşularaq seçkidə iştirak edib və xaricdə yaşayan fransızların konsulu seçilib. Uzun illər Laqosda fəaliyyət göstərən fransız təşkilatı "Lagos Accueil"in prezidenti, "Laqos Lui Pastor" fransız məktəbinin İdarə heyətinin üzvü olub. O, Azərbaycan musiqisini və milli musiqi alətimiz olan tarı tanıtmaq üçün Afrikada konsert proqramları təşkil edib. Öyrəndik ki, soydaşımız Afrikada inşası yarımçıq qalan məktəbin tikintisinə dəstək göstərib, şirkətlər təsis edib, evini restorana çevirib, burada Azərbaycan milli yeməklərini tanıtdırıb, ənənəvi şirniyyatları ölkəmizə gətirib. Diasporla İş üzrə Dövlət Komitəsinin xəttilə Şuşaya səfərinin zəngin təəssüratları da var. Diaspor fəalı söhbət zamanı Azərbaycanı tanıtmaq yolunda ona dəstək verən xarici ölkə vətəndaşı olan həyat yoldaşına və valideynlərinə təşəkkür etdi. Qürbətdə Vətəni yaşadan digər soydaşlarımızın da diaspor fəaliyyətindən söhbət açdı. O, azərbaycanlı fəalların layihələr təşkil edərkən maddi dəstək almadan da ölkəmiz naminə çalışdıqlarını vurğuladı. Qeyd etdi ki, diaspor fəaliyyəti könül işi olduğu üçün bütün həmvətənlərimiz bu missiyanı ürəklə həyata keçirməlidirlər.

Billurə Bayramova-Bernard Afrika bazarının Azərbaycan məhsullarına ehtiyacı olduğunu da vurğuladı. Keçirilən sərgilərdə, yarmarkalarda vətənimizi tanıtmaq üçün Azərbaycan şirkətlərinin brend şərablar, çaylar, şirniyyatlarla ona dəstək olmalarını, məhsullarını göndərmələrini arzu etdiyini də dilə gətirdi.

Düşünürük ki, Azərbaycanı xaricdə tanıdan hər kəsə hamılıqla yardımçı olmalıyıq.

***Ə.ƏLİYEV***
***XQ***

# Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# BAKI DÖVLƏT UNİVERSİTETİ

## aşağıdakı fakültə və kafedralarda boş olan və seçki müddəti başa çatacaq vəzifələri tutmaq üçün müsabiqə elan edir

**Dekan vəzifəsini tutmaq üçün:**

| Fakültə | Vəzifə | Yer |
|---|---|---|
| Tətbiqi riyaziyyat və kibernetika fakültəsi | Dekan | 1 |

**Kafedra müdiri vəzifəsini tutmaq üçün:**

| Kafedralar | Vəzifələr | Yerlər |
|---|---|---|
| Azərbaycan dili və nitq mədəniyyəti kafedrası | Kafedra müdiri | 1 |
| Rus ədəbiyyatı tarixi kafedrası | Kafedra müdiri | 1 |
| Rus dili (təbiət fakültələri üzrə) kafedrası | Kafedra müdiri | 1 |
| Maddə quruluşu kafedrası | Kafedra müdiri | 1 |
| Faydalı qazıntılar kafedrası | Kafedra müdiri | 1 |
| Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrası | Kafedra müdiri | 1 |
| Cinayət prosesi kafedrası | Kafedra müdiri | 1 |
| Cinayət hüququ və kriminologiya kafedrası | Kafedra müdiri | 1 |
| Əqli mülkiyyət hüququ kafedrası | Kafedra müdiri | 1 |
| Kitabxana-informasiya resurslarının idarə edilməsi kafedrası | Kafedra müdiri | 1 |
| Üzvi kimya kafedrası | Kafedra müdiri | 1 |
| Neft kimyası və kimya texnologiyası kafedrası | Kafedra müdiri | 1 |
| Yüksək molekullu birləşmələr kimyası kafedrası | Kafedra müdiri | 1 |
| İdarəetmə nəzəriyyəsinin riyazi üsulları kafedrası | Kafedra müdiri | 1 |
| Fəlsəfə kafedrası | Kafedra müdiri | 1 |
| Pedaqogika kafedrası | Kafedra müdiri | 1 |
| Sosiologiya kafedrası | Kafedra müdiri | 1 |
| İnformatika kafedrası | Kafedra müdiri | 1 |
| Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası kafedrası | Kafedra müdiri | 1 |
| İqtisadi və sosial coğrafiya kafedrası | Kafedra müdiri | 1 |
| Hidrometeorologiya kafedrası | Kafedra müdiri | 1 |
| Beynəlxalq münasibətlər kafedrası | Kafedra müdiri | 1 |

**Professor-müəllim vəzifəsini tutmaq üçün:**

| Kafedralar | Vəzifələr | Yerlər |
|---|---|---|
| Zoologiya və fiziologiya kafedrası | Professor<br>Dosent<br>Müəllim | 1<br>1<br>0,5 |
| Molekulyar biologiya və biotexnologiyalar kaferası | Dosent | 1 |
| Botanika və bitki fiziologiyası kafedrası | Müəllim | 1 |
| Genetika kafedrası | Professor<br>Dosent | 1<br>1 |
| Biotibbi materiallar ICESCO kafedrası | Dosent | 1 |
| Biofizika və biokimya kafedrası | Professor<br>Dosent<br>Müəllim | 1<br>1<br>0,5 |
| İqtisadiyyat kafedrası | Müəllim<br>Müəllim | 2x1<br>0,5 |
| Beynəlxalq münasibətlər kafedrası | Dosent<br>Dosent<br>Müəllim | 2x1<br>0,5<br>0,5 |
| Politologiya və sosiologiya kafedrası | Baş müəllim | 1 |
| Maliyyə və menecment kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>2x1 |
| Dünya iqtisadiyyatı kafedrası | Dosent<br>Baş müəllim | 1<br>1 |
| Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrası | Müəllim | 0,5 |
| Azərbaycan coğrafiyası və coğrafiyanın tədrisi metodikası kafedrası | Dosent<br>Müəllim | 1<br>1 |
| Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrası | Baş müəllim | 1 |
| Ekoloji kimya kafedrası | Baş müəllim | 1 |
| Torpaqşünaslıq və daşınmaz əmlakın kadastrı kafedrası | Dosent | 1 |
| Həyat fəaliyyətinin təhlükəsizliyi kafedrası | Baş müəllim | 1 |
| Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası kafedrası | Dosent<br>Müəllim | 1<br>1 |
| Azərbaycan ədəbiyyatı tarixi kafedrası | Dosent<br>Müəllim | 1<br>0,5 |
| İngilis dili (humanitar fakültələr üzrə) kafedrası | Professor<br>Dosent<br>Baş müəllim<br>Müəllim<br>Müəllim | 1<br>1<br>2x1<br>2x1<br>0,5 |
| İngilis dili (təbiət fakültələri üzrə) kafedrası | Müəllim<br>Müəllim | 1<br>0,5 |
| Rus dilçiliyi kafedrası | Baş müəllim | 1 |
| Rus dili (humanitar fakültələr üzrə) kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>1 |
| Rus dili (təbiət fakültələri üzrə) kafedrası | Baş müəllim<br>Müəllim | 2x1<br>0,5 |
| Ümumi dilçilik kafedrası | Müəllim | 0,5 |
| Fiziki elektronika kafedrası | Müəllim | 0,5 |
| Maddə quruluşu kafedrası | Dosent<br>Müəllim | 1<br>1 |
| Nanomaterialların kimyəvi fizikası kafedrası | Dosent | 1 |
| Optika və molekulyar fizika kafedrası | Dosent | 1 |
| Ümumi fizika və fizikanın tədrisi metodikası kafedrası | Müəllim | 1 |
| Ümumi və tarixi geologiya kafedrası | Dosent | 1 |
| Beynəlxalq ümumi hüquq kafedrası | Professor<br>Dosent | 1<br>1 |
| Cinayət prosesi kafedrası | Baş müəllim | 1 |
| Kriminalistika və məhkəmə ekspertizası kafedrası | Dosent | 2x1 |
| Mülki hüquq kafedrası | Dosent | 0,5 |
| Cinayət hüququ və kriminologiya kafedrası | Müəllim | 0,5 |
| Sənəd menecmenti kafedrası | Müəllim | 0,5 |
| Kitabxanaşünaslıq kafedrası | Dosent | 2x1 |
| Redaksiya-nəşriyyat işi kafedrası | Müəllim | 0,5 |
| Milli mətbuat tarixi kafedrası | Dosent | 1 |
| Multimedia və elektron kommunikasiya kafedrası | Professor | 1 |
| Analitik kimya kafedrası | Müəllim | 1 |
| Fiziki və kolloid kimya kafedrası | Dosent | 1 |
| Ali riyaziyyat kafedrası | Dosent<br>Dosent | 2x1<br>0,5 |
| Cəbr və həndəsə kafedrası | Dosent | 1 |
| Funksiyalar nəzəriyyəsi və funksional analiz kafedrası | Professor | 1 |
| Riyaziyyat və onun tədrisi metodikası kafedrası | Baş müəllim | 1 |
| Fəlsəfə kafedrası | Müəllim | 0,5 |
| Fəlsəfə tarixi və mədəniyyətşünaslıq kafedrası | Dosent | 1 |
| Pedaqogika kafedrası | Müəllim | 1 |
| Psixologiya kafedrası | Baş müəllim<br>Müəllim | 1<br>1 |
| Sosial iş kafedrası | Dosent<br>Müəllim | 1<br>0,5 |
| Sosial və pedaqoji psixologiya kafedrası | Müəllim<br>Müəllim | 1<br>0,5 |
| Ərəb filologiyası kafedrası | Müəllim<br>Müəllim | 1<br>0,5 |
| Türk filologiyası kafedrası | Dosent<br>Baş müəllim | 2x0,5<br>0,5 |
| Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrası | Dosent<br>Dosent<br>Müəllim | 1<br>0,5<br>0,5 |
| Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrası | Professor<br>Dosent<br>Müəllim | 1<br>1<br>3x0,5 |
| Azərbaycan tarixi (təbiət fakültələri üzrə) kafedrası | Professor<br>Dosent<br>Baş müəllim | 1<br>2x1<br>1 |
| Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrası | Dosent<br>Müəllim | 1<br>1 |
| Slavyan ölkələri tarixi kafedrası | Müəllim | 0,5 |
| Asiya və Afrika ölkələri tarixi kafedrası | Dosent | 1 |
| İnformasiya texnologiyaları və proqramlaşdırma kafedrası | Dosent<br>Baş müəllim | 1<br>1 |
| İqtisadi kibernetika kafedrası | Dosent | 1 |
| Tətbiqi analizin riyazi üsulları kafedrası | Professor | 1 |
| Tətbiqi riyaziyyat kafedrası | Dosent | 1 |

**Qeyd – Müsabiqədə iştirak etmək üçün sənədlər seçkinin elan olunduğu gündən Azərbaycan Respublikası Təhsil Nazirliyi Kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"na əsasən 1 ay müddətində, 1996-cı il 7 avqust tarixli 401 saylı "Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında" əsasnaməyə uyğun şəkildə 30 gün müddətində qəbul edilir.**

**Ünvan – AZ1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 33.**

# Soruşun, cavab verək



**Hörmətli oxucular! Bu gün sizin müraciətləriniz əsasında subbakalavr, bakalavriat, magistratura anlayışlarına aydınlıq gətiririk.**

**Subbakalavr** – yüksək texniki peşə təhsili səviyyəsində və orta ixtisas təhsili pilləsində məzunlara verilən peşə-ixtisas dərəcəsidir.

**Bakalavriat** – müvafiq ixtisaslar üzrə geniş profilli mütəxəssis hazırlığını həyata keçirən ali təhsilin birinci səviyyəsidir. Təhsilin bu səviyyəsini bitirənlərə bakalavr ali peşə-ixtisas dərəcəsi verilir.

**Magistratura** – ali təhsilin ikinci səviyyəsi hesab edilir. Təhsilin bu səviyyəsini bitirənlərə magistr ali elmi-ixtisas dərəcəsi verilir.

Qeyd edək ki, bakalavr dərəcəsi olmayanlar magistratura səviyyəsində təhsil ala bilməzlər. Lakin subbakalavr dərəcəsi olmayanlar birbaşa bakalavriat təhsili ala bilirlər.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***


## "Bakıxanov-Çörək" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2024-cü il saat 10.00-da Bakıxanov-Çörək" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. Cəmiyyətin 2023-cü il üzrə illik hesabatının müzakirəsi və təsdiqi.
2. 2023-cü ilin nəticələri üzrə dividendlərin verilməsi.
3. Cəmiyyətin müşahidə şurasının müfəttişinin seçilməsi.

Səhmdarlar ümumi yığıncağın gündəliyi ilə bağlı materiallarla Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Bəşir Bünyadov küçəsi 26 B nömrəli ünvanda iş günləri saat 10.00-dan 16.00-dək tanış ola bilərlər.

Səhmdar ümumi yığıncaqda iştirak hüququnu bilavasitə özü və ya nümayəndəsi vasitəsilə həyata keçirə bilər. Bu zaman səhmdarın nümayəndəsi qanunvericiliklə müəyyənləşdirilmiş qaydada tərtib edilmiş etibarnaməyə malik olmalıdır.

Ünvan – Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Mehmandarov küçəsi 37A, "Badukubə" şadlıq evi.

***Müşahidə şurası***

## "Azərelektroterm" ASC səhmdarlarının nəzərinə!

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə və "Azərelektroterm" ASC-nin nizamnaməsinə əsasən, səhmdarların illik ümumi yığıncağının məsafədən (onlayn qaydada) keçirilməsi 25 iyun 2024-cü il saat 11.00-da nəzərdə tutulmuşdur.

Yığıncağın gündəliyi:

1. Cəmiyyətin 2023-cü il üzrə illik maliyyə hesabatının müzakirəsi və təsdiq edilməsi.
2. Cəmiyyətin baş direktorunun vəzifədən azad edilməsi və yeni baş direktorun seçilməsi.

Qiyabi keçirilən ümumi yığıncağın gündəliyinin materiallarını və əlavə məlumatları "Azərelektroterm" ASC-nin Bakı şəhəri, Nərimanov rayonu, Ələsgər Qayıbov küçəsi (keçmiş 1222-ci küçə) 12 nömrəli ünvandan əldə etmək olar.

Əlaqə telefonu – (010)-232-10-49.

***İdarə heyəti***

## "Suraxanı Satış Bazası" ASC səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il saat 10.00-da "Suraxanı Satış Bazası" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı cəmiyyətin yerləşdiyi ünvanda keçiriləcəkdir.

Gündəliyə aşağıdakı məsələlər verilir:

1. 2023-cü ilin hesabatı və maliyyə hesabatlarının təsdiq edilməsi .
2. Mənfəətin bölüşdürülməsi.
3. Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirəyə verilmiş məsələlərlə bağlı sənədlərlə tanışlıq üçün cəmiyyətə gələ bilərlər.

Əlaqə telefonu- 99450-330-41-51.

Ünvan- Bakı şəhəri, Suraxanı rayonu, Yeni Suraxanı qəsəbəsi, 14 iyul küçəsi 153.

***İdarə heyəti***


**Vətəndən uzaqlarda**

# Əfqanıstanda yaşayan azərbaycanlılar

## *Soydaşlarımız bu ölkədə necə və nə vaxt məskunlaşıblar?*

**Azərbaycanlıların nisbətən sıx məskunlaşdıqları əcnəbi ölkələrdən biri də Əfqanıstandır. Rəsmi statistikaya görə, Əfqanıstan ərazisində soydaşlarımızın sayı 400 min, qeyri-rəsmi mənbələrə görə isə 2 milyon nəfərə çatır. Bəs azərbaycanlılar Əfqanıstanda nə vaxtdan yerləşib? Bu və digər maraq doğuran məsələlərə aydınlıq gətirmək üçün AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun aparıcı elmi işçisi Mübariz Ağalarlı ilə görüşüb söhbət etdik:**



**– Azərbaycan kökənli əhalinin Əfqanıstanda məskunlaşması barədə tarixi mənbələr nə deyir?**

– Əfqanıstanda yaşayan Azərbaycanlıların bu bölgəyə gəlişi əsasən XI–XII əsrlərə təsadüf edir. Məsələn, qədim türk tayfaları sayılan əfşarlar bura səlcuqlarla birlikdə XI əsrdə gəliblər. Daha sonra, Nadir şah Əfşarın hakimiyyəti dövründə (1736-1747) Qarabağ bölgəsindən qacar, şahsevən, bayat, otuziki və digər tayfaların Mərv, Qəndəhar, Qəznə bölgələrinə köçürülmə prosesi davam edib. Həmin dönəmdə Qarabağdan bir çox ailələrin Mərv şəhərinə köçməsi də tarixi faktdır. Lakin burdakı qarabağlılar özbək–əfqan hərbi münaqişələri (1750-ci illər) səbəbindən oradan Herat şəhərinə köçməyə məcbur olublar. Məhz Mərv şəhərindən Herata gəldikləri üçün burada artıq mərvilər kimi tanınıblar.

Qarabağdan köçürülən soydaşlarımızın bir hissəsi öz dillərini unudaraq dəri (dari) dilində danışsalar da, mərvilər öz ana dilini – Azərbaycan dilini qoruyub saxlayıblar. Mərvilər hazırda daha çox Əfqanıstanın Şəkiban adlı bir qəsəbəsində yaşayır və sayları təqribən 18 min nəfərdən ibarətdir. Onlar öz dillərini, mədəniyyətlərini və etnik kimliklərini saxlaya biliblər. Onu da qeyd edək ki, Səfəvilər, Əfşarlar, Qacarların hakimiyyəti illərində həmyerlilərimiz yüksək zümrələrdə təmsil olunublar. Mərv, Herat, Qəndəhar və digər ərazilərdə əyalət hakimləri arasında azərbaycanlılarln daha çox olduğunu tarixi mənbələr təsdiq edir.



**– Məlumdur ki, Əfqanıstanda qızılbaşlar da çoxdur. Onlar ölkə Konstitusiyasında rəsmi olaraq etnik qrup kimi tanınırlar. Hətta bu ölkənin dövlət himnində qızılbaşların adı qeyd olunur...**

– Qeyd edək ki, XVII əsrin əvvəllərində Səfəvi hökmdarı I Şah Abbas tərəfindən imperiyanın şərq sərhədlərini qorumaq və etnik dayaq yaratmaq məqsədilə Əfqanıstan ərazisində bir çox etnoslar, xüsusilə də qızılbaşlar məskunlaşdırılıb. Bu proses yuxarıda qeyd etdiyimiz kimi 1737-ci ildən sonra Nadir şah və Abdallı Əhməd xan Durrani (ilk əfqan şahı) tərəfindən də davam etdirilib. Bu gün Əfqanıstanda yaşayan qızılbaşlar ölkənin ən təhsilli kəsimi sayılır və bir çox yüksək dövlət vəzifələri məhz onlara həvalə olunub.

Əfqanıstanda indi qızılbaşların sayının 400 minə yaxın olduğu bildirilir. Onların böyük əksəriyyəti fars və tacik əhalisi ilə əhatə olunduqları üçün hazırda dəri və tacik dillərində danışırlar. Öz dillərini qoruyub saxlayanlar da var. Qızılbaşlar Əfqanıstan konstitusiyasında rəsmi olaraq etnik qrup kimi tanındığı üçün onların adı dövlət himnində çəkilib.

**– Çağdaş Əfqanıstanda Azərbaycan mənşəli toponimlərə də rast gəlinir. Bu barədə də məlumat verərdiniz...**

– Əfqanıstanda yaşayan azərbaycanlı soydaşlarımız öz kimliklərini toponimlərdə yaşadaraq, doğma Azərbaycandan "apardıqları" Qarabağ, Bayat, Şəki, Əfşar yer adlarını öz yaşadıqları məntəqələrə veriblər. Bundan başqa hazırda orada Əfşar, Əfşar-təpə, Əfşar-nənəkçi, Bayat, Şahağası, Otuzikilər, Şahsevən kimi toponimlər mövcuddur. Qarabağ adlı iki yaşayış məntəqəsindən biri Kabil şəhərindən 60 kilometr şimalda, Baqram aviabazasının 20 kilometr cənub-şərqində yerləşir. Burada təxminən 20 min soydaşımız yaşayır. Qarabağ adını daşıyan ikinci yaşayış məntəqəsi isə Qəznə vilayətinin eyni adlı mərkəzindən cənubda yerləşir və əhalisinin sayı 60 minə yaxındır. Mərvilərin yaşadığı qəsəbələrdən biri Şəki-Ban adlanır.

**– Əfqanıstandakı soydaşlarımızın Azərbaycan dövlətindən, xalqından umduqları nədir?**

– Əfqanıstanda baş verən siyasi proseslər, azərbaycanlı soydaşlarımızın ağır durumu xalqımızı narahat edir. Taliban rejiminin əhalinin mədəni-intellektual təbəqələrinə, xüsusislə də türksoylu xalqla qarşı mənfi münasibəti yerli sakinlərdə narazılıq doğurur. Təəssüf ki, talibançılar şəhər və əyalət mərkəzlərində məskunlaşan türksoylu əhaliyə qarşı təqib və təzyiqləri günbəgün artırırlar.

Talibanın artan təhdidləri türksoylu əhalinin məcburi mühacirətinə səbəb olur. Əfqanıstanda məskunlaşan soydaşlarımızın taleyinə biganə qalmamalıyıq. Burada yaşayan yüz minlərlə Azərbaycan kökənli əhali Bakıdan siyasi və mənəvi dəstək umur.

Hazırda Əfqanıstanda yaşayan Azərbaycan kökənli əhalinin ölkəmizlə elm, mədəni və humanitar sahələrdə əlaqələrinin genişləndirilməsi olduqca vacibdir. Unutmayaq ki, milli geosiyasi maraqlarımız Mərkəzi Asiyanın əhəmiyyətli dövlətlərindən olan Əfqanıstanla qarşılıqlı inam və etimad əsasında tərəfdaşlığı zəruri edir.

***Pünhan ƏFƏNDİYEV,***
***Məsaim ABDULLAYEV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 95 (30499) 9 may 2024-cü il, cümə axşamı

# Azərbaycan futbolunun canlı əfsanəsi

## *Lev Yaşin Ələkbər Məmmədovu əsl hücum lideri adlandırmışdı*

**Ötən əsrin 90-cı illərinin sonu və ya 2000-ci illərin əvvəli idi. Axşam işdən çıxıb, evə gedərkən redaksiyamızın yerləşdiyi Bülbül prospektində Ələkbər Məmmədovla qarşılaşdıq. Qoltuğunda bir yığın qəzet-jurnal vardı. Adətən, belə görüşlər zamanı hamımız üçün ənənəvi "Necəsiz?, Nə var, nə yox"? kəlmələrindən sonra söhbəti qayıdıb redaksiyada davam etdirməyi təklif etdim. Sovet futbolunda məşhur mərkəz hücumçularından biri olmuş Azərbaycan futbol məktəbinin unudulmaz yetirməsi Ələkbər Əmir oğlu Məmmədovla həmsöhbət olmaq, əlbəttə ki, çox xoş idi.**




Bu gün, faşizm üzərində sovet xalqının qələbəsinin 79-cu ilinin qeyd olunduğu 9 Mayda Ələkbər Məmmədovun anadan olmasının 94-cü ili tamam olur. Azərbaycan idmanında böyük xidmətlərinə və yüksək nailiyyətlərinə görə 2-ci Fəxri Xiyabanda dəfn edilmiş görkəmli şəxsiyyəti zəngin karyerasından bəzi məqamları xatırlamaqla bir daha hörmət və ehtiramla yad edək.

Azərbaycanın futbol ictimaiyyəti 1993-cü ildən dünya şöhrətli mərhum hakimimiz Tofiq Bəhramovun adını daşıyan Respublika stadionu-



nun 1951-ci ilin payızında istifadəyə verildiyini yəqin ki, yaxşı bilir. Bu gün artıq 73 yaşında olan əzəmətli stadionun rəsmi açılış mərasimi də elə həmin il sentyabrın 16-na təsadüf etmiş və burada ilk qolu Ə.Məmmədov vurmuşdur.

Onda 14-cü SSRİ çempionatının "B" qrupunda çıxış edən və "Neftyanik" adı ilə mübarizə aparan komandamız Vilnüsün "Spartak" kollektivini qəbul edib, Litvaya dörd cavabsız qolla yola salmışdı. Tbilisili hakim N.Ramişvilinin idarə etdiyi oyunda hesabı 36-cı dəqiqədə Məmmədov açmışdı. Bu, həmin stadionda qeydə alınan ilk "rəsmi" qol olmuşdur. Görüşün ikinci hissəsində Ələkbərin ikinci dəfə dəqiq zərbə ilə fərqləndiyini də qeyd edə bilərik.

Statistika onu da xatırladır ki, 18 komandanın iştirakı ilə keçirilmiş turnirdə "Neftyanik" 45 xalla 4-cü yeri tutmuşdur. Bakılıların hücum xəttinin lideri Məmmədov isə 34 görüşün hamısında meydana çıxıb, 21 qolun müəllifi olmuşdur.

Yüksək istedadı heç kimdə şəkk-şübhə doğurmayan hücumçu ən böyük uğurlarının sevincini Moskvanın "Dinamo" komandası heyətində yaşamışdı. Həmyerlimiz 1954-cü ildən 1959-cu ilədək bu adlı-sanlı klubun tərkibində dörd dəfə SSRİ çempionu olmaqla onun məşqçilərinin və çoxminli azarkeş ordusunun ümidlərini tam doğrultmuşdu. İndiki meyarlarla kiçik Avropa çempionatı hesab edə biləcəyimiz ovaxtkı Sovet İttifaqı çempionatlarının dörd qızıl medalına sahib olmaq, onların qazanılmasında sərrast zərbələrlə mühüm rol oynamaq heç də hər futbolçunun işi deyildi. Ə.Məmmədov isə bunu bacarmışdı. "Dinamo"nun və SSRİ yığma komandasının əfsanəvi qapıçısı Lev İvanoviç Yaşinin bir dəfə onun haqqında dediyi "Ələkbər meydanda əsl hücum lideri idi" sözləri "Alik" ləqəbli futbolçunun parlaq ustalığının təkzibolunmaz təsdiqi idi.

Məşhur hücumçunun futbol həyatında ən əlamətdar günlərdən biri də 1955-ci ilin 4 sentyabrıdır. Həmin gün Moskva dinamoçularının İtaliyanın Milan şəhərində eyniadlı yerli klubla keçirdikləri və hədsiz maraqla qarşılanan yoldaşlıq görüşü gözlənilmədən böyük hesabla (4:1) qonaqların xeyrinə başa çatmış, meydan sahiblərinin qapısına vurulan bütün dörd qolun müəllifi Məmmədov olmuşdu. Nəhəng "San Siro" stadionunda tamaşaçılarla dolu tribunalar qarşısında bir hücumçunun "Milan"ın qapısına dörd top vurması qeyri-adi göstərici idi.

Avropa çempionatının seçmə mərhələsində SSRİ yığma komandasının da şərəfini qorumuş Ə.Məmmədov uğurlarla zəngin bir həyat yaşamışdır. O, Moskva klubunda çıxışlarını başa vurduqdan sonra Bakıya qayıtmış, məşqçilik fəaliyyəti ilə məşğul olmuş, "Neftçi"nin, Azərbaycan milli komandasının baş məşqçisi kimi çalışmış, Dövlət Neft və Sənaye Universitetində kafedra müdiri işləmişdir. Həyatı isə 2014-cü il iyulun 28-də, 84 yaşında SSRİ Əməkdar idman ustası və Əməkdar məşqçisi kimi tərk etmişdir. Futbolumuz, bütünlüklə idmanımız üçün həmin kədərli gündən artıq on il ötür. Amma lap yüz ildən sonra da professor, "Şöhrət" ordenli Ələkbər Məmmədov unudulmayacaq, xatirələrdə, o cümlədən, bir vaxtlar qonağı olduğu "Xalq qəzeti"nin səhifələrində əbədi yaşayacaq.

Ruhu şad olsun.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

İDMAN



## Çexiyalı atıcı Bakıda qızıl medal qazanıb

**Bakıda atıcılıq üzrə Dünya Kuboku yarışında kişilər arasında 25 metr məsafəyə tapançadan sürətli atəş açma növündə final mərhələsi keçirilib.**

Qızıl medal uğrunda mübarizə çinli Xinjie Vanq və çexiyalı Martin Podraski arasında gedib. Duelin əsas mərhələsində dəqiq atışların sayı bərabər olduğundan (32), əlavə 5 atışa ehtiyac duyulub. Həlledici mərhələdə təcrübəli M.Podraski hədəflərin hamısını dəqiq nişan alaraq karyerasında 5-ci dəfə qızıl medal sevinci yaşayıb. X.Vanq fəxri kürsünün ikinci pilləsinə qalxıb. Fransalı Klemen Besua isə 25 dəqiq atışla bürünc mükafatın sahibi olub.

Qeyd edək ki, Dünya Kubokuna mayın 12-də yekun vurulacaq.

## Ölkəmizdə körlinq idman bölməsi açılıb

**Azərbaycan üçün yeni idman növü - körlinqin təqdimatı olub.**



Heydər Əliyev adına İdman-Konsert Kompleksinin buz meydançasında keçirilən tədbirdə kompleksin direktoru Fikrət Hüseynov, "Ocaq Sport" klubunun İdarə Heyətinin sədri Vəfa Bəkərova və Türkiyədən dəvət olunan mütəxəssis Ahmet Alperen Tunqa iştirak ediblər.

V.Bəkərova Qış Olimpiya Oyunlarının proqramına daxil olan bu idman növünün inkişafı üçün bir sıra işlərin görüləcəyini deyib. O qeyd edib ki, bununla bağlı məşqçi də dəvət olunub.

## Ən güclü badmintonçular

**Yeniyetmələr arasında badminton üzrə Azərbaycan birinciliyi keçirilib.**




2012-2013 təvəllüdlü idmançılar arasında təşkil edilən yarışda 5 kateqoriya üzrə mükafatçılar müəyyənləşib.

Oğlanlar arasında fərdi yarışda Malik Cəfərov, qızlarda Yağmur Quliyeva qalib olub. Qoşa yarışda isə Ömər Teymurlu–Yusif Kamalov, Banu İbrahimli–Yağmur Quliyeva cütlükləri birinci olublar. Qarışıq–qoşada isə Ömər Teymurlu–Banu İbrahimli fəxri kürsünün ən yüksək pilləsində yer alıb.

***L.QURBANOVA***
***XQ***

## Qocalmanı necə ləngitmək olar?

**Barselonadakı Pumpeu Fabra Universitetinin alimləri aşkar ediblər ki, beyin və əzələ bioritmlərinin bərpası və sinxronlaşdırılması siçanlarda fiziki qocalmanın və zəifliyin qarşısını ala bilər. Tədqiqatçıların nəticələri "Science" jurnalında dərc olunub.**



Tədqiqatçılar bildiriblər ki, heyvanlarda və insanlarda molekulyar saat deyilən bir şəbəkə bədən sağlamlığını və normal fizioloji fəaliyyəti qorumaq üçün vacibdir. Onun əsas komponentləri beyin və əzələlərdir.

Laboratoriya siçanları üzərində aparılan təcrübələr göstərib ki, əzələ və beyin bioritmlərinin sinxronizasiyası xüsusi Bmal1 geni ilə tənzimlənir. Genomda Bmal1 olmadıqda gəmiricilər vaxtından əvvəl qocalmağa, əzələ kütləsi isə tükənməyə meyl göstərir.

Bu patologiyanın mənfi nəticələrini aradan qaldırmaq məqsədilə alimlər gəmiricilərin beyin və skelet əzələ toxumasında (birlikdə və ayrıca) Bmal1 istehsalını süni şəkildə artırıblar. Nəticələr göstərib ki, beyin və əzələ toxumalarında Bmal1 ifadəsinin eyni vaxtda artması orqanizmin düzgün fəaliyyətinin bərpasına töhfə verib və qocalmanı ləngidib.

Alimlərin fikrincə, gecələr qida qəbulunu məhdudlaşdırmaqla vaxtından əvvəl qocalmanın və kövrəkliyin qarşısını almaq olar.

***S.ELAY***
***XQ***



## Abşeronda yağmursuz, bölgələrdə yağış və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 9-da Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir. Cənub-qərb küləyi əsəcək. Gecə 12-15°, gündüz 19-24° isti olacaq.**

Atmosfer təzyiqi 764 mm civə sütunundan 761 mm civə sütununa enəcək, nisbi rütubət gecə 70-80, gündüz 55-60 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə arabir leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, bəzi dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşama doğru tədricən kəsiləcək. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 20-25°, dağlarda gecə 2-7°, gündüz 7-12° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

## Soydaşımız Bişkek bələdiyyəsi sədrinin müavini oldu

**Qırğızıstanda yaşayan soydaşımız, "Tazalık" bələdiyyə müəssisəsinin direktoru Ramiz Əliyev Bişkek şəhər bələdiyyəsi sədrinin müavini təyin edilib.**



Bişkek şəhər bələdiyyəsinin mətbuat xidmətinin yaydığı məlumatda bildirilir ki, bununla bağlı paytaxt bələdiyyəsinin sədri Aybek Cunuşaliyev sərəncam imzalayıb.

Məlumatda bildirilir ki, "Tazalık" müəssisəsindən əvvəl Ramiz Əliyev "Lokomotiv" idman-sağlamlıq kompleksinin rəhbəri, "Qırğız dəmir yolları" idarəsində idarə rəisi, həmçinin Qırğızıstanın maliyyə nəzarəti orqanlarında müxtəlif vəzifələrdə çalışıb. İşlədiyi bütün vəzifələrdə Ramiz Əliyev özünü vicdanlı və peşəkar kadr kimi göstərib və kollektivin hörmətini qazanıb.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

**Bişkek**

## ALLAH RƏHMƏT ELƏSİN

ADPU-nun rəhbərliyi və fizika fakültəsi fizikanın tədrisi texnologiyası kafedrasının müdiri, dosent Sevinc Cəlilovaya qayınanası

**RUHİM CƏLİLOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**

**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

**ÜNVANIMIZ:**
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

| | |
|---|---|
| İNDEKS | 0282 |
| TİRAJ | 3936 |
| SİFARİŞ | 962 |
| QİYMƏTİ | 60 qəpik |

Növbətçi redaktor
Paşa ƏMİRCANOV
Çapa imzalanmışdır 00:00